Bu bir xalq qəzetidi
ƏDALƏT

## "Tələbələrin Qarabağda işləməyini mənfi hal saymıram"

### Etibar Əliyev Aqil Abbasın təklifini dəstəklədi



**Deputat Aqil Abbas Milli Məclisin ötənilki payız sessiyasında keçirilən plenar iclasında tələbələrin Tələbə İnşaat Dəstəsinə qoşulması və Qarabağda işləməyə sövq edilməsi ilə bağlı təklif irəli sürüb.**

Adalet.az xəbər verir ki,Bakıvaxtı.az-a açıqlama verən millət vəkili Etibar Əliyev həmkarının bu fikrini dəstəklədiyini bildirib: "Mən Aqil Abbasın bu fikrini mütərəqqi hesab edirəm. Biz Sovet dönəmində təhsil almışıq. O dövrdə bizi ikinci və üçüncü kursun yay tətilində həm Tumenə, həm də Murmanska tələbə inşaat dəstəsinə dəvət etmişdilər. Biz orda məktəb tikmişik. Bəlkə də bizim o məktəbi inşa etməyimiz tarixdə qalıb". Deputat hesab edir ki, bütün hallarda tələbələrin yay tətilində məşğuliyyəti üçün imkanlar yaratmaq lazımdır.

"Artıq torpaqlarımız işğaldan azad olunub və orda quruculuq işləri aparılır. Əlbəttə ki, tələbələrin Qarabağda işləməyini mənfi hal saymıram. Hər bir halda bu, özü də sosiallaşmaq üçün bir vasitədir. Əvvəllər yataqxanalar var idi. Yataqxanalar böyük sosiallaşma mərkəzi idi. Tələbələr sosiallaşmaqla bir-birləri ilə fikir mübadiləsi apara, ərazilərimizlə tanış olmuş olarlar", - deyə Etibar Əliyev bildirib.

Aqil ABBAS

## GÖRƏN, ERMƏNİ ÇOX OLAR, YOXSA URUS?

Bax: səh.3

## MÜƏLLİM TÖHMƏTLƏ CANINI YAXŞI QURTARDI

**Saytlarda və sosial şəbəkələrdə bir məktəbdə uşaqların tərbiyəsizliyi ilə bağlı paylaşılmış video geniş müzakirəyə səbəb oldu. İlk əvvəl Təhsil Nazirliyi bildirdi ki, bu bizim məktəblərdə olmayıb. Sonra partanın üstündəki Azərbaycan dilindəki yazılar ortaya çıxandan sonra da bildirildi ki, yenə bizim məktəb deyil, Gürcüstandakı azərbaycanlıların məktəbidi. Və ən nəhayət, məlum oldu ki, məktəb də bizimdi, şagirdlər də. Hadisə Bakıdakı 165 nömrəli məktəbdə olub.**

Daxili İşlər Nazirliyi nəzarətə götürdü, bununla bağlı açıqlama da yaydı.

Ən maraqlı açıqlama isə Təhsil Nazirliyindən gəldi: müəllimə töhmət verildi.

Müəllim töhmətlə canını yaxşı qurtardı. İndi fikirləşin ki, müəllim həmin uşaqları tənbeh eləyir, qulağını çəkir, yaxud küncə qoyur və ən dəhşətlisi hərəsinə bir şapalaq vurur. Vay dədəm, vay... İndi aləm dəymişdi bir-birinə, saytlar, sosial şəbəkələr müəllimə ot yoldururdu, linç edirdi. Haqqında cinayət işinin qaldırılmasını tələb edirdilər.

O da mümkün idi ki, həmin şagirdlərin valideynləri məktəbə hücum edirdi, müəllimi döyürdü və sair və ilaxır. Və son nəticədə müəllimi işdən çıxardırdılar.

**Rəhmətlik şair Qürbət Əziz necə deyib:**

**Vallah, bu millətə göz dəyəsidi...**



Bəxtiyar SADIQOV

## Müəllim nüfuzu

### Onu necə qoruyaq?

*Məndə olan bütün yaxşı cəhətlərə görə kitablara borcluyam!*

*Sovet dövründə rus yazıçısı Maksim Qorkinin bu sözünü həvəslə sitat gətirərdik!*

*İnsan kimi yetişəndən sonra isə "Məndə olan yaxşı cəhətlərə görə müəllimlərimə borcluyam" fikrini də səmimi-qəlbdən söyləyirəm!*

*Həmişə bizə təqlin olunardı ki, müəllim ikinci valideyndir!*

*Doğrudur!*

*Çünki doğma ata-ana daha çox qarnımız və əyin-başımız, eyni zamanda təhsilimiz barədə düşünür.*

*Müəllimlərimiz isə bizə savad, bilik verir, tərbiyələndirir, bəsirət gözümüzü açır, Vətənə layiq övlad olmağın yollarını göstərir!*

*Əslində kim valideynin və müəllimin dediklərindən nə öyrənir, nə götürür, onu özü və bir də ətrafdakılar görür və bilir!*

Bax: səh.3

## XANKƏNDİ NECƏ ERMƏNİLƏŞİB?

Bax: səh.2

## Vilayət Eyvazov təqaüdə göndərdiyi generallarla görüşdü



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov xidmətdə olmalarının son yaş həddi ilə bağlı Daxili İşlər Nazirliyinin (DİN) Katibliyinin sabiq rəisi polis general-mayoru Səfər Əliyevi və DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisində cinayətkarlıq və digər təhlükəli cinayət növləri il mübarizənin əlaqələndirilməsi üzrə Büronun direktor müavini polis general-mayoru Əkbər Yusifovla görüşüb.**

Adalet.az xəbər verir ki, yolasalma mərasimində nazir uzun illər daxili işlər orqanlarında çalışmış generallara gəlcək fəaliyyətlərində uğurlar arzulayıb.

## Ədalət Muradov: "Qırmızı diplomun heç bir üstünlüyü yoxdur"



**”Bu gün qırmızı diplom əmək bazarında heç bir üstünlük təmin etmir”.**

Adalet.az xəbər verir ki, o bu barədə fikirlərini sosial şəbəkə hesabında yazıb.

Rektorun sözlərinə görə, Sovet dönəmində müəyyən tələblərə cavab verən məzunlara qırmızı (fərqlənmə) diplom verilirdi:

”Qırmızı rəngin də xüsusi mənası vardı. Eləcə də, qırmızı diplom digərləri ilə müqayisədə onun sahiblərinin daha üstün olduqlarını göstərirdi. Vərdiş və bacarıqlar əvəzinə, qiymətlər uğrunda tələbələrdə yanlış motivasiya yaradır. Amma buna baxmayaraq, hələ də qırmızı diplom verilir”.

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 4 (5941) 29 yanvar 2022-ci il | Qiyməti 30 qəpik

## ALLAH AXIRIMIZI XEYİR ELƏSİN

**Türkiyə kanalından xəbərlərə baxıram.**

Adamın biri deyir ”müəllimlik oxumuşam. Təyinat ala bilmədiyim üçün məcburi polis oldum”.

Müəllim işləyə bilmədiyi üçün polis işləməyə məcbur qalıb, a kişi).

Bizdə isə uşaq universitetə sənəd verəndə deyirlər ”axırda müəllimlik yaz. Heç yerə düşə bilməsən, heç olmasa müəllim ol”.

Bu nə deməkdir bilirsiniz?

Orda müəllim bütün peşələrdən üstün hesab olunur, burda isə...

**ALLAH AXIRIMIZI XEYİR ELƏSİN**

**Paylaşdı: Rauf Qərib Alagöz**

# SURXAY QURBANOVUN MƏKTƏBİ VƏ YA TƏRBİYƏSİZ UŞAQLAR

***Son günlər bəzi müəllimlərin şagirdləri döyməsi gündəmi zəbt edib. Sosial şəbəkələr partlayır, saytlar, qəzetlər, televiziya kanalları. Müəllimlərin üzərinə bir səlib yürüşü həyata keçirirlər. Təbii ki, müəllim şagirdi döyməməlidir. Həzrət Əli buyurub ki, mənə bir hərf öyrədənin qırx il qulu olaram. İndi bizə bir hərf yox ey, bizə elm öyrədən, bizi adam eləyən müəllimlərin üstünə bu cür hücum eləmək də doğru deyil. Bəs müəllimi çilədən çıxaran, sinifdə qol götürüb oynayan, müəllimi təhqir edən, dərsi pozan və sair və ilaxır şagirdləri niyə bir qınayan yoxdu? Onların valideynlərini niyə bir qınayan yoxdu? Hamı düşür müəllimin üstünə. Bir dəfə demişəm, yenə deyirəm. O maaşla bizlərin bu ərköyün, müəllimin 4-5 maaşı həcmində telefon gəzdirən övladlarımıza dərs deyən müəllimlərin hamısı milli qəhrəmanlardı.***

***Təhsil Nazirliyimizin diqqətinə bir örnək gətirmək istəyirəm, bu yazını da ona görə yazdım.***

***Ağdamda, eləcə də bir çox rayonlarda məktəblər nömrələri ilə tanınmır, direktorların adları ilə tanınır. Əli müəllimin məktəbi, Şiraslan müəllimin məktəbi,***



*Süleyman müəllimin məktəbi, Surxay müəllimin məktəbi, Şahmar müəllimin məktəbi və sair və ilaxır, Ağdamda belə deyilir.*

Bax: səh.2

## TARİXİ-NADİRİ DƏ, YUNUS OĞUZUN NADİR ŞAH ƏSƏRİNİ DƏ AXIRADƏK OXUMUŞAM, AMMA LİMİT MƏSƏLƏSİNİ BAŞA DÜŞMƏDİM




**Bu gündən Şuşa və Ağdama avtobus reysləri açılıb və ilk avtobuslar da yola düşüb. Xeyirli-uğurlu olsun. Amma bir şeyi başa düşmədim ki, niyə hər bir ağdamlı, ya şuşalı, ya azərbaycanlı ildə bir dəfə Şuşaya və Ağdama səfər edə bilər. Bunun açıqlamasını verən tapılacaq, yoxsa yox.**

İkincisi, bu limiti qoyan heç Möhtərəm prezidentin çıxışlarına qulaq asıbmı? Axı, Möhtərəm prezident gələn ildən şuşalıların öz doğma şəhərlərində məskunlaşmağa başlayacağını bildirib.

Əlaqədar təşkilatlardan cavab gözləyirik. Cavab alanadək bu məlumatı hər gün saytımızda və eləcə də qəzetimizdə dərc edəcəyik.

## Şəhid Səid Rəşidzadənin barelyefinin açılışı olub

Bax: səh.4

## ON İKİ İMAMA AĞLAYANDA...

**Bu məşhur atalar sözüdü də, on iki imama ağlayanda bir dəfə də Yezidə ağlayın.**

İmişlinin sabiq icra başçısı Vilyam Hacıyevin məhkəməsi gedir. Məhkəmə ilə işimiz yoxdur, nə günahı varsa hakim bilər. Cəzası da nədir, onu da hakim bilər. Amma başqa bir məsələyə toxunmaq istəyirik. Vilyam Hacıyev Göygöldə, Samuxda icra başçısı olub və sonda İmişlidə. Bu adam harda işləyibsə qurub, yaradıb, tikib. İmişlidə daha fəal olub. İşlədiyi müəddətdə şəhərdə o qədər tikinti-abadlıq işləri aparıb ki, heç 70 il Sovet hökuməti bu rayonda belə quruculuq aparmamışdı. Belə demək mümkünsə, şəhəri söküb yenidən tikib. Elə təkcə Heydər Əliyev Parkı nəyə desən dəyər.



İcra hakimiyyəti ikimərtəbəli tipavoy bir binada yerləşirdi. Ən müasir üslubda yeni binanı inşa etdirirdi, tikinti başa çataçatda tutuldu. Şəhərdəki bütün təşkilatların inzibati binaları da yenidən tikildi, küçələr asfaltlaşdırıldı, işıqlar sistemi quruldu. Yəni belə misal çox çəkmək olar. Bir sözlə, İmişlini şəhərə çevirdi.

Və ən başlıcası,onun başçılıq elədiyi rayon Azərbaycanda ilk dəfə olaraq dövlət büdcəsindən bir manat almadan özü-özünü maliyyələşdirdi.

Oxudum ki, rayona baş həkim təyin edəndə həmin şəxsdən 70 min manat rüşvət alıbmış. Baş həkimi rayon icra başçısı təyin eləmir, baş həkimi Səhiyyə Nazirliyi təyin edir (indi deyəsən TƏBİB). Və təyin edəndə də icra hakimiyyətinin heç xəbəri olmur. Başçı bir də eşidir ki, filankəsi baş həkimlikdən çıxarıblar, yerinə bəhmənkəsi qoyublar. Bunu da elə-belə yazdım.

Nə isə. On iki imama ağlayanda bir dəfə də Yezidə ağlayarlar, Vilyam Hacıyev də Yezid deyil, bu millətin qurub-yaratmaq eşqi ilə yaşayan bir oğludu.

**Allah qapısını açsın.**

Mehman CAVADOĞLU



## Ukrayna böhranı: Gərginlik artsa da...

***Ötən ilin sonlarına yaxın Şimali Atlantika blokunun genişləndirilməsi və Rusiyanın təhlükəsizlik təminatıyla bağlı rəsmi Moskvanın tələblərini əks etdirən iki mühüm sənədin Rusiya Xarici İşlər Nazirliyinin rəsmi saytında dərc edilməsi Qərb siyasətçiləri və ekspertlərinin sərt təpkiləriylə üzləşmiş və qarşılıqlı münasibətlərdə müəyyən diplomatik gərginliyə səbəb olmuşdu. Xatırladaq ki, söhbət NATO və ABŞ-la imzalanmaq üçün Moskvanın öz şəxsi təşəbbüsüylə birtərəfli qaydada hazırladığı, elə bu səbəbdən də yalnız təşəbbüskarın arzu və istəklərinin məcmusundan ibarət olan müqavilə layihələrindən gedir. Belə layihələr, adətən, birgə işçi qruplar tərəfindən hazırlandıqdan sonra imzalanmaq üçün ali mənsəb sahiblərinə təqdim edilir, yaxşı halda imzalandıqdan sonra dərc olunur, pis haldasa, ümumiyyətlə, dərc olunmur, ictimayyətdən gizli saxlanılır. Yəni, kimsə kiminləsə birləşib kiməsə tələ qurur ki, siyasətdə və diplomatiyada bunun adına sui-qəsd nəzəriyyəsi deyilir.***

Bax: səh.3

VAQİF BAYATLI ODƏR

## "AX, ZALIM DOSTLAR, ZALIM QARDAŞLAR"



***Ax,zalım dostlar,***
***zalımqardaşlar***
***fələyinzülmünə***
***düşəndən bəri***
***kiminnə vecinə ki,***
***anamınəziziyəm,***
***kiminnə vecinə ki,***
***anamyalvarır göyə.***
***Oqarasaç Allahım,***
***ogödəkboy Allahım***
***susub,***
***qorumurməni.***
***Birdə baxıb***
***görürsənki,***
***birboynuyoğun,***
***biryekəqarın***
***üzündəbir şillə yeri***
***durubgözləyir səni.***
***Amma***
***birboynuyoğun,***
***biryekəqarını***
***döymək***
***mənəbir az çətindi***
***birşilləlik canım var.***
***Ax,zalım dostlar,***
***zalım qardaşlar.***

Aqil ABBAS
aqilabbas@rambler.ru

## MƏN DƏ BİR DƏFƏ ŞAGİRD DÖYMÜŞƏM



*Gərək ki, bunu bir dəfə yazmışam, amma yenə oxucuların yadına salmaq istəyirəm. Və ümumiyyətlə, müəllimin şagirdi döyməsinin, ya incitməsinin və küncdə tək ayaq üstə qoymasının əleyhinəyəm. Amma müəllimin birillik məvacibinin qiymətinə telefon gəzdirən, müəllim kimi avtobusda basabasda evindən dərsə çatmaq üçün iki saat tez çıxmaq əvəzinə lüks avtomobillərlə dərsə gələn və müəllimi adam yerinə qoymayan şagirdlərin də əleyhinəyəm.*

*Mən 8 ay müəllim işləmişəm - Ağsu rayonunda internat məktəbində, evimizdən 200 kilometr aralıda. Düzdür, kirayənişin yaşamamışam, atamın Temir adlı bir ağsulu dostu məni evində əziz bir qonaq kimi saxlayıb. Və bütün ağsulular qərib bir müəllim kimi mənə hörmət edirdilər. 8 ay bu şəhərdə yaşamışam və Ağsunu Ağdam qədər, Ağcabədi qədər doğma bilirəm. 47 illik jurnalistika təcrübəmdə də Ağdamın, Ağcabədinin zərərinə bir yazı yazmadığım kimi, Ağsunun da zərərinə yazı yazmamışam. Onların hörmətini, orda yediyim çörəyi itirmək istəməmişəm.*

Bax: səh.4

## ERMƏNİSTAN QİYMƏTİNİ DESİN, SOCAR ALSIN

**Ermənistan mətbuatı iddia edir ki, SOCAR bu ölkədəki Bitium zavodunu alır. Xəbəri oxuyanda çox güldüm. Əvvəla, o zavod bizə lazım deyil, bizim özümüzdə istənilən qədər bitium zavodu var. Lazım olan qədər məhsul istehsal edir. Belə olmasaydı 44 günlük müharibədən sonra işğaldan azad olunmuş ərazilərdə min kilometrə qədər yüksək keyfiyyətli yol çəkilməzdi.**

Nə isə, ermənilər arzularını yazıblar. Amma istəyirlərsə bütün Ermənistanın qiymətini desinlər (əgər qalıbsa, çünki çox zavod və fabriklərini borc əvəzinə Rusiya götürüb) yönləşək SOCAR bir az yuxarı, bir az aşağı alsın.

Onsuz da əvvəl-axır belə olacaq.

30 ildə Azərbaycana vurduqları zərəri təzminat kimi Beynəlxalq Məhkəmə yolu ilə alacağıq, onda gərək Ermənistan nəyi var hamısını satlığa qoya.

## SƏNİ İT YERİNƏ QOYAN VARDI Kİ?

**Ermənistanın prezidenti Armen Sərkisyan istefa ərizəsi yazıb. Guya o, prezident idi ki? Bizim bir rayonun bələdiyyə sədri ondan hörmətlidi.**



## GÜNÜN LƏTİFƏSİ

### RUSİYA XARİCİ SƏFƏRLƏRƏ NƏYLƏ GEDİR?

Belə bir məşhur anekdot var, rus anekdotudu. Almaniyanın kansleri Merkel Putinlə görüşəndə aralarında belə bir söhbət olur.

Merkel deyir:

**- Mən işə Merseдeslə gedirəm. Bazara-dükana Volsfagenlə, amma xaricə səfər gedəndə BMV ilə. Bəs, siz hansı maşından istifadə edirsiniz?**



Putin:

**- Mən işə də, bazara-dükana da xüsusi hazırlanmış Volqayla gedirəm.**

**- Bəs, xarici səfərlərə nəylə gedirsiz?**

Putin:

**- O asandı, tankla.**

İndi Putin Avropaya səfərə hazırlaşır deyin, minlərlə tankı yığıb Ukrayna sərhədinə.

## Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar tədbirlər planı hazırlanacaq



**Prezident İlham Əliyev Xocalı soyqırımının otuzuncu ildönümü haqqında Sərəncam imzalayıb.**

Sərəncamda deyilir:

Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olan Xocalı soyqırımından 30 il ötür.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücum etdi və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutdu.

Xocalı soyqırımı zamanı 106 qadın, 63 uşaq, 70 qoca olmaqla 613 şəxs məhz azərbaycanlı olduqlarına görə ağlasığmaz vəhşiliklə qətlə yetirildi, 487 dinc sakin ağır yaralandı, 1275 nəfər isə girov götürüldü.

Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Soyqırımının törədilməsinə görə Ermənistanın o zamankı siyasi-hərbi rəhbərliyi məsuliyyət daşıyır.

Ermənistanın azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımı, eləcə də Bağanıs Ayrım, Qaradağlı, Ağdaban və Başlıbel qətliamları ilə müşayiət olunan hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizə qədəri işğal edildi, 20 min vətəndaşımız qətlə yetirildi, 50 min nəfərdən artıq adam yaralandı və əlil oldu. Azərbaycan böyük humanitar fəlakətlə üz-üzə qaldı.

Ermənistanın daim mülki əhalini hədəf seçən təxribatlarına və hərbi təcavüzünə cavab olaraq, 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı əzəli torpaqlarının işğaldan qurtarılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi və tarixi ədalətin bərpa edilməsi uğrunda Vətən müharibəsinə qalxdı.

Vətən müharibəsinin gedişatında Ermənistanın Gəncəni, Bərdəni, digər şəhər və kəndlərimizi kütləvi məhvetmə imkanlarına malik ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alması bir daha sübut etdi ki, zamanla metodlar dəyişsə də, mülki əhaliyə qarşı qanlı cinayətlər törətmək Ermənistan tərəfinin daim həyata keçirdiyi dövlət siyasətidir.

44 gün sürən döyüşlər nəticəsində rəşadətli Azərbaycan Ordusu parlaq qələbə qazanaraq doğma torpaqlarımızı işğaldan azad etdi.

Haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ötən illər ərzində məqsədyönlü fəaliyyət göstərilmiş, 2008-ci ildən isə bu fəaliyyət ”Xocalıya ədalət” beynəlxalq kampaniyası ilə geniş vüsət almışdır. Hazırda Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilmişdir.

Xocalı soyqırımına hüquqi qiymət verilməli və bu dəhşətli faciəni törədənlər öz layiqli cəzalarını almalıdırlar.

Azərbaycan xalqı heç bir vaxt Xocalı faciəsini unutmayacaq.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Xocalı soyqırımı zamanı qətlə yetirilmiş soydaşlarımızın əziz xatirəsini faciənin otuzuncu ildönümü ərəfəsində bir daha dərin hüznlə yad edərək qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Xocalı soyqırımının otuzuncu ildönümü ilə əlaqədar tədbirlər planı hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

## Prezident İlham Əliyev Ümumdünya Gömrük Təşkilatının Baş katibini videoformatda qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı videoformatda qəbul edib.**

Prezident İlham Əliyev Azərbaycanla Ümumdünya Gömrük Təşkilatı arasında səmərəli əməkdaşlığı və təşkilatın ölkəmizə göstərdiyi dəstəyi qeyd edərək, Kunio Mikuriya ilə əvvəllər keçirdiyi görüşləri və aparılmış müzakirələri məmnunluqla xatırladı.

Dövlətimizin başçısı Ümumdünya Gömrük Təşkilatının Baş katibinin Azərbaycanla əməkdaşlığı daim diqqət mərkəzində saxlamasını yüksək qiymətləndirdiyini, təşkilatın dəyərli tövsiyə və məsləhətlərinin ölkəmizdə bu sektorun inkişafına töhfə verdiyini diqqətə çatdırdı.

Baş katib Kunio Mikuriya Azərbaycanda gömrük xidmətinin yaradılmasının 30 illiyi ərəfəsində Bakıda olmasından məmnunluğunu ifadə etdi, ölkəmizin regionda və dünyada rolunun artması münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

O, rəhbərlik etdiyi təşkilatın Azərbaycanda gömrük sahəsində aparılan islahatlara dəstəyinin davam edəcəyini vurğulayaraq, Azərbaycanın regional inkişaf və nəqliyyat qovşağı mərkəzinə çevrildiyini bildirdi.

Kunio Mikuriya Cənubi Qafqaz regionunda yaranmış sabitliyin regional əməkdaşlıq, insanlararası təmaslar və nəqliyyat bağlantılarının inkişafı üçün əlverişli imkanlar yaratdığını qeyd etdi.

Prezident İlham Əliyev ölkəmizin əlverişli coğrafi mövqeyi, infrastruktura yatırılmış investisiyalar, qonşu dövlətlərlə qurulmuş əlaqələr sayəsində Azərbaycanın regionun nəqliyyat-logistika mərkəzinə çevrildiyini bildirdi və regional bağlantıların əməkdaşlıq üçün əlverişli mühit yaratdığını diqqətə çatdırdı. Dövlətimizin başçısı regional əməkdaşlıq məsələlərinə toxunaraq, COVID-19 pandemiyasının yaratdığı qlobal iqtisadi böhrana baxmayaraq, Azərbaycanın keçən il əsas tərəfdaş dövlətlərlə ticarət dövriyyəsinin artmasının ölkə iqtisadiyyatının bərpasının və inkişafının göstəricisi olduğunu bildirdi. Azərbaycan Prezidenti keçən il iqtisadiyyatın 5 faizdən çox, qeyri-neft sektorunun 7 faiz, qeyri-neft sənaye sektorunun isə 20 faiz artmasının aparılmış islahatların nəticəsi olduğunu qeyd etdi.

Prezident İlham Əliyev Ermənistan və Azərbaycan arasında münaqişənin bitməsindən sonra regionda əməkdaşlıq üçün yeni imkanların yarandığını vurğuladı.

**Görüşdə Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.**

# XANKƏNDİ NECƏ ERMƏNİLƏŞİB?

**Əslində Pənah xan Şuşa şəhərini tikdirəndə eyni zamanda Xankəndini də salıb. Şuşadan Ağdama gələndə Qarqarın sol qanadında Xankəndi salınmışdı, sağ tərəfində isə Xan bağı. Qışda, şaxtalı havalarda xan ailəsi ilə Xan bağına yenərdi.**



Xankəndi azərbaycanlılardan ibarət idi. Burda yaşayanlar Şuşa şəhərini ərzaqla təmin edirdilər, xanın ilxılarını saxlayırdılar, mal-qarasını saxlayırdılar. Amma elə ki Rusiya Azərbaycanın şimal hissəsini işğal elədi, Qarabağ xanlığını öz ərazisinə qatdı, onda Xankəndində də ordusunu yerləşdirdi. O ordu 1806-cı ildə mayor Lisanoviçin rəhbərliyi ilə İbrahim xanı və bütün ailə üzvlərini Xan bağında qətlə yetirdi. Bəzi rəqəmlərdə qətlə yetirilənlərin sayı 23, bəzilərində 17 göstərilir.

Rus ordusu Xankəndinə yerləşdiriləndən sonra azərbaycanlılar onlara xidmət etməkdən, daha dəqiq desək, nökərçilik etməkdən imtina etdilər. Yəni heç bir azərbaycanlı rus əsgərlərinin atını qaşovlamağa, paltarını yumağa, donuzlarını otarmağa razı olmadı. Bizdə də təhkimli kəndli olmadığına görə Xan heç kəsi məcbur edə bilməzdi ki, get rusun donuzunu otar. Həmin vaxt İrandan Qarabağa ermənilər köçürülməyə başlamışdı.

Həmin ermənilər də rus əsgərlərinə xidmət eləməyə canla-başla razı oldular və elə indi də xidmət edirlər. Nəticədə Xankəndi yavaş-yavaş erməniləşməyə başladı.

1806-cı ildə İbrahim xanı və ailəsini qətlə yetirən hərbi hissə sonra 366-cı batalyon oldu, Xocalıda qətliam törətdi. İndiki adı da sülhməramlılardı.

Amma əvvəllər ermənilər rus əsgərlərinin donuzunu otarırdı, atını qaşovlayırdı, paltarını yuyurdu, indi tərsinə olub. İndi rus əsgərləri ermənilərin donuzunu otarır, kartofunu əkir, üzümünü əkir, evini tikir və sair və ilaxır.

**Qısası, əvvəllər ermənilər ruslara nökərçilik edirdi, indi ruslar ermənilərə nökərçilik edir.**

# ALMANİYA ABŞ-a DEDİ, GET HOPPAN

**ABŞ və NATO ölkələri Rusiya ilə Ukraynanı müharibəyə sürükləyir. Rusiya qoşunlarını Ukrayna sərhədinə, Ukrayna da bütün hərbi qüvvələrini Donbasla təmas xəttinə cəmləyib. Bir qığılcım lazımdır. ABŞ və NATO dövlətləri Şərqi Avropa ölkələrinə 50 minlik, bəzi rəqəmlərdə 80 minlik ordu və ən müasir raket qurğularını yerləşdirib. Və Rusiyanı da xəbərdar edib ki, əgər Ukraynaya qoşun yeritsə, cavabları çox sərt olacaq. Eləcə də Rusiyaya sanksiyalar tətbiq edirlər.**

Ancaq Avropanın ən qüdrətli dövləti olan Almaniya bu oyunda iştirak eləmək istəmir. Əvvəla, Ukraynaya silah satmaqdan imtina edib, ikincisi də Almaniyanın qanunlarına görə ondan silah alan başqa ölkələr həmin silahları Almaniyadan icazəsiz üçüncü ölkəyə sata bilməzlər.

Yadınızdadırsa, Türkiyə bizə müharibə zamanı ”Altay” tankları satmaq istədi, amma həmin tankların mühərrikləri Almaniya istehsalı olduğu üçün Almaniya hökuməti buna icazə vermədi. Düzdür, bunun Türkiyəyə xeyri dəydi, indi qardaş ölkə Almaniyadan asılılığını qurtarmaq üçün həmin tankların mühərriklərini özləri hazırlayır.

Bundan başqa, almanlar Rusiyaya heç bir sanksiya tətbiq etməyəcəklərini bildiriblər.

Alman xalqı müharibə görmüş xalqdı, İkinci Dünya Savaşında 10 min insan itiriblər, şəhər və kəndləri də bizim Ağdamın, Füzulinin, Zəngilanın, Cəbrayılın və sair və ilaxırın günlərinə düşüblər.

Müharibənin nə demək olduğunu bilirlər. Və onu da bilirlər ki, müharibə başlasa yenə zərərçəkən onlar olacaq, ABŞ yox. Belə demək mümkünsə, ABŞ uzaqda dayanıb, istəyirdim yazam uzaqda dayanıb hürən it kimidi, amma yazmıram, qorxuram, Vaqif Bayatlı demiş, bir şillələlik canım var.

Təbii ki, müharibə olarsa Rusiya ABŞ-ın və NATO-nun Şərqi Avropada yerləşdirdiyi bazaları vuracaq, olan da Rumıniyaya, Çexiyaya, Bolqarıstana, Polşa, Pribaltika respublikalarına olacaq. Və təbii ki, Almaniyaya, Almaniya da bunu istəmir.

Biz müharibə görmüş bir dövlət və xalq kimi bütün müharibələrin əleyhinəyik. Rusiya Ukraynayla dil tapmalıdır. Bunu sayın Ərdoğan istəyir, biz də istəyirik, İsrail də istəyir.

Dil tapmağın yolu odur ki, Rusiya Ukraynanın ərazi bütövlüyünü tanımalı, Ukrayna da ABŞ-ın ”dudkasına” getməməlidir. Şair Məmməd Araz yazır:

*Hələ bu dünyanın qeylü-qalı çox,*
*Bilməm zəhəri çox, yoxsa balı çox.*
*Çox verdim özümə bu sualı çox,*
*Ərzin nadanından ağsaqqalı çox!*
*Bəs niyə bu dünya düzəlmir, baba!*

Amma neyləyək şair bilmir ki və daha doğrusu bilmək istəmir ki, ərzin nadanı ağsaqqalından çoxdu.

## YABAYLA DOVĞA İÇDİM, HEÇ BELƏ BİR YALAN GÖRMƏMİŞDİM

**Hansısa saytda oxudum, onlar da erməni mənbələrinə əsaslanıblar, deməli, İrəvanda deyəsən Baqdasaryan adlı bir taksi sürücüsü görüb ki, sərnişinləri azərbaycanca danışırlar, qorxub. Özü də bu xəbərdən bütün Ermənistan qorxub. Hətta İrəvandakı ermənilər bundan sonra evlərini satlığa çıxarıblar.**

Deməli, taksi sürücüsü maşını saxlayıb, polis çağırıb. Polis də gəlib sərnişinlərin sənədlərini yoxlayıb, məlum olub ki, hər iki sərnişinin pasportuna azərbaycanlı yazılıb.

Amma day həmin azərbaycanlıların sonrakı taleyi haqqında məlumat yoxdu.

İrəvanda taksiyə Azərbaycan dilində danışan adamlar minə bilər, çünki İran azərbaycanlıları İrəvanı su yoluna döndəriblər. Bu da elə yaxşıdı. Amma İran azərbaycanlılarının pasportuna "azərbaycanlı" yazılmır, "İran vətəndaşı" yazılır.

Ola bilsin azərbaycanca danışanlar Türkiyə azərbaycanlıları olsun, çünki türklərin də İrəvana gediş-gəlişi var. Amma Türkiyədə də pasportlara "azərbaycanlı" yazılmır, "türk" yazılır.

Belə yalan xəbərlərlə nə demək istəyirsiz, dostlar? Beş-on İP-dən ötəri camaatı niyə çaşdırırsız və sonra da deyirsiz ki, mətbuata inanmırlar.

**Belə bir xəbər iki-üç ay öncə də çıxmışdı ki, azərbaycanlılar Xankəndində mağazaya giriblər alver etməyə.**

## UKRAYNANI ZİBİLƏ SALIB İNDİ ARADAN ÇIXIRLAR

*ABŞ Ukraynadakı diplomatlarını və onların ailə üzvlərini bu ölkədən çıxarır. Bundan başqa da öz vətəndaşlarına xəbər göndərib ki, aradan çıxın.*

*Sevginiz elə bu qədərmiş, qorxudan vətəndaşların Ukraynadan gedərmiş.*



## ERMƏNİSTAN BÜDCƏSİNİN 10 FAİZİNİ 30 MİN ERMƏNİYƏ AYIRIB

**Heç kəsə sirr deyil ki, Ermənistan, belə demək mümkünsə, acından günorta duran ölkələrdən biridir. Günorta duranda da əlinə bir şey keçmir. Borc və kredit hesabına yaşayır, daha doğrusu, Rusiyanın quberniyalarından biri kimi onun əlinə baxır. Və təbii ki, Rusiya da ermənin qaşına-gözünə və Haykanuşuna heyran olmayıb, əvəzinə Ermənistanın zavod və fabriklərini və ümumiyyətlə, az-çox nəyi var borc hesabına götürüb. İndi divar qurtarandan sonra neyləyəcəklər, onu Allah da bilmir, bircə Putin bilir. İndi 3 milyarddan bir az çox olan büdcəsindən Qarabağda yaşayan ermənilərə 300 milyon dollar ayırıb. Müəyyən tikinti-quraşdırma işləri üçün, mənzillər üçün və sair və ilaxır.**

Əvvəla, qulağı kar, gözü kor Avropa və dünya bilir ki, Azərbaycan ədalətli müharibə aparıb, Qarabağda dinc əhali yaşayan ərazilərdəki şəhər və kəndlərə bircə dənə də mərmi atmayıb. İstəsəydik şumlaya bilərdik, necə ki Ermənistan ordusu Qarabağda bizim şəhər və kəndlərimizi şumlamışdı. İndi dünya gəlir, bizim dağıdılmış şəhər və kəndlərə baxıb ah, uf eləyir, sonra da gedib deyir ki, Azərbaycan xristian abidələrini dağıdıb. Yalançının atasının goruna itin...

Əslində o pul heç bir təmir-tikinti, yol tikintisi üçün ayrılmayıb, hamısı separatçıların hələ də Qarabağda tərksilah olunmamış silahlı qüvvələrinə silah-sursat üçün ayrılıb.

Ermənistanın Qarabağda tikinti-quruculuq işləri üçün pul ayırmasına ehtiyac yoxdur. Ən azı ona görə ki, bu işi sülhməramlılar görürlər. Sülhməramlılar təkcə tikinti- quruculuq işləri ilə məşğul deyillər, həm də 30 min erməniyə nökərçilik edirlər: bağ salır, üzüm əkir, taxıl əkir, kartof-kələm əkir və sair və ilaxır.

Biz isə beynəlxalq təşkilatlardan, insan haqlarını müdafiə edən institutlardan, Haaqa məhkəməsindən tələb etməliyik ki, Ermənistan dağıtdıqları şəhər və kəndlərimiz üçün təzminat ödəsinlər.

**Analitik şöbə**

## Ərdoğan: Sosial media türk dili üçün fəlakətdir



**Sosial mediada istifadə edilən dil türk dili üçün bir fəlakətdir.**

Bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğan ”Türkcənin düzgün istifadəsi” adlı mükafatlandırma mərasimində deyib.

”Bu gün millətimizin Mehmet Akifin bir əsr əvvəl yazdığı şeirlərini, Atatürkün gənclərə müraciətini anlaya bilməməsi dilimizə edilən sui-qəsdin böyüklüyünü ortaya qoyur.

Dilimizi təhdid edən digər amil isə lövhələrdə, yazışmalarda əcnəbi sözlərdən istifadə xəstəliyidir. Türkcəmizi qorumaq, inkişaf etdirmək və zənginləşdirmək üçün mübarizəmiz mahiyyətcə milli bir mübarizədir, var olma məsələsidir”, - Ərdoğan bildirib.

**MEHRİBAN**

# Rusiya-Ukrayna müharibəsi baş tutacaqmı?

**Rusiya Ukrayna ilə sərhədə texnika yığmağa davam edir. Görünən odur ki, müharibə qapının ağzındadır. Savaşdan qaçmaq mümkün olacaqmı? Hazırda əsas suallardan biri budur.**

Məlumatlara görə, Rostov vilayətində Ukrayna sərhədləri istiqamətində irəliləyən daha bir neçə yüz tank, o cümlədən digər çoxsaylı hərbi texnikanı daşıyan dəmiryol eşalonları görünüb. Şahidlərin çəkdikləri və sosial şəbəkələrdə yerləşdirdikləri kadrlara əsasən bunlar T-72B2 və T-72B3 əsas döyüş tanklarıdır. Habelə dəmiryol platforması boyu düzülmüş ”Uraqan” və ”Qrad” reaktiv yaylım atəşi sistemləri, radioelektron mübarizə vasitələri və bir çox yardımçı texnika gözə dəyir.

Rusiya-Ukrayna müharibəsi barədə siyasətçilərin və siyasi şərhçilərin fikirləri nədir?



”Ukraynanın müharibəni başlatmaq üçün həm müttəfiqləri yoxdur, həm də gücü hal-hazırda buna yetmir”.

Bunu ”Ədalət” qəzetinə açıqlamasında **”Ümid” partiyasının sədri İqbal Ağazadə** deyib.Rusiya Ukrayna ilə niyə müharibə etsin ki? Rusiya Krımı işğal edib, Donbass onun nəzarətindədir. Rusiyanın nə müharibə etmək istəyi, arzusu yoxdur, nə də əldə edə biləcəyi bir şey yoxdur. Nə etmək mümkündürsə, edib. Müharibə baş tutsa, ilk addımı Ukrayna ata bilər və hesab edirəm ki, Ukraynanın müharibəni başlatmaq üçün həm müttəfiqləri yoxdur, həm də gücü hal-hazırda buna yetmir”.



”Rusiya-Ukrayna, Rusiya-NATO müharibəsi haqqında danışmaq o qədər də reallığı əks etdirmir”.

***Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, siyasi şərhçi Tual İsmayılov*** da müharibənin olmayacağına inanır. ”Düşünmürəm ki, Rusiya ilə Ukrayna arasında hansısa müharibə baş verəcək. Hal-hazırda Rusiyanın istədiyi əsas məsələ NATO-nun şərqə doğru genişlənməməsidir. NATO da eyni zamanda Rusiyanın bu təminatlarını yerinə yetirmir və bunu görən Rusiya da psixoloji təzyiq üçün Ukrayna cəbhəsinə çoxlu qoşun növləri cəmləşdirir. İstənilən halda bu qarşılıqlı hərbi-psixoloji təzyiq effektindən başqa bir şey deyil. Düşünürəm ki, həm reallığa baxanda, həm də postpandemiya dövrünün çətinlikləri ilə əlaqədar olaraq Rusiya-Ukrayna, Rusiya-NATO müharibəsi haqqında danışmaq o qədər də reallığı əks etdirmir”.

**Eminquey**

AQİL ABBAS

# SURXAY QURBANOVUN MƏKTƏBİ VƏ YA TƏRBİYƏSİZ UŞAQLAR

*Son günlər bəzi müəllimlərin şagirdləri döyməsi gündəmi zəbt edib. Sosial şəbəkələr partlayır, saytlar, qəzetlər, televiziya kanalları. Müəllimlərin üzərinə bir səlib yürüşü həyata keçirirlər. Təbii ki, müəllim şagirdi döyməməlidir. Həzrət Əli buyurub ki, mənə bir hərf öyrədənin qırx il qulu olaram. İndi bizə bir hərf yox ey, bizə elm öyrədən, bizi adam eləyən müəllimlərin üstünə bu cür hücum eləmək də doğru deyil. Bəs müəllimi çilədən çıxaran, sinifdə qol götürüb oynayan, müəllimi təhqir edən, dərsi pozan və sair və ilaxır şagirdləri niyə bir qınayan yoxdu? Onların valideynlərini niyə bir qınayan yoxdu? Hamı düşür müəllimin üstünə. Bir dəfə demişəm, yenə deyirəm. O maaşla bizlərin bu ərköyün, müəllimin 4-5 maaşı həcmində telefon gəzdirən övladlarımıza dərs deyən müəllimlərin hamısı milli qəhrəmanlardı.*



*Təhsil Nazirliyimizin diqqətinə bir örnək gətirmək istəyirəm, bu yazını da ona görə yazdım.*

*Ağdamda, eləcə də bir çox rayonlarda məktəblər nömrələri ilə tanınmır, direktorların adları ilə tanınır. Əli müəllimin məktəbi, Şiraslan müəllimin məktəbi, Süleyman müəllimin məktəbi, Surxay müəllimin məktəbi, Şahmar müəllimin məktəbi və sair və ilaxır, Ağdamda belə deyilir.*

*Ağdamda da 3 nömrəli məktəb vardı, amma Surxay Qurbanovun məktəbi deyirdilər. Və əslində o, Ağdamın Makarenkosu idi. Şəhərin başqa məktəblərində çətin tərbiyə olunan uşaqları təbii ki, məktəbdən qovurdular. Məktəbdən qovulan uşaq da küçədə qalası deyildi, hansısa məktəbə getməliydi. Amma heç bir məktəb direktoru belə uşaqlara sahib çıxıb başını cəncələ salmaq istəmirdi. Və belə çətin tərbiyə olunan uşaqların hamısına Surxay müəllim sahib çıxırdı. Məsələn, mənim bir xalam oğlu vardı, dörd məktəbdən qovmuşdular, axırda atası apardı qoydu Surxay müəllimin məktəbinə. O davakar, ipə-sapa yatmaz, müəllimlərin başına oyun açan həmin xalaoğlu Surxay müəllimin məktəbində elə ipə-sapa yatdı ki, ikiylə, üçlə oxuyan uşaq başladı dörd-beşlə oxumağa. Və orta məktəbi bitirəndən sonra da gəldi Bakıda orta ixtisas milis məktəbi vardı (indiki Polis Akademiyası) ora qəbul olundu. Sonra uzun illər polisdə işlədi və polisdə də Surxay müəllimin təcrübəsini tətbiq elədi. Ötən il də mayor rütbəsi ilə təqaüdə çıxdı. Və kimsə deyə bilməz ki, Surxay müəllim və ya onun məktəbinin müəllimləri hansısa bir şagirdi döyüb. Sadəcə olaraq Surxay müəllim Makarenkonu yaxşı oxumuşdu və müəllimlərinə də oxutmuşdu.*

*Bəli, Surxay müəllimin məktəbi çətin tərbiyə olunan uşaqların məktəbinə çevrilmişdi. Mən o məktəbi məbəd adlandırardım.*

*Bir dəfə kiçik qardaşım Surxay müəllimin məktəbinin bir şagirdini küçədə döymüşdü. Surxay müəllimin şagirdini döymək olar? Axşam dağdan ağır kişi gəldi bizə, pərt idi.*

*Atama dedi ki, bu uşağı sabahdan mənim məktəbimə göndərərsən ki, bunu da adam edim. Səhəri günü qardaşımı atam Surxay müəllimin məktəbinə göndərdi.*

*Bunları ona görə yazıram ki! Bəli, çətin tərbiyə olunan uşaqlar var, özü də az deyil. Yaxşı olar ki, Təhsil Nazirliyi tək Bakıda deyil, eləcə də rayonlarımızda bir məktəbi ixtisaslaşdırsın, Sovetlər dönəmində belə bir təcrübə vardı, başa bəla şagirdlər məcburən həmin məktəblərə yönləndirilsinlər. Həmin məktəblərə də ən təcrübəli, bu sahədə xüsusi qabiliyyəti olan müəllimləri cəlb eləsinlər. Şagirdlər də niyə cəzalandığını bilsinlər.*

*Bu da olsun islahatlardan biri .*

*27-01-2016*

***P.S.*** *Bu yazını 6 il bundan əvvəl yazmışam. Amma baxıram ki, akutallığını hələ də qoruyur. Ona görə də təkrar çap edirəm.*

## MƏHKƏMƏLƏRİN ÇIXARTDIĞI ƏDALƏTSİZ QƏRARLAR...



**Ona görə Avropa Məhkəməsi Azərbaycanı 2 milyon avro cərimə edib. Yaxşı olar qanunilәşə ki həmin cərimələri ədalətsiz qərar çıxaran hakimlər ödəsin. Onda hakimlər daha çox məsuliyyət hiss edər.**

Amma Avropa Məhkəməsinin hakimlərinin də çıxartdığı bütün qərarlar ədalətli olmaya bilər. Bəs, onda hara müraciət edilməlidir? Hüquqşünaslarımız bu barədə fikirləşsə pis olmaz.

## ÇUKÇALAR STALİNDƏN NİYƏ KÜSMÜŞDÜ

**Müharibə qurtarandan iki-üç il sonra çukçalar xəbər tutur ki, Böyük Vətən Müharibəsi olub və bizimkilər qalib gəlib. Moskvaya nümayəndə heyəti göndərirlər Stalinin yanına. Stalin qəbul edir, soruşur ki, nə məsələdi?**



Deyirlər:

***- Yoldaş Stalin, biz səndən küsmüşük.***

***- Nəyə görə?***

***- Dörd il müharibə eləmisən, amma bizə xəbər verməmisən.***

İndi Sezen Aksu bir mahnı oxuyub altı il bundan əvvəl. Vaxtilə "Minik sərçəcik" adlanan, hazırda qartımış qarğaya dönən bu xanım mənim müğənnim olmadığına görə, ona görə yox ki, deyib ermənilər əqrəbamdı, ona görə ki, mənim müğənnim deyil də, dinləməmişəm. Nə həmin mahnını, nə də qeyrilərini. Amma sənətkardı, onu da sevənlər var.

İndi türklər də çukçalar kimi beş-altı ildən sonra xəbər tutublar ki, həmin mahnıda Sezen Adəm və Həvvanı təhqir edib. Aləm dəyib bir-birinə. Bizdə gündəm KVN-şiklər olan kimi, Türkiyədə də gündəm Sezen Aksudur.

**Oxudum ki, Sezen də deyib ki, əlimin içindən gəlib, içində bir noxud var, noxudun içindən gəlib. Sonra da deyib ki, məni əzə bilməzsiniz. Amma bunu düz deyir, sənətkarı əzmək mümkün deyil.**

## NATO: Rusiya Ukraynanı işğal etməyəcək

**NATO nümayəndələri etiraf edirlər ki, Rusiya Ukraynanı işğal etməyəcək.**

Bu barədə ”Euractiv” portalı NATO-dakı mənbələrinə istinadla məlumat yayıb.

Mənbənin sözlərinə görə, bunun üçün Rusiyaya Ukrayna sərhədləri yaxınlığında yerləşdirdiyi texnikadan daha çox hərbi imkanlar lazımdır.

**MEHRİBAN**

MEHMAN CAVADOĞLU

# Ukrayna böhranı: Gərginlik artsa da...

Ötən ilin sonlarına yaxın Şimali Atlantika blokunun genişləndirilməsi və Rusiyanın təhlükəsizlik təminatıyla bağlı rəsmi Moskvanın tələblərini əks etdirən iki mühüm sənədin Rusiya Xarici İşlər Nazirliyinin rəsmi saytında dərc edilməsi Qərb siyasətçiləri və ekspertlərinin sərt təpkiləriylə üzləşmiş və qarşılıqlı münasibətlərdə müəyyən diplomatik gərginliyə səbəb olmuşdu. Xatırladaq ki, söhbət NATO və ABŞ-la imzalanmaq üçün Moskvanın öz şəxsi təşəbbüsüylə birtərəfli qaydada hazırladığı, elə bu səbəbdən də yalnız təşəbbüskarın arzu və istəklərinin məcmusundan ibarət olan müqavilə layihələrindən gedir. Belə layihələr, adətən, birgə işçi qruplar tərəfindən hazırlandıqdan sonra imzalanmaq üçün ali mənsəb sahiblərinə təqdim edilir, yaxşı halda imzalandıqdan sonra dərc olunur, pis haldasa, ümumiyyətlə, dərc olunmur, ictimayyətdən gizli saxlanılır. Yəni, kimsə kiminləsə birləşib kiməsə tələ qurur ki, siyasətdə və diplomatiyada bunun adına sui-qəsd nəzəriyyəsi deyilir.

Amma Kremlin keçən ilki "saziş-saziş" oyunu bu oturuşmuş paradiqmaların heç birinə uyğun gəlmirdi. Əslində, onun əsl niyyəti də heç bu deyildi. Əsl niyyət əzəli-əbədi rəqiblərə "müqavilə layihəsi" formatında tərtib edilmiş bir ultimatum göndərmək idi. Odur ki, "layihə" ünvanına çatmamış elementar diplomatik normalara və ədəb-ərkan qaydalarına zidd olaraq tələm-tələsik Rusiya XİN-in saytına yerləşdirildi. Sənədlə, necə deyərlər, gözucu tanışlıqdan belə bəlli olur ki, Putin SSRİ dağılandan bu günə kimi rəsmi Moskvanın itirdiklərinin hamısını bir göz qırpımındaca geri qaytarmaq istəyir, hərçənd unudur ki, artıq Rusiyanın həmin yükün ağırlığına dözməyə taqəti qalmayıb.

Təklif olunan müqavilə layihəsinin nəinki imzalanması, heç müzakirəsi belə apriori qeyri-mümkündür. Rəsmi Moskva həmin layihədə Rusiya-NATO münasibətlərini 1997-ci ilin səviyyəsinə geri qaytarmaq kimi fantastik bir tələb irəli sürür ki, bu da dünyanın geopolitik mənzərəsini birdən-birə 25 geriyə fırlatmaqdı. Bu cür sərt geridönüşlər heç bir danışqların predmeti ola bilməz, heç bir müqavilənin mətninə sığışa bilməz. Buna yalnız tarixi-siyasi kataklizmlərlə nail olmaq mümküdür ki, onun da nə vaxt gələcəyini öncədən görmək təbii fəlakətləri proqnozlaşdırmaq qədər çətin və hətta mümkünsüz bir işdi. Kremldə əyləşənlər də bunun mümkünsüz bir iş olduğunu bilməyəcək səviyyədə sadəlövh deyillər. Bu geridönüş iştahlarını ortaya qoymaq, sadəcə olaraq, gələcək itkilərdən sığortalanmaq üçün onlara lazımdır.

Elə burdaca fikirlərimizə dəstək kimi kiçik bir haşiyəyə ehtiyac var. İndi bir-biriylə ağız-ağıza yatan bu güclər birlikdə 30 il ərzində heç əl boyda dılqır Ermənistanı əvvəlki mövqelərinə qaytarmağı bacarmadılar deyə axırda həmin iş dəmir yumruğun umuduna qaldı.

Bu günlərdə Qərb Moskvanın təkliflərinə rəsmi olaraq cavab verib. Dövlət katibi Entoni Blinken bununla bağlı mətbuat konfransı keçirib və bəzi mətləblərə aydınlıq gətirib. Moskvaya göndərilən rəsmi cavab məktubunun mətninin rəsmi Vaşinqton tərəfindən dərc etməyəcəyini və bunu Kremldən də gözlədiklərini xüsusi olaraq vurğulayan dövlət katibi jurnalistlərin suallarını cavablandırarkən cavab məktubunun bəzi detallarına da toxunub. ABŞ və Rusiyanın raket hücum sistemləri, hərbi təlimlərin şəffaflığı, silahlanmaya nəzarət məsələləri sahəsində əməkdaşlıq edə biləcəklərini söyləyib. Bununla yanaşı ABŞ-ın NATO-da "açıq qapı" prinsipindən əl çəkməyəcəyini bildirib.

NATO-nun "açıq qapı" siyasətindən, yəni, alyansa yeni üzvlər qəbul eləmək niyyətindən əl çəkməməsi iki ölkə arasındakı "məktub-məktub" oyununun uğursuzluğa düçar olduğunu bəri başdan söyləmək üçün kifayətdir. Çünki Moskvanın "1997-ci il vəziyyətinə qayıtmaq" barədə yuxarıda haqqında danışdığımız fantastik tələbinin faktiki olaraq gələcək təhlükələri önləmək, birinci növbədəsə Ukraynanı Qərbin caynağından qurtarmaq məqsədilə ortaya atılması heç kimə sirr deyil. Təsadüfi deyil ki, Moskva bu ay yarım ərzində öz məktubuna cavab almaq üçün Vaşinqtona müxtəlif vasitələrlə təsir göstərməkdən də çəkinmirdi. Sonuncu belə tələblə hərbi təhlükəsizlik və silahlara nəzarət məsələləri üzrə Vyanada keçirilən danışıqlarda RF nümayəndə heyətinin rəhbəri Konstantin Qavrilov çıxış eləmişdi. O, NATO-nu təhlükəsizlik qarantiyası barədə tələbə tezliklə cavab verməyə çağırmış, əks təqdirdə Rusiyanın müdafiəsi üçün başqa tədbirlər görüləcəyini vurğulamışdı: "Artıq həqiqət anı çatır. Qərb ya bizim təklifləri qəbul etməlidi, ya da biz Rusiyanın təhlükəsizliyini təmin eləmək üçün başqa vasitələr tapmaq məcburiyyətində qalacağıq". Heç bir diplomatik örtüyə bürünməyən açıq-saçıq bir hədə qorxu!

Qərbin istər siyasi, istərsə də hərbi dairələri ürəklərindəki niyyətin yaxşı-pisliyindən asılı olmayaraq sülhpərvər ritorikayla danışmağı və davranmağı, ən sərt qərarları da məsum bir təbəssümlə elan eləməyi ustalıqla bacarırlar. Bu baxımdan NATO-nun hazırkı Baş katibi Yens Stoltenberq xeyli fərqli təsir bağışlayır. O özünün gündən-günə sərtləşən nitqiylə az qala şərq hökmdarlarına bənzəməyə başlayır ki, bu da heç şübhəsiz, Rusiyanın əndazəsini aşan aqressivliyinin nəticəsidir. Baş katibin son brifinqdəki açıqlamaları bunun bariz nümunəsidir. Baş katib Kremlin məktubuna alyansın verdiyi cavabla bağlı keçirdiyi brifinqdə bu son qovğalı geopolitik gəlişmələrdə Rusiyanın yerinin harda olduğunu dəqiq göstərmişdi: "Rusiya öz qoşunlarını alyansın Ukraynaya, Gürcüstana və Moldovaya məxsus saydığı ərazilərdən çıxartmalıdır, çünki rus hərbiçiləri orda həmin ölkələrin razılıqları olmadan yerləşiblər. Rusiya hərbi qüvvələri təhlükəli yaradan ərazilərdə yerləşməkdən əl çəkməlidir".

Daha sonra o deyib ki, hərbi blok rəhbərliyinin qənaətinə görə Rusiya ilə üç istiqamətdə əməkdaşlıq mümkündür: Rusiya-NATO əlaqələrinin bərpası, qarşılıqlı narahatlıq doğuran məsələlər ətrafında real müzakirələr və nəhayət, hərbi təlimlər.

Göründüyü kimi, Rusiya-NATO münasibətlərində xeyli vaxtdır ki, təhlükəli mərhələyə qədəm qoymuş gərginlik hələlik yüksələn xətt üzrə inkişaf edir. Hərçənd, janrın tələbləri baxımından artıq olası şeylər çoxdan olmalı, proses endişpilə doğru yuvarlanmalıydı. Odur ki, həmin platformadan, xüsusilə onun Ukrayna cinahından gələn informasiyaların intensivliyi və şiddəti gündən-günə artsa da cazibəsi sönməkdədir. Tərəflər artıq elə təhlükəli həddə qədər bir-birlərinə yaxınlaşıblar ki, bundan o yana adlamağa heç kim risk etmir və görünən budur ki, etməyəcək də.

## Rusiya xarici hərbi qüvvələrin Suriyadan çıxarılmasını tələb edir

**Rusiya təcili olaraq Suriya ərazisindən bütün xarici ölkələrin hərbi qüvvələrinin çıxarılmasını tələb edir. Bu barədə bəyan edən Rusiyanın BMT-dəki daimi nümayəndəliyinin rəhbərinin müavini Dmitri Polyanski qeyd edib ki, həmin hərbi birləşmələr Suriya ərazisinə qanunsuz olaraq daxil olublar.**

"Tələb edirik ki, Suriya ərazisində qanunsuz fəaliyyət göstərən xarici hərbi qüvvələr bu ölkəni tərk etsin. ABŞ terrorizmlə mübarizə aparmağı bacarmır. İŞİD-din Xasakedə həbsxanıya hücumu bunu aşıq şəkildə sübut edir"- deyə Polyanski bildirib.

Amerikanlı hərbiçilərinin yerləşdiyi Suriyanın şimal-şərqində qanunsuzluq baş alıb gedir. Bu ərazilərdə xarici terrorçular at oynadır. "Bu rayonlarda hakimiyyətsizlik və zorakılıq hökm sürür. Məhz bu yerlərdə terrorçular özlərini buranın sahibi sayırlar"-deyə diplomat bildirib.O, qeyd edib ki, amerikanların olduqları yerlərin hamısında eyni vəziyyəti müşahidə etmək olar.

**Rüstəm Hacıyev**

Bəxtiyar SADIQOV

# Müəllim nüfuzu

## Onu necə qoruyaq?

Məndə olan bütün yaxşı cəhətlərə görə kitablara borcluyam!

Sovet dövründə rus yazıçısı Maksim Qorkinin bu sözünü həvəslə sitat gətirərdik!

İnsan kimi yetişəndən sonra isə "Məndə olan yaxşı cəhətlərə görə müəllimlərimə borcluyam" fikrini də səmimi-qəlbdən söyləyirəm!

Həmişə bizə təqlin olunardı ki, müəllim ikinci valideyndir!

Doğrudur!

Çünki doğma ata-ana daha çox qarnımız və əyin-başımız, eyni zamanda təhsilimiz barədə düşünür.

Müəllimlərimiz isə bizə savad, bilik verir, tərbiyələndirir, bəsirət gözümüzü açır, Vətənə layiq övlad olmağın yollarını göstərir!

Əslində kim valideynin və müəllimin dediklərindən nə öyrənir, nə götürür, onu özü və bir də ətrafdakılar görür və bilir!

Valideyn bizi təkcə əzizləyib öpmür!

Hərdən üstümüzə qəzəblənib, müxtəlif cəzalar da verir!

Müəllim isə bizi əzizləyib oxşamağa borclu deyil! (Hərçənd başımızı sığallayan, mehribanlıq göstərən, dərdimizə yanan müəllimlərimiz də az olmayıb!)

Amma tədris etdiyi fənni öyrətməyə, səhvlərimizi düzəltməyə can atmalıdırlar.

Heç vaxt müəllimə (mollaxanalardan başqa) şagirdə fiziki cəza tətbiq etmək hüququ verilməyib!

Amma müəllim də insandır, o da əsəbləşə, təbdən çıxa bilər!

Mən də bir xeyli müəllim şapalağı yemişəm!

Həmişə də narazı qalmışam, anama şikayət etdiyim vaxtlar da olub!

Həmin dövrdə müəllimdən narazı qalmışam, öz aləmimdə küsmüşəm, hətta etiraz əlaməti olaraq bir neçə gün dərsini oxumamışam.

Sonra barışmışıq!

Daha sonralar həmin şapalaqların xeyrini görmüşəm!

Bu gün bütün müəllimlərimi hörmətlə anıram, dünyasını dəyişənlərə rəhmət diləyirəm, şapalaqlarını halal edirəm!

Şapalaq tərəfdarı deyiləm!

Müəllimin uşağı döyməsini, falaqqaya salmasını düzgün hesab etmirəm!

Amma şagirdlə ucadan danışmasını, onun üstünə qışqırmasını "şiddət" adlandıraraq əliyalın qoyulmasını da düzgün saymıram.

Bəs müəllim yaxşı oxuyanla, tərbiyəli uşaqla digərlərini necə fərqləndirməlidir?

Axı jurnala yazılan qiymət onun biliyini əks etdirir, bəs dövlətimiz üçün vətənpərvər insanı kim yetişdirməlidir?

Bəli, qəbul edirəm: tərbiyə təkcə cəza ilə verilmir!

Yaxşı, əgər uğursuz ailədən çıxan bir şagird sinifdə özünü ədəbsiz aparırsa, dərsin gedişinə mane olursa, müasir dildə desək, şagird yoldaşlarının da hüquqlarını pozursa, onda müəllim nə etməlidir?!

***

Bu gün Azərbaycan xalqının qürur duyduğu, həmişə hörmətlə andığı şəxsiyyətlərin böyük əksəriyyəti - Həsən bəy Zərdabi, Mirzə Cəlil, Mirzə Ələkbər Sabir, Üzeyir bəy Hacıbəyli və başqaları müəllim olublar, uşaqlara elm öyrədiblər, vətənə şərəflə xidmət edən insanlar yetişdiriblər!

Biz belələrinin timsalında daim müəllimlərimizi sevmişik, onları ucalıqda görməyə adət etmişik.

İnsaf naminə deyək ki, indi bəyənmədiyimiz sovet dövründə müəllimlər həmişə hörmətli tutulardı, onlara xüsusi diqqət yetirilərdi...



Heç zaman unutmadığım bir fakt: dərs demək üçün ucqar kəndlərə işləməyə gedən müəllimlərə hətta 1941-1945-ci il müharibəsi dövründə belə dövlət qış aylarında odun payı ayırırdı...

Kənd camaatı isə evlərində yerləşdirər, verdikləri otaqlardan kirayə pulu almazdılar.

Bu gün isə "azad söz meydanı" saydığımız sosial şəbəkələrdə müəllimlərin tənqid obyektinə, lağ hədəfinə çevrildiyini ürək ağrısı ilə izləyirik.

Müəllim də səhv edə bilər, çünki o da insandır, onun da səbrinin həddi, əsəbi var!

Amma nə vaxtsa şagird və tələbə olmuş insanlar da müəllim haqqında etik normalar çərçivəsində danışmağı bacarmalıdırlar!

Görünür yaxşı şagird olmadıqlarına görə bunu zamanında müəllimlərindən öyrənməyiblər!

Heç olmasa ədalət hissini, obyektivliyi unutmamalıdırlar!

Birisi bir söz yazıb, bir şəkil paylaşan kimi hamı dönür olur ittihamçı, hakim, nə bilim nə!

Axı həqiqəti bilmədən, məsələnin mahiyyətini öyrənmədən, hər iki tərəfi dinləmədən necə düzgün qərar vermək olar!

Həm də bəzən etik normalardan belə kənara çıxmaqla!

Görünür, bu da vaxtında müəllimə qulaq asıb, düzgün öyrənməməyin nəticəsidir!

Sanki müəllimi hallandırmaq üçün fürsət gəzirik!

Sanki müəllimi nüfuzdan salmaq üçün girəvə axtarırıq!

Sanki müəllimi töhmətləndirmək üçün bəhanə tapmağa çalışırıq!

Halbuki bunu edənlərin hamısının müəllimi olub, müəllimin necə zəhmətə qatlaşdığını oxuduqları müddətdə gözləri ilə görüblər.

Halbuki müəllimi məsxərəyə qoymağa həvəslə can atan sosial şəbəkə istifadəçiləri də yazmağı və oxumağı müəllimdən öyrəniblər.

Halbuki o insanlar da oxuduqları müddətdə dəcəllik ediblər, müəllimi hövsələdən çıxarmağa çalışıblar və bəzən buna nail də olublar!

***

Təəssüf ki, müəllimi əsrlər boyu gördüyümüz və görmək istədiyimiz müqəddəs yüksəklikdən aşağı endirmişik!

İndi isə şagirddən də aşağı tutmaq istəyirik!

Bu nə münasibətdir!

Bu nə yanaşmadır!

Bu nə qisasdır!

Bundan nə qazanacağıq!

Bununla nəyə nail olmaq istəyirik!

Axı müəllim də insandır!

Onun da əsəbləri var!

Onun da səbri tükənə bilir!

Onun da səbir-kasası daşa bilir!

Onda nə etməlidir?

Ata-ana uşağını tənbeh edə bilirsə, niyə müəllimin bu hüququ olmamalıdır?!

Ata-ana övladını cəzalandıra bilirsə, onda niyə müəllim şagirdi ilə hündürdən danışa bilməməlidir?!

Axı müasir valideynin ən yaxşı halda 2 övladı olur!

Müəllim isə ən azı 30-40 uşağa ata-analıq edir.

Niyə valideynin etdikləri öyüd-nəsihət, müəlliminki isə şiddət sayılır!

Axı müəllim cəzanı da uşağın tərbiyəsi, təhsili, özünü insanlar arasında, cəmiyyətdə normal aparması, tərbiyəli davranışı naminə verir!

Müəllim manyak deyil, qışqırmaqdan, cəza verməkdən zövq almır!

Sovet dövrünün bir Makarenko soyadlı nümunəvi, istinad edilən müəllimi var idi.

Xalq Cumhuriyyəti dövrünün də Firidun bəy Köçərli kimi pedaqoqları nümunə sayılırdı.

Sovet dövründə ən yüksək mükafatlara, hətta Sosialist Əməyi Qəhrəmanı adına layiq görülən orta məktəb müəllimləri vardı!

İndi göstərin görək nümunə hesab edilən, sevilən və sevdirilən, fərqləndirilən bircə müəllim tapıb ortaya çıxarmışıqmı?!

Yalnız irad, narazılıq, töhmət, işdən qovma!

İndi kifayət qədər uğursuz ailələr var!

Ya zəlzələdən, ya vəlvələdən!

Təkcə ötən ilin 11 ayında 15,6 mindən çox boşanma faktı olub.

Kobud hesablasaq, bu, 10 minə qədər yetim uşaq deməkdir!

Ana öhdəsində qalan uşaq!

İşləyən gənc ananın ailə qayğıları, dolanışıq çətinlikləri övlada kifayət qədər vaxt və diqqət ayırmağa imkan vermir.

Xırdalamaq istəmədiyimiz digər ailələr də var!

Problemli və yarımçıq ailələrin "məhsulu" olan uşaqlar da məktəbə gəlir!

Bütün yük - təhsil, təlim və tərbiyə yükü məktəbin və müəllimin üzərinə düşür.

Görün bir sinifdə neçə uğursuz ailənin uşağı oxuyur!

Müəllim yazıq neyləsin?!

Axı bəzən müəllimin də ailə vəziyyəti ürəkaçan olmur!

Axı müəllimin də içini yandıran dərd-səri ola bilər!

Müəllim belə ailələrin övladlarına dayaq durub onu oxutmağa, tərbiyə etdirməyə çalışır.

Bəzən öz dərdini və problemlərini belə unudaraq!

Onda cəmiyyət niyə müəllimə dayaq durmasın, onu anlamağa çalışmasın!

Təbii ki, söhbət sosial şəbəkədə "formalaşan" "cəmiyyətdən" gedir:

* milçəyi böyüdüb filə çevirməyə çalışan;

* məsələnin mahiyyətini bilmədən rəy söyləyən;

* hər iki tərəfi dinləyib əsl həqiqəti öyrənmədən "hökm" çıxaran:

* hətta müqəddəsliyi belə şəbədə hədəfinə çevirməkdən zövq alan sosial şəbəkədən!

Niyə rəhbər və məmurlar sosial şəbəkənin təsiri altında qərar çıxarmalıdırlar?!

Niyə əsl həqiqəti bilənlər belə sosial şəbəkədəkilərə xoş gəlsin deyə onun istədiyi cəzanı icra etməlidir?!

Bax, onda ayağını partanın üstünə qoyub müəllimə, məktəbə, təhsilə hörmətsizlik nümayiş etdirən şagird qalib sayılır!

Bax, onda müəllim haqsız cəzadan yayınmaq üçün belə tərbiyəsizliyi görməzliyə qoyur!

Bax, onda gələcək üçün vətənpərvər, təhsilli, tərbiyəli vətəndaş əvəzinə müəllim, valideyn qədri bilməyən savadsız və cəmiyyətə yararsız insan yetişə bilir!

Gəlin ədalətli olaq!

Gəlin həqiqəti öyrənib biləndən sonra rəy söyləyib, qiymət verib, hökm çıxaraq!

Gəlin valideynin uşağa çəkdiyi zəhməti də, müəllimin əməyini də düzgün qiymətləndirək!

Belədə hamı qazanar: ata-ana da, müəllim və məktəb də, hətta cəmiyyət də!

"Azərbaycan" qəzeti,
28.01.2022

## "İran şirkətlərinin bərpa prosesində iştirakı regional əməkdaşlığa töhfədir"



**"Azərbaycanın azad olunmuş ərazilərində - 10 min kvadratkilometr ərazidə bərpa quruculuq işləri davam edir. Artıq İran şirkətləri də bərpa prosesinə maraq göstərir". Bu barədə danışan deputat Könül Nurullayeva bildirib ki, Prezident İlham Əliyevin də söylədiyi kimi, Vətən müharibəsindən sonra regional əməkdaşlıq üçün əlverişli imkanlar mövcuddur:**

**"Regional əməkdaşlıq üçün hazırda çox ümidverici 3+3 əməkdaşlıq platforması yaradılıb. Bu istiqamətdə dialoq davam etdirilir və region ölkələrinin maraqlarını təmin edəcək. Ermənistan nə qədər dəhliz məsələsinə qıcıqla yanaşsda da, proses gedir və Azərbaycanın təklif etdiyi, bütün tərəflərin maraqlarına cavab verən Zəngəzur dəhlizinin yaradılması ilə bağlı həm avtomobil yolu, həm dəmir yolu artıq inşa edilir. Dövlət başçımızın söylədiklərindən aydın olur ki, Ermənistandan artıq müsbət xəbərlər alırıq. Ermənistan öz tərəfində də bu işlərə start verməyi planlaşdırır. İranın qonşu ölkə kimi bu işlərə töhfəsi əlbəttə, olduqca müsbət qarşılanır.**

Bu cür konstruktiv yanaşmalar sülh və əməkdaşlığa əlavə töhfələr verir. Yeri gəlmişkən, Bakı və Tehran "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının inşası prosesinin sürətlənməsilə də bağlı razılığa gəlib. Yəni, bütün tərəflərin prosesdə fəal iştirakı Ermənistanın da real addımlar atmasına təkan verə bilər. Məlumdur ki, ötən il Brüsseldə Azərbaycanın Prezidenti ilə Ermənistanın Baş naziri arasında görüş baş tutdu və həmin təmaslarda Ermənistan nəqliyyat kommunikasiyalarının, xüsusilə Zəngəzur dəhlizinin açılması, eyni zamanda dövlət sərhədlərinin delimitasiyasına başlanılması haqqında götürdüyü öhdəlikləri yerinə yetirməyə hazır olduğunu bəyan edib. Yəni, hazırda bu prosesə mane olan ciddi səbəb yoxdur, əslində.

Üstəlik, sərhədlərin delimitasiya və demorkasiyası prosesində Avropa İttifaqı da töhfə vermək niyyətini açıqlayıb. Yəni, Avropa İttifaqı da prosesin sürətlənməsində maraqlıdır.

Belə olan halda Ermənistanın 2022-ci ildə real addımlar atması vacibdir, hətta bu məsələdə hər hansı manipulyasilayalara yol veriləcəyi təqdirdə, Ermənistana təzyiq göstərilməlidir. Bir sözlə, 2022-ci il bu sahədə itirlmiş il olmamalıdır".

**Nicat Novruzoğlu**

## Əhməd İsmayılov Cahangir Məmmədli ilə görüşdü




**Yanvarın 27-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin professoru Cahangir Məmmədli ilə görüş keçirilib.**

Adalet.az xəbər verir ki, professor Agentliyin ölkə mediasının inkişafına yönələn fəaliyyətini, "Media haqqında qanun"un geniş ictimai müzakirələrini yaxından izlədiyini bildirib.

O, artıq parlamentin müzakirələrindən keçmiş qanun layihəsinin ölkə mediasının həyatında yeni keyfiyyət mərhələsinin əsasını qoyacağını vurğulayıb.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bu il gerçəkləşdiriləcək yeni layihələr və "Media haqqında qanun"dan irəli gələn məslələr barədə ətraflı bəhs edib.

**Görüşün sonunda Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov 80 illik yubileyi münasibəti ilə professor Cahangir Məmmədlini təbrik edib.**

Aqil ABBAS

# GÖRƏN, ERMƏNİ ÇOX OLAR, YOXSA URUS?

*İkinci Dünya Müharibəsində Azərbaycanın əhalisi 2 milyon 300 min nəfər olub. Statistikaya görə, 600 min nəfər bu müharibədə iştirak edib, 400 minə yaxın azərbaycanlı da döyüşlərdə həlak olub.*

*Bundan başqa, 2 Azərbaycan diviziyası yaradılıb ki, biri də 416 nömrəli "Taqanroq diviziyası" idi. Bu diviziyalar demək olar ki, tamamilə azərbaycanlılardan ibarət idi, qırıldıqca da yenə yerləri bizlərlə doldurulurdu.*

*Görkəmli yazıçımız İsa Muğanna gərək ki, "İdeal" əsərindədi, bu diviziyaları belə adlandırırdı: "QIRILAN DİVİZİYANIN QIRILAN OĞULLARI". Sovet hökuməti vaxtı bu diviziyaları belə adlandırmaq böyük cəsarət tələb edirdi.*

*Bunu niyə yazıram? Rusiyanın müharibə haqqında çəkdiyi filmlərə baxırıq, elə bil heç biz yoxuymuşuq. Elə bil ən cavan Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədov yoxuymuş, Qafur Məmmədov yoxuymuş, alman tanklarının qənimi general Həzi Aslanov yoxuymuş, Ziya Bünyadov yoxuymuş, İsrafil Məmmədov onun kimi və sair və ilaxır.*

*Alman faşizminə qarşı ruslarla çiyin-çiyinə döyüşən ermənilər və gürcülər imiş, xala-xətrin qalmasın deyə, arada gözünə özbək də qatırlar.*

*Və hazırda çəkdikləri seriallarda və filmlərdə mütləq qəhrəmanlardan biri ermənidi. Hərdən bizim də adımız çəkilir, o da quldur kimi, mafioz kimi, bazar adamı kimi.*

*Və ən maraqlısı budur ki, bəzi filmlərdə erməni obrazı olmayanda da mütləq görəcəksiniz ki, ən azı telefon danışığında deyilir:*

*- Ruben necədi, salam deyərsiz. Aşota hədiyyə göndərmişdim alıb?*

*Və sair və ilaxır.*

*Görəsən, rusların erməni sevgisi hardan qaynaqlanır və bu sevgi bitib-tükənmir.*

*Universitetdə oxuyarkən bir müəllimimiz vardı, Yerevan Dövlət Universitetinin erməni bölməsini bitirmişdi. Bütün ömrünü də türkçülüyə həsr etmişdi. Gənc yaşlarında da "Ararat" komandasında oynamışdı, sonra vurub qılçını qırmışdılar, diz qapağını çıxarmışdılar, ona görə də ömrünün axırınadək axsayırdı. Bu məşhur türkoloq Mirəli Seyidov idi, yeri cənnət olsun.*

*Deyərdi, ermənilər Moskva universitetlərinə, xüsusilə də Beynəlxalq Əlaqələr İnstitutuna seçib ən gözəl qızlarını göndərirlər. Və tapşırıq da verilir ki, ruslarla, ümumiyyətlə, xristian xalqlarına ərə gedin. Ondan doğacağınız uşaq erməni xalqına qulluq edəcək, əriniz də həmçinin.*

*Sonra da deyərdi ki, bu millət belə millətdi.*

*Və illər göstərdi ki, Mirəli Seyidov nə qədər haqlıymış. Əslində ermənilər bu siyasəti Azərbaycanda da həyata keçirirdilər. Rusiyada da, Azərbaycanda da pul yığıb qızlarını verdikləri oğlanları yüksək vəzifələrə irəli çəkdirirdilər. Və onlar da erməni xalqına qulluq edirdi.*

*Nə isə. Bir gün ruslar ayılacaq ki, bütün əsərlərinin qəhrəmanı ermənidi, onlar ikinci dərəcəli xalqdı. Onda da gec olacaq.*

Vüqar Abbasov
"Ədalət"in Niderlandda xüsusi müxbiri

## Bir-birimizə atmağa daşımız həmişə olacaq



Orta məktəbi Bakının Kürdəxanı qəsəbəsindəki 113 nömrəli orta məktəbdə bitirmişəm. Fb dostluğumda mənimlə bir məktəbdə və hətta bir sinifdə oxuyanlar da var, yazacaqlarımı təsdiq edərlər.

Biz oxuyan illərdə (1981-1991 - ci illər) də:

- Məktəbdə bəzi müəllim və şagirdlərin arasında xoşagəlməz hallar olurdu.
- Bəzi müəllimlərə hədiyyələr verirdilər (məcburiyyət yox idi).
- Kitablar pulsuz idi, amma hədiyyə verən uşaqlara, valideynlərindən ehtiyat etdiklərinə, valideynləri vəzifədə olan uşaqlara təzə kitablar verilirdi, yerdə qalan kitablar da digər uşaqlara paylanırdı.
- Sinifpulu yığırdıq, süpürgə və.s. üçün.
- Müəllimlərdən dərs keçməyib "sakit oturun qiymət yazacam" deyənlər olurdu. Belə olmasa idi, məktəbi o vaxt bitirənlərin hamısı bütün fənnləri ən azı kafi səfiyyədə bilməli idilər. Bilirdilərmi? Yox.
- ...............................
- Kiməsə, nəyəsə göz yumub şagirdə bilmədiyi fənnlərdən belə yüksək qiymət verənlər var idi. Məsələn, mən Kimyadan, Fizikadan 5 almışam, amma biliyim heç bu gün belə 3 - ə layiq deyil.

Siyahını uzatmaq da olar. Səndən soruşuram, bu sətriləri oxuyan jurnalist, işini vicdanla görürsən? Görə bilirsən? Düz bildiyini vicdanla yaza, deyə bilirsən? Bazarda kartof, meyvə və.s. satan, sən, ay həkim, ay məmur, ay usta və digərləri, öz işinizi vicdanla görürsünüz? (təbii ki, söhbət ayrı - ayrı adamlardan getmir)

Dünən də belə idi, bu gün də belədir. Əlbətdə ki, bütün bunlar yaxşı hal deyil. Amma çıxış yolu tapmaq üçün oturub düşünməyimiz lazımdır. Yoxsa kimsə özündəkini görməyib, başqasında qüsur axtarmaqla düzələn deyil. "Daş dövrü daşlar bitdiyi üçün deyil, başlar dəyişdiyi üçün sona çatdı" deyə bir deyim var. Bizim də başımız, düşüncəmiz dəyişməsə, heç nə dəyişməyəcək. "Daş dövrü" bitməyəcək, bir-birimizə atmağa daşımız həmişə olacaq.

vugarabbasov@hotmail.com

## Deputat seçicilərini qəbul edib



**Azərbaycan Respublikası Milli Məclisinin deputatı Anar Məmmədov Naftalan şəhərində vətəndaşları qəbul edib. Görüş zamanı Anar Məmmədov seçicilərin qarşılaşdığı problemləri, onları narahat edən məsələləri diqqətlə dinləyərək qeydlər götürmüş, həmin məsələlərin həlli üçün müvafiq tədbirlər görəcəyini diqqətə çatdırmışdır.**

Müraciətlərin əksəriyyəti daha çox su problemi ilə bağlı məsələlər olub. Anar Məmmədov da ona ünvanlanan müraciətlərin həlli üçün köməkçisini Naftalan şəhəri Qasımbəyli kəndinə artezian quyularının vurulması mümkün ola bilən ərazilərə baxış və məlumat verilməsi üçün göndərib, həmçinin deputatın səlahiyyəti çərçivəsində mövcud problemin həlli üçün aidiyyatı qurumlara müraciət edəcəyini bildirmişdir. Görüşdə bir qisim seçici artıq həllini tapmış məsələlərlə bağlı Milli Məclisin deputatı Anar Məmmədova dərin təşəkkürlərini ifadə ediblər.

**Deputat görüşdə vurğulayıb ki, yalnız seçicilərin ona ünvanlanan müraciətlərini aidiyyatı qurumlara göndərməklə kifayətlənmir, eyni zamanda onların icra vəziyyətini də diqqətdə saxlayır.**

Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az



# Boş vədlər

...Bu gün biz bir çox məhsulların qıtlığından əziyyət çəkirik. Daha doğrusu, bəzi hallarda burnumuzdan qabağı görə bilmirik. Əgər görə bilsəydik, bax, bu gün yaşadığımız çətin anların şahidi olmazdıq. Amma ölkəmizdə görün nə qədər nazirliklər və qurumlar var. Hansı ki, onlar bir çox məsələləri vaxtında və zamanında həll etməlidilər...

...Hər il dövlət tərəfindən kənd təsərrüfatını - pambıqçılığı, taxılçılığı, tərəvəzçiliyi, heyvandarlığı inkişaf etdirmək üçün milyonlarla vəsait ayrılır. Bəs, milyonlarla vəsait ayrılırsa, dövlət bu qədər kənd təsərrüfatı üçün xərc çəkirsə, nəyə görə biz bir çox məhsulların qıtlığından, azlığından əziyyət çəkməliyik?!

Subsidiyaların verilməsi bir çox halda sahibkarların incidilməsi ilə tamamlanır. Məsələn, elə sahibkar var ki, subsidiyanı vaxtında ala bilmir və əkin işlərini aparmaqda çətinliklər çəkir. Çünki bu vəsait olmadan əkin sahəsini şumlamaq və digər aqrotexniki qaydaları yerinə yetirmək elə də asan deyil...

...O günü televiziya kanalının birində bir sahibkar gileylənirdi ki, subsidiyanı vaxtında ala bilmədiyimə görə əkin işlərimi görə bilmirəm. Hansı ki, hökumət bu vəsaiti bizə ayırıb. Amma Kənd Təsərrüfatı Nazirliyi onu vaxtında vermir. Bax, belə-belə işlər istər-istəməz bir çox sahibkarları, fermerləri ruhdan salır və işdən soyudur. Üstəlik də onların istehsal etdiyi məhsullar bir çox halda bazarı tapılmadığına görə satılmır və nəticədə həmin sahibkar növbəti ildə torpağı əkmir, əli, qolu işdən soyuyur...

Çünki o sahibkarı da qınamalı deyil. Becərdiyi məhsul heç onun maya dəyəri eləmir. O da düşünür ki, ilboyu əziyyət çəkirəm, kartof, soğan yetişdirirəm, onu da su qiymətinə satıram, alan yoxdur! Ona görə də növbəti ildə o fermer məhsulu əksə də, ancaq özünün və ailəsinin ehtiyacını ödəmək üçün becərir.

Bu günün özündə də meyvə bağlarından alma, nar və digər meyvələr yetişdirib yığan sahibkarlar çıxılmaz vəziyyətdə qalıblar. Ona görə çıxılmaz vəziyyətdə qalıblar ki, artıq qışın oğlan çağıdır, onların məhsulları anbarda qalıb xarab olur.

Məsələn, mən Qubada bir fermer tanıyıram, almanın kiloqramını 15-20 qəpiyə verməyə məcburdur. Deyir ki, əgər 15-20 qəpiyə verməsəm, o almalar çürüyəcək. Hətta bəziləri əsəbləşib alma bağlarındakı alma ağacını çıxarıb, odun kimi istifadə edirlər. Deyir, qazımız gəlmir, meşədən də gətirilən odunun bir maşınını 200 manata verirlər. Elə ondansa, ağacları çıxarıb yandırmaq daha yaxşıdır.

...İndi görün, rayonlarda bəzi fermerlər hansı çətinliklə üzləşirlər. Kənd Təsərrüfatı Nazirliyi Bakıda belə bir yarmarka təşkil edib:

"Kənddən şəhərə". Bu yarmarkada kənddən gətirilən məhsullar guya şəhərdə ucuz qiymətə satılır. İnanan, daşa dönsün! Bizim özümüz də dəfələrlə həmin yarmarkalara baş çəkmişik, orda satılan məhsulların 8-ci kilometr bazarı ilə müqayisədə çox bahalı olduğunu görmüşük. Əsl kəndli qalıb qıraqda, kimlərsə özlərinə yaxın adamları həmin yarmarkalarda yerləşdirib pul qazanırlar.

Məgər, o qədər çətin işdir ki, əsl fermer və sahibkarı tapasan, o da gətirib almanı, narı və digər meyvələri ucuz qiymətə satalar?! Məsələn, bizim həyətə alma gətirib satırlar, kiloqramı 30-40 qəpiyə.

Amma həmin almanı kənddən şəhərə təşkil edilmiş yarmarkada 50-60 qəpikdən aşağı satmırlar.

Hələ biz bazarları demirik. Amma hər bazarın da öz satıcısı var. Əgər nabələd adam hər hansı bazara bostan-tərəvəz məhsulu gətirsə, gecə saat 4-də, 5-də ya onu su qiymətinə alacaqlar, ya da bazara buraxmayacaqlar. Əcəba, bəs bu insanlar neyləsinlər? İlboyu əkib-becərdiyi məhsulları harda satsınlar və başlarına nə çarə qılsınlar?!

Ona görə də əlaqədar qurumlar insanlara yağlı vəd verib onları aldatmamalıdılar. Ay bağ belə, bostan belə! Çünki insanlar, daha doğrusu, fermerlər tay yalan söz-söhbətlərə, vədlərə inanmırlar.

Ən azından onlar danışılanlara yox, gördüklərinə inanırlar. Gördükləri isə odur ki, onların ilboyu tər töküb əziyyət çəkdiyi və becərdiyi alma, soğan, nar anbarda qalıb xarab olur. Xaricdən isə ölkəmizə keyfiyyətsiz mer-mevyələr idxal edilir.

Görünür, oliqarxlar istəmirlər ki, ölkəmizdə yerli istehsal inkişaf eləsin, fermerlər və sahibkarlar yaxşı dolansın və eyni zamanda məmləkətimzdə bol məhsulun olmasını arzulamırlar.

Ən azından ona görə ki, yaranmış qıtlıq zamanı özlərinin keyfiyyətsiz və dadsız bostan-tərəvəz məhsullarını baha qiymətinə əhaliyə sırısınlar.

Şəhriyar Məhərrəmov



# Bunları doğub töküb tərbiyə verə bilməyənlər...

*Günlər öncə bir yazı yazmışdım.*

*Azərbaycan məktəblərində müəllim şagird münasibətləri barədə.*

*(Həmin yazını şərhə qoyacam)*

*Bir çox insanlar məni qınamışdı ki, sən necə yani müəllimin uşağı vurmasını dəstəkləyə bilərsən?*

*Dostlar, mən 40 il müəllim işləyən ailədə böyümüşəm. Mən orta məktəblərdə təhsilin və etik davranış qaydalarının necə olduğunu çoxunuzdan yaxşı bilirəm.*

*Ona görə ki, mən cəmiyyətdə yaşananları da çoxunuzdan daha aydın görə bilirəm.*

*Biz Norveçdə yaşamırıq. Biz bu cəmiyyətdə yaşayırıq. Bu ölkədə ailələrin böyük əksəriyyəti məktəbə normal insan yetişdirib göndərmir.*

*Misalüçün baxın Azərbaycanda orta məktəb dərs otağı, balaca küçüklər, masanın üstü "vor, oğru nişanları ilə yazılı, ayaq harda, müəllim sinifdə ola-ola şagirdlərin hərkəti"*

*Kimdi günahkar?*

*Əlbəttə sivil, mədəni Avropa qanunlarını yabanı Azərbaycan cəmiyyətində tətbiq etmək istəyən hökümətdə.*

*Şagird nə edir etsin, onu vurmaq olmaz.*

*Və nəticədə müəllim işinə görə çarəsiz qalıb qarşısındakı yabanı təbəqəyə güldən ağır söz deyə bilmir.*

*Nəticə isə bu olur.*

*Unutmayın heç bir yabanı cəmiyyət tumarlana-tumarlana tərbiyə edilməyib.*

*Çünkü insan özü bir heyvan növüdür.*

*Onu da əhilləşdirmək üçün müxtəlif vasitələr var.*

*Bu gün bəh-bəhlə baxdığınız Avropa ən sərt və amansız qanunlar, cərimələr ilə belə olub.*

# Polisin üstünə maşın sürənlər




**...Biz hələ də başa düşmürük ki, qanun şahdır və şah qanun deyildir. Və kimliyindən asılı olmayaraq, hamı qanuna tabedir. İstər nazir olsun, istərsə də adi insan. Bunu başa düşmək üçün Amerikanı kəşf etmək lazım deyil. Sadəcə olaraq bir həqiqəti hamı bilməlidir ki, hər hansı törətdiyi cinayətə görə gec-tez qanun qarşısında cavab verməli olacaq. Çox təəssüf ki, bunu heç də hamı başa düşmür və anlamır. Və hamı başa düşmədiyinə və anlamadığına görə bir çox insanlar törətdiyi cinayətin tez-tez qurbanına çevrilirlər...**

...Qanunları icra edən orqanlardan biri də Azərbaycan polisidir. O Azərbaycan polisi ki, ölkəmizin azadlığı və müstəqilliyi yolunda minlərlə şəhid verib. Və ondan da çox polislərimiz cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin qorunmasında və



Birinci, İkinci Qarabağ savaşında şəhid olublar, ağır yaralanıblar. Ulu Öndər Heydər Əliyevin söylədiyi bir fikir yadıma düşür. "Birinci Qarabağ savaşının başlandığı günlərdə torpaqlarımızı Azərbaycan polisi qoruyurdu. O vaxtı nizami ordu və müdafiə qüvvələrimiz zəif idi, könüllü batalyonlar var idi və bir də Azərbaycan polisi idi. Bax, onda Azərbaycan polisi sinəsini güllənin qabağına verdi və torpaqlarımızın qorunması uğrunda böyük savaşa atıldı. Nə qədər polis əməkdaşımız şəhid olub, nə qədəri yaralı olaraq tarixə düşüb. Bax, Azərbaycan polisi belə bir şanlı yol keçib".

Azərbaycan polisi tam məsuliyyətlə deyə bilərik ki, İkinci Qarabağ savaşında çox böyük qəhrəmanlıq göstərib, şəhidlər verib, nə qədər əməkdaş da yaralanaraq qazi olub. Və bu gün də azad olunmuş rayonlarımızda ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə o polislərin əvəzsiz xidmətləri var. Biz Azərbaycan polisini həmişə öndə görmüşük, Vətən və xalq yolunda necə döyüşdüklərinin şahidi olmuşuq. Mənim tanıdığım onlarla polis zabiti və sıravi əməkdaş var ki, Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olub, yaralanıb və bu gün də Vətənə namusla xidmət eləyirlər

Polisin ən başlıca vəzifələrindən biri cinayətkarlığa qarşı mübarizə aparmaqdır. Və bir faktı qeyd edək ki, son bir ildə Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə Azərbaycan polisi narkomaniyaya qarşı çox böyük mücadiləyə və mübarizəyə başlayıb. Bu mücadilədə neçə-neçə polis əməkdaşı cinayətkarları zərərsizləşdirərkən ölümlə üz-üzə qalıb və bir çox halda onları ələ keçirərkən yaralanıblar. Heç kimə sirr deyil ki, hər gün ölkəmizin müxtəlif regionlarında narkotiklərin satışı ilə məşğul olan cinayətkar şəbəkələr aşkarlanır, onları zərərsizləşdirmək və həbs eləmək elə də asan deyil. Çünki həmin şəxslər çox vaxt silahlı olur, aradan qaçıb çıxmaq üçün bir çox halda odlu silahdan da istifadə edirlər. Bu isə həmin cinayətkarları zərərsizləşdirərkən polisdən daha yüksək peşəkarlıq, çeviklik və cəsarət tələb edir.

Zarafat deyil, elə gün olur ki, 40-50 nəfərə yaxın narkotik maddələrin satışı ilə məşğul olan cinayətkar şəxslər saxlanır, onların arasında dəfələrlə məhkum olunmuş və narkotik maddələrin satışı ilə həbsxana həyatı yaşamış insanlar var və ən çox da belə cinayətlərə o cür insanlar cəlb edilir. Çünki narkotikanın satışı ilə külli miqdarda pul əldə edilir. Üstəlik də, onlardan kuryer kimi istifadə edən cinayətkar şəbəkə yaxalanmamaq üçün tez-tez manevr edir. Bax, bu qəbildən olan cinayətləri üzə çıxarmaq, həmin şəbəkələri zərərsizləşdirmək və ifşa etmək elə də asan deyil. Bayaq dedik axı, onlar narkotika alverindən külli miqdarda vəsait qazanırlar. Bu heç kəsə sirr deyil.

Əlbəttə, narkotikanın satışı pul gətirməklə yanaşı, cəmiyyətə həm də "ağ ölüm"ü bəxş edir. O da hamıya bəllidir ki, bu gün cinayətkar şəbəkə həmin zərərli maddələri yeniyetmələrin və gənclərin arasında yaymağa çalışır və bəzən də buna nail olur. İndi görün bu cür cinayətlərin çoxalması cəmiyyətdə hansı faciələr yarada bilər. Ona görə də biz polisin bu sahədəki mübarizəsini və mücadiləsini alqışlayırıq və onlara qahmar çıxırıq. Bu yaxınlarda isə Binəqədi rayonu ərazisində narkoticarətlə məşğul olan bir şəxs Binəqədi rayon Polis İdarəsinin 7-ci Polis Şöbəsinin əməkdaşları əmrinə tabe olmayıb. Polisə cinayətkar tabe olmaq əvəzinə, avtomobili onların üstünə sürüb və polis əməkdaşlarından xəsarət alan da var. Bu vaxt həmən polis nəfərlərindən biri cəld tərpənərək xidməti silahla avtomobilin təkərinə atəş açıb. Bundan sonra avtomobil dayanıb və çox çətinliklə də olsa, narkoticarətlə məşğul olan şəxs polisin peşəkarlığı, çevikliyi nəticəsində zərərsizləşdirilib. Axtarış zamanı satış məqsədilə onun maşınından külli miqdarda narkotik maddə aşkarlanıb. Üstəlik də, məlum olub ki, bu şəxs əvvəllər narkotika alverinə görə məhkumluq həyatı yaşayıb. Bax, bu cür cinayətkar şəxslərin yaxalanması zamanı yüksək peşəkarlıq və mərdlik göstərən polislər hər cür diqqətə layiq olmalıdır. Çünki onlar belə cinayətkarları zərərsizləşdirərkən ölümlə üzbəüz olur və bəzən onların atəş açdığı silahdan xəsarət də alırlar.

**Sözümüzün canı odur ki, bu gün Azərbaycan polisi sözün həqiqi mənasında dövlətçiliyimizin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin və təhlükəsizliyin təmin edilməsində əvəzsiz rol oynayır. Və onu da qeyd etməliyik ki, Azərbaycan polisinin peşəkarlığı və əzmkarlığı günbəgün yüksəlir.**

**Faiq QİSMƏTOĞLU**

# Şəhid Səid Rəşidzadənin barelyefinin açılışı olub

**Şəhid baş leytenant Səid Rəşidzadənin təhsil aldığı Nərimanov rayonu Sərhəddin Yolçuyev adına 207 saylı tam orta məktəbdə barelyefinin açılış mərasimi keçirilib. Tədbirdə deputatlar Adil Əliyev, Sabir Rüstəmxanlı, Aqil Abbas, Nərimanov rayon icra hakimiyyəti başçısının müavini İradə Muradova, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid, Vətən müharibəsi qaziləri, barelyefin müəllifi gənc heykəltaraş Müstəqil Balayev və məktəbin kollektivi, o cümlədən, şəhidin doğmaları iştirak edirdilər.**



Tədbirdə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin sentyabrın 27-də başlanan və qırx dörd gündə tarixi qələbə ilə başa çatan Vətən müharibəsində Azərbaycan əsgərlərinin göstərdikləri qəhrəmanlıqlardan danışılıb, erməni işğalçılarının diz çökdürülərək torpaqlarımızdan qovulduqları, şəhidlərin qanının yerdə qalmadığı vurğulanıb.

Sonra məktəbin şagirdləri tərəfindən şəhid Səid Rəşidzadəyə həsr olunmuş kompozisiya təqdim olunub.

Qeyd edək ki, şəhid Səid Rəsulzadə 1990-cı il yanvarın 28-də Füzuli rayonunun Horadiz şəhərində anadan olub. 1996-2007-cı illərdə Nərimanov rayonunda S. Yolçuyev adına 207 nömrəli tam orta məktəbdə təhsil alan şəhidimizin növbəti təhsil ocağı 2007-2011-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi olub.

2011-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmətə başlayan S.Rəşidzadə 2016-cı ilin 2-5 aprelində baş verən döyüşlərdə Polad Həşimovla çiyin-çiyinə savaşıb. Azərbaycan Ordusundan tərxis olunsa da, Tovuz döyüşləri za-



manı Polad Həşimovun həlak olması ona çox pis təsir edib. Könüllü olaraq 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərə yollanıb. Səid Rəşidzadə Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. 2020-ci ilin oktyabr ayının 11-də Hadrut qəsəbəsində Azərbaycan bayrağını sancan zaman şəhid olub. Füzuli rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalına layiq görülüb.

Səid Rəşidzadə ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin 05.11.2021-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

**Nicat Novruzoğlu**

# Səddam Hüseynin əsgərləri tərəfindən mühasirəyə düşən cərrah



**Gino Strada italyan cərrahdır. Gino 1988-ci ildən Pakistan, Efiopiya, Peru, Tayland, Cibuti, Somali və Bosniyada cərrah işləyib. 1994-cü ildə isə o, Ruandada soyqırımı zamanı Ruandada idi. Daha sonra müharibə və aclıq olan digər yerlərdə İraqda, Kambocada, Eritreya və Afrikanın digər yerlərində olub.**

Gino Strada öz ölkəsindən uzaqda, dünyanın 30 fərqli ölkəsində, milliyətindən, cinsindən asılı olmadan xəstə və köməyə ehtiyacı olan insanlara təmənnasız kömək edib. Bu qaydada həkim Gino minlərlə cərrahi əməliyyat həyata keçirib və minlərlə insanın həyatını xilas edib.

Həkim İraqda Səddam Hüseynin əsgərləri tərəfindən mühasirəyə düşdüyü vaxt infarkt keçirmişdi. O, illər sonra (2021) növbəti dəfə infarkt keçirərək həyatını itirib.

Gino Strada bir müsahibəsində bildirib:

"Əgər hər hansı bir insan hazırda ağrı çəkirsə, xəstə və ya acdırsa, bu hamımızı narahat etməlidir. Çünki bir insanın əzab çəkməsinə məhəl qoymamaq, narahat olmamaq özü zorakılıq və qorxaqlıqdır."

**Eminquey**

İlhami Cəfərsoy



# AZƏRƏK OĞULLARI

*Azər yalnız Azərbaycan ölkə adının kökü deyildir. Xəzər dənizi ilə Urmiya gölü arasının qədim bir xalqının adıdır. Onlar əhəmənilərlə vuruşmuş, ölkəmizi sasanilərdən, ərəblərdən qorumuşlar. Neyləyək ki, bizim alplıq və ərənlik tariximizin olduğu kimi dərsliklərə salınmasına imkan verməyiblər. Babəkə qədər Xürrəmilər hərəkatına Azər nəslindən Azərək oğlu Həmzə başçılıq edirdi. Azər adına ilk dəfə er.əv.XVlll əsrdə rast gəlirik. Kaspilər o zaman Elamın Şuşa və Bərdə şəhərlərini tutanda hökmdarların Azər titulu Ata titulunu əvəz etdi. İnsanlar ata məbədində əcdadlara, od məbədində tanrı Azərə sitayiş edirdilər.Tanrı Azərə sitayiş edən xalqın ölkəsi Elam mətnlərində Azereba adlanır. Ərəblər gələndən sonra Azereba, yəni Azəroba ölkə və vilayət adları Azərbaycan şəklinə salındı. Azərbaycan Azəreba ölkə adının azca dəyişdirilmiş formasıdır. Azərək oğullarının bir qismi də Fələstində, Yerusəlim ətrafında yurd salmışdı. Azərlərin od məbədi əhəmənilərin od məbədinə bənzəmirdi. Onlar oda atəş yox, od deyirdilər. Od məbədinə atəşgah yox, ocaq deyirdilər. Biz öz həqiqi tariximizi yad düşüncələrdən təmizləmək üçün hələ çox işlər görməliyik.*

Aqil ABBAS

# MƏN DƏ BİR DƏFƏ ŞAGİRD DÖYMÜŞƏM

*Gərək ki, bunu bir dəfə yazmışam, amma yenə oxucuların yadına salmaq istəyirəm. Və ümumiyyətlə, müəllimin şagirdi döyməsinin, ya incitməsinin və küncdə tək ayaq üstə qoymasının əleyhinəyəm. Amma müəllimin birillik məvacibinin qiymətinə telefon gəzdirən, müəllim kimi avtobusda basabasda evindən dərsə çatmaq üçün iki saat tez çıxmaq əvəzinə lüks avtomobillərlə dərsə gələn və müəllimi adam yerinə qoymayan şagirdlərin də əleyhinəyəm.*

*Mən 8 ay müəllim işləmişəm - Ağsu rayonunda internat məktəbində, evimizdən 200 kilometr aralıda. Düzdür, kirayənişin yaşamamışam, atamın Temir adlı bir ağsulu dostu məni evində əziz bir qonaq kimi saxlayıb. Və bütün ağsulular qərib bir müəllim kimi mənə hörmət edirdilər. 8 ay bu şəhərdə yaşamışam və Ağsunu Ağdam qədər, Ağcabədi qədər doğma bilirəm. 47 illik jurnalistika təcrübəmdə də Ağdamın, Ağcabədinin zərərinə bir yazı yazmadığım kimi, Ağsunun da zərərinə yazı yazmamışam. Onların hörmətini, orda yediyim çörəyi itirmək istəməmişəm.*

*Müəllim işləyərkən başıma gələn bir hadisəni bir daha oxuculara xırdalamaq istəyirəm.*

*Mən 8-ci sinfə dərs deyirdim. Bir gün məktəb direktoru Nadir müəllim dedi ki, 10-cu sinifdə müəllim dərsə gəlməyib, get onu əvəz elə. Mən də getdim. Mənim 22 yaşım var, bir balaca boyum var, bir şilləlik canım var, 10-cu sinfin şagirdlərinin bəziləri məndən boylu-buxunluydu.*

*Müəllim dərs demək istəməyəndə adətən jurnalı yoxlayır, vaxtı ötürmək üçün. 40 uşağın adını oxuyursan, Məmməd - burda, Ləman - burda və sair və ilaxır, bir on dəqiqə vaxtını belə öldürürsən. Sonra da durub bir az ordan-burdan danışırsan və sair və ilaxır.*

*Təbii ki, mənim də dərs demək həvəsim yoxdu, başladım jurnalı oxumağa. Bir adı oxuyuram, cavab gəlmir, ikinci dəfə oxuyuram, yenə cavab gəlmir. Üçüncə dəfə oxuyuram, yenə cavab gəlməyəndə "qayıb" yazmaq istəyəndə bir oğlan durdu üstümə bir gərnəşdi, ironiya ilə məni süzdü və dedi:*

*- Burdayam.*

*Uşaqlar gülüşdü. Çıxartdım lövhənin önünə. Dedim ki, oğul, bu nə hərəkətdi?*

*Dedi:*

*-Xoşun gəlmir?*

*Dedim ki, xoşum gəlmir. Və onu saldım sillənin altına. Eşşək sudan gələnəcən, heç demə Ağsuda da eşşək sudan gec gəlirmiş, onu çırpdım. Sonra da bir təpik vurub sinifdən çıxartdım.*

*Üstündən on dəqiqə keçməmiş aləm dəydi bir-birinə.*

*Məktəbin direktoru Nadir müəllim:*

*- Sən neyləmisən? Səni tutacaqlar, məni də işdən çıxaracaqlar.*

*Az keçmədi, maarif müdiri Nahidə xanım zəng elədi ki, dərhal o müəllimi işdən azad edin və sair və ilaxır. Mən isə baxıram, heç vecimə də deyil, cəhənnəmə məni qovacaqlar, Nadir müəllimi də işdən çıxaracaqlar, nə bilim Nahidə xanıma da töhmət verəcəklər.*

*Və məlum oldu ki, döydüyüm şagird rayon prokurorunun oğludu. Bilmirdim, amma rayon prokurorunun yox, lap katibin də oğlu olsaydı elədiyi hərəkətə görə onu eşşək sudan gəlincə döyərdim.*

*Tezdən dedilər ki, səni prokuror çağırır. Durdum getdim. Prokuror bir ağsaqqal adam idi. Dedi ki, otur, oğul. Çay gətirtdi. Mən də fikirləşirəm ki, yəqin indi milis çağıracaq, məni aparacaqlar. Soruşdu kimsən, haralısan. Kimlərdənsən. Dedim ağdamlıyam, təyinatla gəlmişəm, burda müəllim işləyirəm.*

*Dedi:*

*- Səndən sonra oğlumu mən də döymüşəm ki, niyə müəllimi o həddə çatdırmısan ki, səni belə döyüb. Hələ iki-üç gün dərsə gələ bilməyəcək. Oğul, onun elədiyi kobudluğu mənə bağışla. Bir problemin olsa da burda qəribsən, mən də sənin əmin, istədiyin vaxt qapım üzünə açıqdı. Mən bu sözləri Maarif müdirinə də demişəm, məktəbin direktoruna da.*

*Üstündən 46 il keçir. Həmin döydüyüm şagirdlə sonradan qohum da olduq, bizlərdən qız da aldı. Və məni hər dəfə görəndə deyir ki, məllim, onda məni yaman döydün ha. İndi iş adamıdı, hörmət sahibidi. Və bəlkə mənim onun belə hörmətli olmağında sillələrimin də rolu var.*

*Belə kişilər olub ey. Bəlkə də həmin vaxt həmin prokuror elə addım ata bilərdi ki, Azərbaycan bir ziyalısından, bir yazıçısından məhrum da ola bilərdi. Amma atmadı o addımı, böyüklük göstərdi.*

*İndi isə müəllimin bir balaca tənbehinə görə onu linç etməyə hazırıq.*

*Mövzunu davam etdirəcəyik.*

# Süni bahalaşmanın qarşısı alınır



**Unun və çörəyin qiyməti artandan sonra bəzi işbazlar süni surətdə həmin məhsulları baha qiymətə satırlar. Təbii ki, hökumət süni qiymət artımının qarşısını almaq üçün davamlı olaraq ciddi tədbirlər həyata keçirir. Bu cür tədbirlər istər-istəməz qaz vurub qazan doldurmaq istəyənlərin qarşısını alır. Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi və Qida Təhlükəsizliyi Agentliyi süni bahalaşma ilə əlaqədar olaraq hər gün ölkəmizdə monitorinqlər keçirir. Bu monitorinqlər zamanı aşkar olunan nöqsanlar elə həmin gün də aradan qaldırılır.**

Xüsusən də əyalətlərdə unun və çörəyin satışında süni qiymət artımına daha tez-tez yol verilir. Buna görə də adını çəkdiyimiz qurumlar həmin yerlərdə də öz müşahidələrini davam etdirir, mövcud nöqsanlar aşkarlanır, süni bahalaşmaya yol verən hüquqi, fiziki və vəzifəli şəxslər məsuliyyətə cəlb olunurlar.

# Öz soğanımız qalıb çürüyür, xaricdən soğan gətirirlər



**Qəribə olsa da, deyəcəyik; bu gün ölkəmizin regionlarında 100 tonlarla soğan anbarda qalıb, onun bazarı tapılmır. Daha doğrusu, soğanı əkib-becərən adamlar deyiblər ki, qardaş, 100 tonlarla soğanımız əlimizdə qalıb, heç gəlib bizdən 15-20 qəpiyə də alan yoxdur. İlboyu çəkdiyimiz əziyyət hədər gedir. 10-15 günə o soğanları satmasaq, hamısı məhv olacaq. Ona görə də biz əlaqədar qurumlardan kömək istəyirik. Xüsusən də Ağdamda, Bərdədə sahibkarlar soğanın satılmamasından və anbarda qalıb çürüməsindən çox gileylənirlər. Onlara isə heç bir qurum kömək göstərmir.**

Amma bəzi işbazlar İrandan və o cümlədən, xarici ölkələrdən keyfiyyətsiz soğan gətirib camaata sırıyırlar. Özümüzün ucuz və keyfiyyətli soğanlarımız anbarlarda qalıb, xaricdən gətirilən zəhər kimi acı soğanlar od qiymətinə satılır. Hansı ki, yerli istehsal həmişə xaricdən gətirilən bostan və tərəvəz məhsulundan daha keyfiyyətlidir. Bütün ölkələrdə daxili bazar qorunur. Əvvəlcə yerli istehsal satışa çıxarılır, sonra bu azlıq edirsə, xaricdən məhsul idxal edilir. Amma bizdə isə çox təəssüf ki, daxili bazarı qoruyan yoxdur, bu yerli məhsullar anbarda qalıb çürüyür. Bu isə ilboyu kəndlinin çəkdiyi zəhmətin hədər getməsi deməkdir.

**Emil FAİQOĞLU**

# Fikrət Dünyamalıyev: "Qələbənin bir parçası olduğum üçün xoşbəxtəm"

*"Bir anlıq ayağım boşluğa keçdi və dərin bir quyuya yıxıldım. Döyüş yoldaşlarım hərə bir yerdə mövqe tutub səpələndiyi üçün heçkimin xəbəri olmadı" deyə müharibə veteranı bu barədə ətraflı söhbət açdı.*

*Bu dəfəki müsahibim İİ Qarabağ müharibəsi veteranı, geoloq Dünyamalıyev Fikrətdir. O Fikrət ki, müharibədən, qandan qorxmayıb düşmənin gözünün içinə baxdı, O Fikrət ki, canı bahasına döyüşdü və hətta ön cəbhədə ikən quyuya düşərək günləri orada ac - susuz keçdi. Kimsə kömək etmədiyi halda o quyudan özü çıxa bilib. Və məhz Vətənpərvərvərliyi, şücaəti sayəsində hətta müharibədən sonra belə yolunu Qarabağdan salıb. Elə isə təfərrüatlarını özündən alaq.*

**- Fikrət, xoş gəmisiniz, ilk sualı belə vurğulamaq istəyərdim ki, Fikrət kimdir?**

- Xoş gördük. 1994-cu ildə Bakı şəhərində anadan olmuşam. 2015 - ci ildə Bakı Dövlət Universitetini bitirib " Geologiya mühəndisliyi " ixtisasına yiyələnmişəm. Elə həmin il hərbi xidmətə yollanmışam. Hərbi xidmətim aprel döyüşlərinə təsadüf edib. Həm aprel döyüşlərinin, həm də Vətən müharibəsinin canlı şahidi və iştirakçısıyam. Hazırda mühəndis geoloq kimi çalışıram.

**- Necə oldu Qarabağ döyüşlərində iştirak etmək qərarına gəldin? Axı nəticədə sağ qalmamaq ehtimalı da var idi.**

- Hər bir Azərbaycan vətəndaşı kimi mənim də vətən, xalq qarşısında olan mənəvi borcum idi. Həqiqi hərbi xidmətim zamanı yiyələndiyim ixtisasla əlaqədar müharibə ərəfəsində təlimlərə cəlb olundum. Müharibə başlayan kimi isə döyüş meydanına yollandım. İllərin həsrətinə son qoyuldu. Torpaqlarımız düşmən tapdağından azad edildi. Bu qələbənin bir parçası olduğum üçün xoşbəxtəm.

**- Bildiyim qədərilə ön cəbhədə vuruşurdunuz. Hansı hissləri keçirirdininiz?**

- Bu daha çox hislərin növbələşməsi idi. Bəzən sevinc, bəzən fəxarət, bəzən kədər. Sevinirdik ona görə ki, addım addım qələbəyə yaxınlaşırdıq. Fəxr edirdik ona görə ki, bizim də bu qələbədə payımız var idi, kədərlənirdik ona görə ki, hər bir döyüşçü bir ailənin üzvü idi və ön cəbhədə olduğumuz üçün onların itkisilə yüzlərlə ailənin faciəsinə şahid olurduq. Allahdan bütün şəhidlərimizin ailələrinə, yaxınlarına səbr diləyirəm.

### *"Sanki elə doğulandan odun alovun, mərmi səslərinin icindəymişəmmiş kimi bir hiss var idi içimdə"*

**- Ailəniz üçün, sevdikləriniz üçün darıxırdınızmı?**

- Çox qəribə hisslər idi, bəlkə də o hissləri tam olaraq sözlə ifadə edə bilmərəm, amma döyüşdə olan zaman günlər keçdikcə eləbil yaxınlarım hafizəmdən vizual olaraq silinirdi. Hərdən heç xatırlaya bilmirdim üzləri, səsləri. Duyğularım yox olmuşdu, içimdə sadəcə döyüşərək torpaqlarımızı geri qaytarmaq əzmi var idi, başqa heç bir şey hiss edə bilmirdim. Sanki elə doğulandan odun alovun, mərmi səslərinin icindəymişəmmiş kimi bir hiss var idi içimdə. Ona görə bəzən darıxmaq hissini belə unudurdum.

**- Döyüş sizə nəyi öyrətdi?**

- Döyüş mənə bir yerdə yediyin, içdiyin, öyrəşdiyin insanların ağır da olsa itkisi ilə barışmağı, soyuqqanlılığı, ölümün göz ilə qaş arasında olduğunu öyrətdi. Sonuncunu hər zaman bilsək də onu yaşamaq tamam ayrı məsələdir.



**- Müharibədən öncəki Fikrətlə müharibədən sonrakı Fikrət arasında nə fərq var?**

- Deyərdim ki, fərq çoxdur. Səbrsiz, aqressiv, soyuqqanlı və bir də atdığı addımlarda daha da cəsarətli olan bir Fikrət yaratdı müharibə.

**- Sağ qalacağına inanırdınızmı?**

- Düzünü desəm günlər keçdikcə yox. Hər an növbənin mənə çatacağını düşünürdüm. Rus ruleti kimi. Fırlanır, fırlanır və birdən güllə açılır. Amma ətrafımda qəhrəmanlıq göstərib şəhid olan qardaşlarımı gördükcə bu mənə qorxulu gəlmirdi.

### *Erməni qan gördü...*

**- Tarixin canlı şahidi olmaqla birgə həm də tarixi yazanlardan oldunuz. Maraqlıdır, xüsusi yaddaqalan bir əməliyyat xatirinizdə qalıbmı?**

- Füzulidə bir ərazi var idi. Kəndin adını xatırlamıram. Bizim önümüzdəki bölmənin olduğu səngəri tank əleyhinə raketlə vurdular. Sonra isə diversiya qüvvələri olduğumuz mövqeni geri almaq üçün hücuma keçdi. Atışma zamanı biz onları geri oturtmağa müvəffəq olduq və yüksəkliyi qoruyub saxladıq.

**- Düşmən barəsində nəyi bilirdiniz?**

- Düşmənin çox hiyləgər və eyni zamanda çox qorxaq olduğunu deyə bilərəm. El arasında belə bir deyim var: " erməni qan gördü " həqiqətən də elə bir mundar məxluqdurlar ki, qan görən kimi geri cəkilirdilər.

**- Ac, susuz quyuda necə keçdi günləriniz?**

- Biz mühasirəyə düşmüşdük. Mühasirəni yarmaq üçün hərə müxtəlif yerdə mövqelənməli idi. Biz neytrala girmişdik. Həmin əraziyə düşmənin artilleriya zərbələri dayanmırdı. Əraziyə düşmənin çoxlu sayda piyada qrupu gətirilmişdi.

Mövqe tutmaq üçün yaxınlığımda olan səngərə doğru hərəkət edərkən bir anlıq ayağım boşluğa keçdi və dərin bir quyuya yıxıldım. Döyüş yoldaşlarım hərə bir yerdə mövqe tutub səpələndiyi üçün heç kimin xəbəri olmadı. Çiynim, dizim əzildiyi üçün bir müddət hərəkət edə bilmədim. Ağrım var idi. Kömək üçün də qışqıra bilməzdim. Çünki ərazidə düşmən əsgərləri də var idi. Bir gün yarım ac susuz həmin yerdə qaldım ta ki, özümü toparlayana kimi.

### *İllərlə həsrətini cəkdiyimiz torpağın üstündə yatırdıq*

- Özümü toparlayandan sonra ordan çıxmaq üçün bir neçə dəfə cəhd etdim. Amma cəhdlər uğursuz oldu. Həmin günlər yağış yağdığı üçün torpaq sürüşkən idi və " botinka ilə " qalxmaq mümkün deyildi. Qərar verdim ki, divarı bıçaqla qazıyıb pilləkən düzəldim və " botinkanı " çıxarıb qalxım. Dəfələrlə cəhd etdikdən sonra çətinliklə də olsa bacardım. Qaranlıq düşməyini gözləyib səslərə qulaq asa - asa bölmələrimizin olduğu istiqamətə getdim. Döyüş yoldaşlarım gözlərinə inanmırdı. Hətta mən və bir neçə döyüş yoldaşımın şəhid olduğunu düşünürdülər. Onlar da şükürlər olsun ki, sağ - salamat qayıtdılar.

**- Əsgərlər harada yatırdı, nə yeyirdilər?**

- Müharibə vaxtı yatmaq deyilən birşey yox idi. Sadəcə növbəli şəkildə qısa müddətli istirahət edirdik. Hər an ayıq sayıq olmalı idik. Döyüşçünün də istirahət etdiyi yer tutduğu mövqe idi. Hansi ərazi hansı yüksəklik azad olunurdusa ora. İllərlə həsrətini cəkdiyimiz torpağın üstündə yatırdıq. Bəzən çətinliklərimiz olurdu, yollar vurulduğu üçün yemək, su təminatı çətinləşirdi. Amma çətinlik olsa da təmin olunurduq.

**- Bu gün nəyə ehtiyacınız var? Kimlərsə sizə dəstək ola bildimi?**

- İnsan şükür etməyi bacarmalıdır. Şükür ki, sağ - salamat ailəmizin yanındayıq. Cənab prezidentimiz tərəfindən Şuşanın və Füzulinin azad olunması medalları ilə təltif olunmuşam. Buna görə ölkə başçımıza minnətdarlığımı bildirirəm. Allahdan qazilərimizə də şəfalar diləyirəm. Ümid edirəm hər biri dövlətimizin qayğısı nəticəsində yenidən öz sağlamlıqlarına qovuşacaqlar.

**- Necə oldu döyüşdən sonra da müharibə olan istiqamətlərə yollandın?**

- İşimlə əlaqədar Zəngilan rayonuna ezam olunmuşdum. Müharibə zamanı həmin istiqamətdə döyüşmədiyim üçün mənə oranı da görmək maraqli idi. Bulaqlarından su içdim, təbiəti ilə tanış oldum. İllər boyu gözəl, səfalı təbiəti olan ərazilərimiz düşmən tapdağı altında idi. Torpaqlara qovuşmaq, onları gəzmək tamam başqa hissdir.

**- Ailənizdə vəziyyət necədir?**

- Ailəmiz 4 nəfərdən ibarətdir. Atam, anam, qardaşım və mən. Allah qismət edərsə sevib seçdiyim xanımla ailə qurmağı düşünürəm. Onu da qeyd edim ki, ailədə heç kim hərb sahəsi ilə məşğul deyil və hesab edirəm ki, Vətən, ayağını basdığın torpaq da sənin ailəndir.

**- Gələcəkdə övladlarınız olarsa onlara müharibədən danışardınızmı, nələr danışardınız?**

- Təbii ki, bu silinməz bir tarixdir. Bu tarix qanla yazıldı, canla yazıldı. Biz illər boyu istəmişik ki, torpaqlarımız sülh yolu ilə qayıtsın. Amma düşmən buna imkan vermədi. Bizi məcbur etdi ki, bizim olanı zorla onlardan geri alaq. Müharibə dəhşətdir. Amma məsələ vətəndirsə gerisi təfərrüatdır. Necə deyərlər, torpaq qanla qarışanda Vətən olar. Gələcək nəsil üçün sülh və əmin - amanlıq olan bir dünya arzu edirəm. Hecbir ailə övlad, yoldaş, ata acısı yaşamasın.

**- Son olaraq cəmiyyətə, oxucularımıza nə demək istəyərdiniz?**

- Cəmiyyətə sözüm budur ki, illərlə biz Qarabağ məsələsində haqlı tərəf olmuşuq. Haqlı olduğumuz üçün də gectez qalib gəldik. Hər bir insana haqlı mövqedə durmağı arzu edirəm. Haqq öz yerini hər zaman tapır.

**Söhbətləşdi:**
**Şəlalə CAMAL**
**(AJB -nin üzvü)**

*Maya Quliyeva*

# Hərbçilərin bir çox problemləri qaydasına düşməyib



**Deməli Vətən müharibəsindən sonra ortaya çıxan bir çox problemlərdən biri də azad edilmiş ərazilərə dislokasiya olunmuş hərbi hissələrin şəxsi heyyəti ilə bağlıdır. Özü də çox ciddi problemdir.**

**Onlar canları , qanları bahasına Vətəni Azad etdilər . Amma il yarım keçməsinə baxmayaraq hələ də azad etdikləri torpaqlarda xidmət aparan hərbçilərin bir çox problemləri qaydasına düşməyib.**

**Torpaqar işğaldan azad edildi. İşğalda olan Vətən torpağının azad olunması orada yaşamayan insanlar üçün belə böyük sevinclə qarşılandı . (Artıq kimlər niyə sevindilərsə ... )**

**Hərbi qulluqçular isə komendant postunda hələ də ciddi çətinliklər yaşayırlar .**

**İlk vaxtlar minik maşını olan hərbçilər şəxsi maşınları ilə işə keçə bilirdilər. Amma özlərinə bəlli səbəbdən , tez də bu güzəşt ləğv edildi.!!! Buna da çox səbəb gətirmək onlar ...**

**Amma artıq gedən gedib , daşınan daşınıb , gətirən də artıqlaması ilə gətirib deyə mə'lum olanları təkrarlamaqla sizi yormaq istəmirəm .**

**İstirahət buraxılışından dönərkən xidmət yerinə getmək üçün hərbi qulluqçular saatlarla maşın gözləməlidir. Hətta gecə saatlarında təcili toplanış əmri olduqda gəlib Hərbi Hissəyə də yetişə bilmirlər . Problemin aradan qaldırılması cəmi bircə mərhələdə işlənildi.**

**Hansı ki , ilk günlər olan o keçidlər zamanı çox az sayda hərbi qulluqçuların minik maşını portala salınsa da növbəti mərhələ tamamilə dayandırıldı.**

**Bu gün sabah , sabah biri gün , deyədeyə yalançı vədlər verməklə yazıq Hərbiçilərə il yarımdır psixoloji əzab verilir . Bu da hazırda düşmənlə üzbəüz xidmət edən hərbçilərin kütləvi narazılığına səbəb olur.**

**Bakıda , Qəbələdə , Gəncədə , Qax və digər böyük şəhərlərdə yaşayanlar üçün bənd - bənd yazıram .**

**- bir hərbçi xidmət etdiyi bölməyə getmək üçün saatlarla komendant postlarında gözləməyə məhkum olur . Halbu ki, öz maşını ilə gedib gələ bilmə şansı var. Ancaq maşınlardan portal tələb olunması buna mane olur.**

**Məsələyə digər tərəfdən yanaşsaq ağır nəticələr görə bilərik:**

**- gecə saatlarında Ağdamın ucqar kəndlərində xidmət edən hərbi qulluqçunun ailəsində hər hansısa bir hadisə baş verərsə , o vaxtında evinə çatıb buna müdaxilə edə bilmir;**

**- hərbi qulluqçu xidmətdən evinə gedəndə ana yola çıxmaq üçün ;**

**- komendant postundan təxmini rast düşən minik onun xidmət apardığı posta yaxın getməyə bilər ki , bu halda da bəzi yerlərdə 10 kilometrlərlə yolu piyada qət etməlidir ;**

**- hərbi maşında hər hansısa bir nasazlıq yaransa və ərazidə xəstə , yaralı olsa onu aidiyyatı üzrə təyinat nöqtəsinə aparmaq mümkün olmayacaq və s.**

**Bir daha vurğulayım ki, bütün bunların başında yuxarıda qeyd etdiyim problem durur. Əgər hərbi qulluqçular üçün bu şərait yaradılsa, oradakı çətinliklərin və narazılıqların demək olar ki, 70% öz həllini tapacaq.**

**p.s - Yazıq Hərbiçilər bilsələr ki , onların işğaldan azad etdikləri torpaqlara gedən avtobuslarda yer olacaq , heç öz maşınlarını o tə'mirsiz yollarda sürmək eşqinə düşməzlər . Aldıqları maaşla bunun benzinini , təkərləri , xadavoyu , və sairələri nəzərə alsaq , bir kişi ikinci həyat yoldaşı sayılan maşınını o yollara qurban verməz .**

**Ümid edirəm maraqlanan olacaq.**

# Qoruğun mühafizə rejimini pozanlar cəzalandırıldı



**Korçay Dövlət Təbiət Qoruğunun əməkdaşlarının keçirdiyi nəzarət tədbirləri zamanı Qoruğun mühafizə rejimini pozan şəxslər saxlanılıb.**

Bunu Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Arzu Səmədova bildirib.

O qeyd edib ki, araşdırma zamanı qanun pozucularının Daşkəsən rayon sakinləri Elnur Şadiyev və Mirzəli Orucov olduğu müəyyən edilib:

"Mühafizə rejimini pozan təqsirkar şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb".

# 700 MİNLİK DƏLƏDUZLUQDA TƏQSİRLƏNDİRİLƏN ŞƏXSLƏRƏ NECƏ BƏRAƏT VERİLDİ?

**İki il əvvəl Bakı Ağır Cinayətlər Məhkəməsinin 700 minlik dələduzluqda təqsirləndirilən İlham Xıdırova və Nazim Mustafayevə çıxardığı hökm zərərçəkənləri tam qane etməsə də, az qala bütün aparıcı KİV bu hadisəni ədalət mühakiməsinin qələbəsi kimi təqdim etmişdi. İttihama görə, İ.Xıdırovla N.Mustafayev Rusiyadan kompressor avadanlıqları gətirib satmaq adı ilə bir neçə şəxsdən, o cümlədən, həm də öz qohumlarından külli miqdarda pul alaraq onlara qazanc verəcəklərini vəd edib, lakin həmin şəxsləri aldadıblar.**

Amma məlum olanda ki, məhkəmənin hökmü ilə 9 il 6 ay müddətinə azadlıqdan məhrum edilmiş həmin şəxslər - İ.Xıdırov və 5 il iş kəsilmiş N.Mustafayev çox keçmədən bəraət alıb azadlığa çıxıblar, o halda istər-istəməz sual yaranır: Görəsən, hansı səbəblər məhkəmənin məsələyə yanaşmasını 180 dərəcə əks istiqamətə dəyişib?

Zərər yetirənlər dörd və daha artıq sayda üzvü olan mütəşəkkil dəstədir

İş üzrə ən böyük zərərə məruz qalan şəxs Bakı şəhər sakini Muradlı Elxan Rafiq oğlu redaksiyamıza müraciət edərək bildirib ki, CM-nin 178.3.2-ci maddəsi ilə Bakı Ağır Cinayətlər Məhkəməsinin 19 fevral 2019-cu il tarixli hökmü ilə (İş № 1(101)-108/2019) məhkum edilmiş və sonradan bəraət almış Xıdırov İlham Kərim oğlu və Mustafayev Nazim Rafiq oğlu, eyni zamanda Samir İlham oğlu Xıdırov, Zaur Sarvan oğlu Əliyev və digərləri qabaqcadan əlbir olaraq onun xüsusulə külli məbləğdə vəsaitini, 620 000 (altı yüz iyirmi min) ABŞ dollarında, alınan günü rəsmi məzənnəsi ilə toplam olaraq 610 299 AZN vəsaitini iş görmək adı altında dələduzluq yolu ilə almış və öz şəxsi məqsədlərinə xərcləmişlər.

E.Muradlı istintaqa verdiyi ifadələri xatırladaraq bildirib ki, Nazim Mustafayev onun rəhbəri olduğu "ATE Construction" MMC-də işçi olub. Həmin vəsaiti Nazimin onu tanış etdiyi İlham Xıdırovun şəxsən özünə və adları çəkilən digər şəxslərin vasitəsilə 22.12.2014-ci il tarixdən 11.01.2016-cı il tarixədək müxtəlif vaxtlarda hissə-hissə vermişdir. Pullar ondan kompressor avadanlıqlarının alqı-satqısı adı ilə alınsa da, həmin şəxslər pulları öz şəxsi məqsədlərinə sərf etmişlər:

***"Ali Məhkəmənin Cinayət Kollegiyasının 10.02.2021-ci il tarixli, 1(102)-154/2021 saylı Qərarında Bakı Yasamal rayon Məhkəməsinin 17.04.2018-ci il tarixli, 2(004)-2028/2018 saylı Qətnaməsinə istinad edilərək təqsirləndirilən şəxslərin əməllərinin sübutlarının kifayət qədər olmaması qənaətinə gəlməsi başa düşülən deyil. Belə ki, İlham Xıdırov və Nazim Mustafayevin Bakı Ağır Cinayətlər Məhkəməsinə məndən pulları almaları haqda kifayət qədər etiraf ifadələri öz əksini məhkəmənin 19 fevral 2019-cu il tarixli, 1(101)-108/2019 saylı Hökmündə tapmışdır. Hətta İlham Xıdırov ifadəsində bildirmişdir ki, "Elxana olan borcundan imtina etmir, həmin pulları ödəyəcəkdir". Nazim Mustafayev də öz ifadəsində Zaur Əliyevin təşkilatçı olduğunu təsdiq etmişdir. Bakı Ağır Cinayətlər Məhkəməsində ifadə verən Zaur Əliyev isə bildirmişdir ki, o, "müxtəlif adamlardan pul alıb başqa şəxslərə verməklə" məşğul olubdur və bu yolla da pul qazanıbdır, fəaliyyətində Elxan kimləri çox olubdur. Deməli, N.Mustafayev, İ.Xıdırov, S.Xıdırov və Z. Əliyev sabit mütəşəkkil dəstə kimi fəaliyyət göstərmişlər".***

E.Muradlı hesab edir ki, məhkəmə aşkar saxtakarlığa və onu sübut edən dəlillərə göz yumub. Bütün bunlar barədə bir az sonra. Hələliksə...

### *Prosesin təsviri*

İttihama görə, Xıdırov İlham Kərim oğlu həmçinin etibardan sui-istifadə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə məqsədi və tamah niyyəti ilə etibarlarından sui-istifadə edib neft kompressorları biznesi ilə məşğul olub qazanc verəcəyi adı ilə yalan vəd verib aldadaraq, vahid niyyətlə əhatə olunmuş qəsdlə 2015-ci ilin mart-aprel aylarında qohumu (qardaşının baldızı) Famılə Xudum qızı Cəfərovanın bir neçə dəfəyə ümumilikdə həmin dövrün məzənnəsi ilə 29503,6 manat təşkil edən 28000 ABŞ dolları pulunu, eyni üsul, məqsəd və niyyətlə tanışı Abdullayeva Gülnaz Süleyman qızının 2015-ci ilin aprel və oktyabr aylarında iki dəfəyə 12000 və 13000 ABŞ dolları pulunu alıb ələ keçirərək ümumilikdə xeyli miqdarda, yəni, 26245,9 manat ziyan vuraraq dələduzluq etmişdir. Öz qardaşı oğlu Xıdırov Elxan Rövşən oğluna da eyni vədi verərək ümumilikdə 50000 ABŞ dolları pulunu alıb ələ keçirərək, ona külli miqdarda, həmin dövrün məzənnəsi ilə 52480 manat ziyan vuraraq dələduzluq etmişdir.

***Xıdırov İlham Kərim oğlu və Mustafayev Nazim Rafiq oğlunun barələrində Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 08 dekabr 2017-ci il tarixli qərarına əsasən, həbs qətimkan tədbiri seçilmiş və Penitensiar Xidmətin Bakı İstintaq Təcridxanasında saxlanılmışlar. Xətai Rayon Məhkəməsinin 11 yanvar 2018-ci il tarixli qərarına əsasən Nazim Mustafayevin həbs qətimkan tədbiri ev dustaqlığı qətimkan tədbiri ilə əvəz edilmiş və həmin tarixdə həbsdən azad olunmuş, Bakı Ağır Cinayətlər Məhkəməsinin 28 avqust 2018-ci il tarixli qərarına əsasən ev dustaqlığı qətimkan tədbiri qüvvədə saxlanılmışdır.***

Bakı Ağır Cinayətlər Məhkəməsi 19 fevral 2019-cu il tarixdə İlham Xıdırovun və Nazim Mustafayevin AR Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə təqsirləndirilmələrinə dair cinayət işinə açıq məhkəmə iclasında baxaraq, çıxardığı hökmlə onları həmin maddə ilə nəzərdə tutulmuş cinayət əməlini törətməkdə təqsirli bilmiş, İlham Xıdırovu 9 il 6 ay, Nazim Mustafayevi 5 il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum etmişdi. Zərərçəkmiş şəxs - mülki iddiaçı Muradlı Elxan Rafiq oğlunun cavabdehlərə qarşı mülki iddiaları qismən təmin olunmuş, Xıdırov İlham Kərim oğlundan 563549 manat, Mustafayev Nazim Rafiq oğlundan 46765 manat tutularaq Muradlı Elxan Rafiq oğluna ödənilməsi hökmdə öz əksini tapmışdı. Digər zərərçəkmiş şəxslərə gəldikdə isə, onlara vurulmuş maddi ziyanla bağlı mülki mühakimə icraatı qaydasında məhkəməyə müraciət etmək hüquqlarının olması izah edilmişdi. Bundan başqa, məhkəmə hökm etmişdi ki, həmin iş üzrə Sumqayıt şəhər məhkəməsinin 20 fevral 2018-ci il tarixli qərarına əsasən üzərinə həbs qoyulmuş Xıdırov İlham Kərim oğluna məxsus Abşeron rayonu, Saray qəsəbəsi, Aşıq Ələsgər küçəsi, 12 saylı fərdi yaşayış evinin "Xalq Bank" ASC tərəfindən ipoteka ilə yüklü edilməsi və Abşeron rayon məhkəməsinin 09 oktyabr 2018-ci il tarixli qətnaməsinə əsasən, tutmanın ipoteka predmetinə yönəldilməsi nəzərə alınsın; Sumqayıt şəhər məhkəməsinin 20 fevral 2018-ci il tarixli qərarı ilə Xıdırov İlham Kərim oğluna məxsus Abşeron rayonu, Saray qəsəbəsi, Yeni məhəllə, 146 saylı fərdi yaşayış evinin üzərinə qoyulmuş həbs götürülsün.

***Hökmdən məhkum edilmiş şəxslərin müdafiəçiləri, eləcə də zərərçəkmiş şəxs Xıdırov Elxan Rövşən oğlu və zərərçəkmiş şəxs - mülki iddiaçı Muradlı Elxan Rafiq oğlu ayrı - ayrılıqda apellyasiya şikayəti vermişlər. Birincilər məhkumların əməllərində cinayət tərkibi olmadığını hesab etdikləri üçün Bakı Ağır Cinayətlər Məhkəməsinin məlum hökmünün ləğv edilməsini, onların barəsində bəraət hökmünün çıxarılmasını xahiş etmişlər.***

Zərərçəkmiş E.Muradlı Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasından xahiş etmişdi ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin 19 fevral 2019-cü il tarixli Hökmündə dəyişiklik edilərək, İlham Xıdırova və Nazim Mustafayevə daha ağır cəza təyin edilməsi və özünün mülki iddiasının tam həcmdə (əsas məbləğ 620 000 ABŞ dolları və bu müddət ərzində əldən çıxmış fayda olaraq 360 000 ABŞ dolları məbləğləri) təmin edilməsi barəsində qərar qəbul edilsin; hökmdə göstərilən kimi, ona vurulan ziyanın Azərbaycan manatı ilə deyil, ABŞ dollarında göstərilməsi və vurulan ziyanın tərəflər arasında bölünməyərək dəstə üzvləri tərəfindən tam həcmdə ödənilməsi haqda qərar qəbul edilsin; eləcə də cinayət əməlinin təşkilatçısı olan Əliyev Zaur Sarvan oğlunun istintaqa cəlb edilməsi haqda xüsusi Qərardad çıxarılsın.



Zərərçəkmiş Xıdırov Elxan Rövşən oğlu da apellyasiya şikayətində Xıdırov İlham Kərim oğluna daha ağır cəza təyin olunmasını, İlhama məxsus Abşeron rayonu, Saray qəsəbəsi, Yeni məhəllə, 146 saylı fərdi yaşayış evinin üzərinə yenidən həbs qoyulmasını xahiş etmişdi.

***Lakin Bakı Apellyasiya Məhkəməsi 31 may 2019-cu il tarixli (İş № 1(103) 587/2019) Qərarı ilə apellyasiya şikayətlərinin heç birini təmin etməmişdi. Sonra Bakı Ağır Cinayətlər Məhkəməsinin 19 fevral 2019-cu il tarixli hökmü ilə Xıdırov İlham Kərim oğlunun AR CM-nin 178.3.2-ci maddəsi ilə məhkum edilməsinə dair cinayət işi üzrə Bakı Apellyasiya Məhkəməsinin 31 may 2019-cu il tarixli qərarından məhkumun müdafiəçisi Ali Məhkəmənin Cinayət Kollegiyasına kassasiya şikayəti vermişdir. Maraqlıdır ki, Ali Məhkəmənin Cinayət Kollegiyası 10.02.2021-ci il tarixdə kassasiya şikayətini qismən təmin edərək Bakı Apellyasiya Məhkəməsinin Xıdırov İlham Kərim oğlu barəsində olan 31 may 2019-cu il tarixli qərarını ləğv etmiş, cinayət işinin apelyasiya məhkəməsində yeni məhkəmə baxışına təyin edilməsi barədə qərar çıxarmışdır.***

Öz növbəsində Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası 14.12.2021-ci il tarixdə çıxardığı yeni Hökmlə Ali Məhkəmənin Mülki Kollegiyasının qərarından irəli gələn tələbləri artıqlamasıyla yerinə yetirmişdir. Yeni hökmlə Xıdırov İlham Kərim oğlunun və Mustafayev Nazim Rafiq oğlunun apellyasiya şikayətləri təmin olunmuş, onlara bəraət verilərək, dərhal məhkəmə iclası zalında həbsdən azad olunmuşlar.

Apellyasiya şikayətləri təmin olunmayan zərərçəkmişlər Muradlı Elxan Rafiq oğlunun və Xıdırov Elxan Rövşən oğlunun verdikləri mülki iddiaları baxılmamış saxlanılmışdır.

### *Aşkar saxtakarlıq faktlarına hüquqi qiymət verilməyib*

E.Muradlının redaksiyaya göndərdiyi müraciətnaməsinə qoşma etdiyi sənəd surətləri arasında onun İlham Xıdırovla 22 iyun 2015-ci il tarixində Nazim Mustafayevin iştirakilə imzalamış olduqları "Birgə Fəaliyyət Müqaviləsi", "nağd pulun təhvil-təslimi haqda Akt" və "Kassa məxaric orderi" vardır. Həmin sənədlərdə E.Muradlının İ.Xıdırova həmin tarixə qədər toplam olaraq verdiyi cəmi məbləğ 480 000 ABŞ dolları göstərilmişdir. E.Muradlı sonradan İlhamgilə verdiyi pulları aldıqlarının təsdiqi məqsədilə 05 mart 2017-ci il tarixli Üzləşmə Aktı tərtib edərək tərəflərə könüllü olaraq imza etdirmişdir. Aktda İ.Xıdırov özü həmin tarixə E.Muradlıya 510 000 ABŞ dolları borcu olduğunu hesablayıb yazmış və digərləri də imzaları ilə təsdiqləmişlər. Elxan Muradlı imzalanma mərasimini təhlükəsizlik məqsədilə telefonuna yazmış, sonradan Bakı Şəhər Baş Polis İdarəsinə şikayət etdiyi vaxt istintaqa təqdim etmişdir:

***"2016-cı ilin yanvar-fevral aylarında Samir və İlham Xıdırovlar mənimlə dəfələrlə gəlib görüşdülər və əlavə olaraq məndən 142500 ABŞ dolları tələb etməyə başladılar. Hətta Samir məni təhdid edirdi ki, əgər pulu verməsəm, verdiyim pullar batacaq. İlham Xıdırov öz şəxsi e-mail ünvanından tələb olunan pulların təyinatı haqda məlumat göndərdi və guya mənim puluma gətirilən 11 ədəd kompressoru saxlanca verməklə göstərilən məbləği istədi. Mən bunların dələduz olduğunu başa düşdüyümdən və verilən pulları aldıqlarını öz imzaları ilə təsdiq etmələrini tələb etdim. 05.03.2017-ci il tarixində Bakı şəhəri, Həsən Əliyev küçəsində yerləşən ofisimdə İlham-Samir Xıdırovlar, Nazim Mustafayev və Zaur Əliyevin iştirakilə biz alınan-verilən pulların təsdiqi olaraq Üzləşdirmə Aktına imza etdik. Bunlar mənim puluma alınan 11 ədəd kompressoru aparıb dediyim yerə qoydular. Üzləşdirmə Aktına imza olunan günün səhərisi, 06.03.2017-ci il tarixində rəsmi ərizə ilə Bakı Baş Polis İdarəsinə şikayət etdim. Növbəti gün Zaur Əliyevlə Nazim Mustafayev yaşadığım binaya gəlmiş və məni axtarmağa başlamışlar. Mən yekunda Zaurun telefonunu götürüb bildirdim ki, son istədikləri pul verilməyəcək, onların dələduzluq niyyətləri mənə bəllidir, verilən pullarımı qaytarsınlar".***

E.Muradlı bildirir ki, İlham Xıdırov Qazaxıstan Respublikasında olanda oğlu Samir Xıdırov Yasamal rayon məhkəməsinə ona qarşı pul öhdəliklərinin saxlancda olan 11 ədəd kompressor avadanlığının 170 min ABŞ dolları məbləği ilə əvəzləşdirilməsi ilə bağlı iddia ərizəsi vermiş, Yasamal rayon Məhkəməsi 17.04.2018-ci il tarixli, 2(004) - 2028/2018 saylı Qətnaməsi ilə haqlı olaraq həmin əmlakların girov (ipoteka) predmeti olmadığı səbəbindən iddiaçının tələbinin təmin edilməsini rədd etmişdir:

***"İlham Xıdırovun Saray qəsəbəsində yerləşən evinin həyətində yerləşən 11 ədəd 305 VP 16/70 markalı guya "Borets" zavodunun istehsalı olan kompressor avadanlıqları 2014-cü ilin iyun-iyul aylarında Azərbaycana gətirilmiş və toplam gömrük dəyəri 30 511,16 AZN məbləğində bəyan edilərək ölkəyə idxal edilmişdir. Mən sonradan araşdırdım ki, "Borets" zavodu 2011-ci ildə fəaliyyətini dayandırıb. Adı, ünvanı, telefon nömrəsi bəlli Tula şəhər sakini ilə danışığım zamanı öyrəndim ki, İlham kompressorları ondan birini 3-7 min ABŞ dolları aralığında, ortalama 5 000 ABŞ dollarına almışdır. Samir Xıdırovun qeyri-qanuni hərəkətləri ilə kompressor avadanlıqlarına dəyərindən dəfələrlə artıq məbləğdə qiymət qoydurulmuş, bu zaman qiymətləndirici qəsdən aldadılmış, qiymətləndirmə proseduru düzgün həyata keçirilməmişdir. İlham Xıdırovun oğlu Samir Xıdırov "LaLaFo" köhnə məişət əşyalarının alqı-satqı saytına kompressor satışı elanı yerləşdirmiş və Qiymətləndici şirkəti aldadaraq 1 milyon AZN-dək süni qiymət artırılmaqla alış və bazar dəyərindən dəfələrlə yüksək qiymət qoyulmasına nail olmuş, sonradan həmin elanı silmişdir".***

Ali Məhkəmənin Cinayət Kollegiyası iş materiallarından belə nəticəyə gəlmişdir ki, İlham Xıdırov Elxan Muradlının qarşısında öhdəliklərini qismən yerinə yetirmiş, "birgə biznesdən əldə olunmuş mənfəət bərabər bölünmüş", ancaq daha sonra baş vermiş iqtisadi böhran, o cümlədən Qazaxıstandakı uğursuz kommersiya fəaliyyəti nəticəsində İlham Xıdırovdan asılı olmayan səbəblərdən öhdəlik tam yerinə yetirilməmişdir. Lakin Elxan Muradlı bununla razılaşmır:

"İlhamın Qazaxıstanda gördüyü işlərdən mənim xəbərim yox idi. Sonralar Nazim Mustafayev bildirdi ki, İlham məndən aldığı puldan 400 000 ABŞ dolları götürərək Qazaxıstana rels alverinə getmişdir. Bu işi o H.Əliyev adına Neft-Emalı Zavodunda nəqliyyat şöbəsində rəhbər vəzifədə işləyən yaxın bir qohumu vasitəsilə görür. Mən pulumun təcili qaytarılmasını tələb etdim, lakin İlham Qazaxıstanda idi. Oğlu Samir mənə bildirdi ki, atasının Qazaxıstanda işləri yaxşı gedir, narahat olmayım, uzağı 2016-cı ilin sentyabr ayına qədər qayıdıb mənim bütün pullarımı qaytaracaqdır. Mən Samirdən pullarımın kompressor alveri üçün alındığını deyəndə Samir məni sakitləşdirdi, bildirdi ki, "Sizin pula atam 25 ədəd kompressor gətirib" və 2016-cı ilin iyul-avqust aylarında yalandan məni apararaq "Ulduz" metrosunun yanındakı həyətdə Nəsib adlı digər şəxsə məxsus 14 ədəd kompressorları göstərdi ki, bunlar da Sizin pula gətirilib. Nəsib Bakı şəhər BPİ-də verdiyi ifadəsində bildirib ki, Samir ona alıcı kimi ora adam apardığını deyərək aldatmışdır, kompressorlar ona məxsusdur və Xıdırovlara heç bir aidiyyatı yoxdur. Belə olan halda görəsən, Ali Məhkəmənin Cinayət Kollegiyasının hörmətli üzvləri "qismən yerinə yetirilmiş öhdəlik" deyəndə nəyi nəzərdə tuturlar - qiyməti, keyfiyyəti, likvidliyi, ölkəyə gətirilmə tarixi aşkar saxtalaşdırılmış kompressorlarımı?"

### *Zərərçəkmiş şəxslər Ali Məhkəməyə kassasiya şikayəti verməyə hazırlaşırlar*

E.Muradlı digər zərərçəkənlərin də onunla eyni aqibəti bölüşdüklərini və birlikdə Ali Məhkəməyə kassasiya şikayəti verməyə hazırlaşdıqlarını bildirir:

**"Ali Məhkəmənin Cinayət Kollegiyası Gülnaz Abdullayevanın təqdim etdiyi diskdəki səs yazısının montaj olub-olmamasının ekspertiza ilə yoxlanılmadığını irad tutur. Maraqlıdır ki, Ali Məhkəmənin Cinayət Kollegiyası Gülnazın pulunu qaytardığını deyən İlhamın sözlərinin səmimiliyinə inandığı halda, daha əvvəl ibtidai istintaqda sübut kimi qəbul olunmuş səs yazısının, eləcə də Gülnazın qızı Vəfanın və onun rəfiqəsi S.Qədimliyevanın şahid ifadələrinin doğruluğuna şübhə edir, Gülnazla İlhamın pul çəkişmələrini əks etdirən telefon yazışmalarının üstündən sükutla keçir?.. Zərərçəkmişlərdən Famılə Cəfərovanın da iddiası Ali Məhkəmənin Cinayət Kollegiyası tərəfindən şübhə altına alınmışdır. Kollegiya üzvləri üçün yenə də İlham Xıdırovun birinci instansiya məhkəməsində verdiyi ifadə inandırıcı olmuşdur. Həmin ifadəyə görə, guya Elxan Xıdırov öz xalası Famılə Cəfərovanı öyrədib ki, yalandan əmisi İlham Xıdırovun üzünə dursun, onu da aldatdığını, pulunu mənimsədiyini desin. Şahid kimi dindirilən Məsimov İlqar İlham oğlunun Famılə Cəfərova ilə oxşar məzmunlu ifadə verməsi də məhkəmənin gəldiyi nəticəyə təsir göstərməmişdir... Ali Məhkəmənin Cinayət Kollegiyası zərərçəkmişlərdən Elxan Xıdırovun İlham Xıdırova pul verdiyini təsdiqləyən hal şahidləri Baxış İbadovun, Vəli Xankişiyevin, Ziyafət Abdinovanın ifadələri arasında da mücərrəd ziddiyyətlər tapmışdır. İlhamın lehinə olmayan bir çox başqa xüsusatlar kimi həmin ifadələr də məhkəmə materiallarında sadəcə məlumat olaraq ötmüş, qiymətləndirilməmişdir. İlham Xıdırovun qardaşı oğlu Elxan Xıdırova borc qarşılığında vermiş olduğunu və borcunu bağladığını iddia etdiyi 6 sot torpaq sahəsi də İlhamın deyilmiş, Sumqayıt Bələdiyyəsinin mülkiyyətindədir və İlham Xıdırova icarəyə verilibmiş".**

**Mövzuya qayıdacağıq.**

**Ceyhun**

# Şəkidə 30 yaşlı ali təhsil ocağı

*Müsahibimiz ADPU-nun Şəki filialının direktoru dosent Rafiq Rasulovdur.*

*Məlum olduğu kimi ölkəmizin bəzi bölgələrində də ali təhsil ocaqlarımızın filialları fəaliyyət göstərir. Onlardan biri də ADPU-nun Şəki filialıdır. Bugünlərdə filialın 30 yaşı qeyd ediləcək. Bununla bağlı bu ali təhsil ocağına rəhbərlik edən dosent Rafiq Rasulov ilə görüşüb onunla müsahib olduq. İndi həmin müsahibəni diqqətinizə təqdim edirik:*

**- Rafiq müəllim, mümkünsə Şəkidə ilk ali təhsil müəssisəsinin nə vaxt və necə yaranması haqqında oxucularımıza qısa məlumat verərdiniz?**

- Bu gün Şəkidə fəaliyyət göstərən ADPU-nun filialı Azərbaycan SSR Nazirlər Kabinetinin 30 sentyabr 1991-ci il tarixli qərarı əsasında BDU-nun filialı kimi yaradılmışdır. Ölkənin digər regionlarında olduğu kimi, Şimal-Qərb bölgəsində də yüksək ixtisaslı pedaqoji kadrlara olan ciddi ehtiyac bu təhsil müəssisəsinin açılmasını bir zərurətə çevirmişdi. Bildiyiniz kimi onda Azərbaycanın müstəqilliyə yeni qədəm qoyduğu bir dövr idi. Ölkə iqtisadiyyatını dirçəldərək inkişafına nail olmaq üçün isə birinci növbədə elm və təhsilin inkişafına diqqəti artırmaq lazım gəlirdi.

BDU-nun Şəki filialının 10 illik fəaliyyəti dövründə 1200-ə yaxın gənc müvafiq ixtisaslar üzrə təhsilini uğurla başa vurmuşdur. Bu gün fəxrlə qeyd etmək olar ki, bu ali məktəbdə təhsil almış onlarla gənc pedaqoji fəaliyyətini, elmi-tədqiqat işini uğurla davam etdirir və müxtəlif elm ocaqlarında, həmçinin bu ali təhsil müəssisəsinin özündə də uğurla çalışırlar.

**- Sizin dediklərinizdən məlum olur ki, öncə BDU-nun filialı olan bu təhsil müəssisəsi sonradan Azərbaycan Müəllimlər İnstitutunun tərkibinə verilib...**

- Azərbaycanda təhsilin inkişafı, bu sahədə qlobal islahatların həyata keçirilməsi Ümummilli liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən islahatlar bu gün də ölkəmizdə ardıcıl surətdə davam etdirilir. Belə islahatlardan biri də Ulu Öndər Heydər Əliyevin "Təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il tarixli 349 nömrəli Fərmanı ilə həyata keçirilmişdir. Şəkidəki ali təhsil ocağı da həmin Fərmana əsasən yaradılmış Azərbaycan Müəllimlər İnstitutunun filialı kimi fəaliyyətini davam etdirmişdir. Filial bakalavr hazırlığı ilə yanaşı, pedaqoji kadrların ixtisasının artırılması, təkmilləşdirilməsi və yenidən hazırlanması istiqamətində də fəaliyyət göstərmişdir.

**- Maraqlılır. Bu gün isə sizin rəhbərlik etdiyiniz filial Azərbaycan Dövlət Pedaqoji Universitetinin tərkibindədir...**

- Qeyd etmək istəyirəm ki, 30 yaşlı bu təhsil ocağının tarixində 2015-ci ildən sonra xüsusi bir mərhələ başlamışdır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əli-yevin 26 noyabr 2015-ci il tarixli Sərəncamına əsasən, Azərbaycan Müəllimlər İnstitutu Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulmuş, filialları isə ADPU-nun filialları hesab edilmişdir. Respublikanın 100 yaşlı, özünəməxsus tarixi və şərəfli inkişaf yolu olan Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulması filialımızın tarixində çox mühüm bir hadisə idi. Regionda mövcud olan bir filialın 100 yaşlı qocaman ali təhsil müəssisəsinin tabeliyində fəaliyyət göstərməsi bu elm ocağının qazandığı zəngin təcrübədən bəhrələnmək üçün geniş imkanlar açmışdır. Onu da demək yerinə düşər ki, Azərbaycanda elm və təhsilin inkişafında misilsiz xidmətləri olan Azərbaycan Dövlət Pedaqoji Universitetində son illərdə təhsilin məzmun və keyfiyyət göstəricilərində, innovativ təlim-tədris texnologiyalarından istifadə, beynəlxalq əməkdaşlıq sahəsində əldə edilən uğurlar, dünyanın 53 nüfuzlu ali təhsil ocağı ilə bağlanılan müqavilələr, 34 xarici universitetlə, o cümlədən ABŞ-ın Vaşinqton şəhərində yerləşən Corc Vaşinqton Universiteti ilə ikili diplom proqramı üzrə əməkdaşlıq universitetin çox böyük nüfuzundan xəbər verir. Bu gün ADPU ölkə universitetləri arasında innovasiyaların öyrənilməsi, tətbiqi və təbliği mərkəzi kimi tanınır, universitetin rəhbərliyi tərəfindən həyata keçirilən islahatlar onun nüfuzunu durmadan artırır. Şəki filialı da universitetin malik olduğu bütün imkanlardan, qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından faydalanmaqla, öz fəaliyyətinitədris prosesində məzmun və keyfiyyət göstəricilərinin təkmilləşdirilməsi istiqamətində qurur.

**- Rafiq müəllim, bu günlərdə ADPU-nun 100 və Şəkidə ali məktəb ocağının fəaliyyətə başlamasının 30 illiyi təntənə ilə qeyd edilir. Mümkünsə filialən uğurları barəsində oxucularımıza məlumat verərdiniz.**

- Ali təhsil müəssisəsinin yubiley tədbirinin keçirilməsi ötən dövr ərzində görülmüş işlər, əldə edilmiş uğurlara baxış və gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi baxımından da önəmlidir. Filialın əldə etdiyi nailiyyətləri, son illər görülmüş işləri qısa da olsa, diqqətinizə çatdırmaq istəyirəm.

Fəaliyyət göstərdiyi bu illər ərzində filial özünün maddi-texniki bazasını və kadr potensialını müasir tələblər səviyyəsində formalaşdırmışdır. İlk dəfə 75 nəfər tələbə ilə fəaliyyətə başlayan Şəki filialında 30 il ərzində 5000-dən çox ali təhsilli pedaqoji kadr hazırlanmış, 6000-dən çox müəllimin ixtisasının artırılması və təkmilləşdirilməsi həyata keçirilmişdir. Hazırda filialda 9 ixtisas üzrə 912 nəfər tələbə təhsil alır, professor-müəllim heyətinin tərkibində 86 nəfər çalışır. Fəaliyyət göstərdiyi ilk illərdə burada tədris pro-



sesi ilə məşğul olan alimlərin böyük əksəriyyəti paytaxtdan və ətraf rayonlardan dəvət olunduğu halda indi professor-müəllim heyətinin tərkibi yalnız yerli kadrlardan ibarətdir. Əməkdaşlardan 3 nəfər elmlər doktoru, 14 nəfər fəlsəfə doktorudur, 26 nəfərisə bu filialın öz məzunudur, onlardan bir nəfəri fəlsəfə doktorudur və elmlər doktoru proqramı üzrə təhsilini davam etdirir, bir çoxu doktorantura və dissertanturada təhsil alır. Ümumilikdə, filialda hazırda 3 nəfər Azərbaycan Respublikasının Əməkdar müəllimi çalışır, 7 əməkdaş elmlər doktoru, 30-a yaxın müəllim isə fəlsəfə doktoru proqramı üzrə təhsil almaqdadır. Bu isə yaxın gələcəkdə Şəki filialında elmi dərəcəli kadrların sayının sürətlə artacağından xəbər verir.

"Ənənələrə sadiq, yeniliklərə açıq!" devizini fəaliyyətinin əsas prinsiplərindən hesab edən ADPU-nun qazandığı təcrübədən faydalanmaqla, sürətlə inkişaf edən cəmiyyətdə rəqabətədavamlı kadrlar yetişdirməyi biz də qarşımıza əsas məqsəd olaraq qoymuşuq.

Paytaxtdan bir qədər uzaqda olsaq da, daim qocaman universitetlə qurulan sıx əlaqə və müntəzəm əməkdaşlıq qarşıya qoyduğumuz bu məqsədə çatmağımız üçün münbit şərait yaradır.

**- Bu gün Şəkidə fəaliyyət göstərən ali təhsil müəssisəsinin daha da genişləndirilməsi və günün tələbləri səviyyəsinə qaldırılması üçün hansı tədbirlər görülür?**

- Öz müstəqilliyinin 30-cu ilində mətin addımlarla irəliləyən Azərbaycan dövləti möhtərəm cənab prezidentimiz İlham Əliyevin qətiyyətli daxili və xarici siyasəti nəticəsində dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilmişdir.

Regionların sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə ölkəmizin hər bir bölgəsində həyata keçirilən tikinti və quruculuq işləri, Azərbaycanın birinci vitse-prezidenti, Mehriban xanım Əliyevanın "yenilənən Azərbaycana yeni məktəb" layihəsi əsasında inşa edilən yeni məktəb binaları ölkəmizdə təhsilin daha da yaxşılaşdırılması və ümumi inkişafını şərtləndirən amillərdəndir.

Son illərdə ölkəmizdə Təhsil Nazirliyi tərəfindən təhsilin məzmunundakeyfiyyət dəyişmələrinin həyata keçirilməsi ilə bağlı məqsədyönlü işlər görülmüşdür. Ali təhsil proqramlarının yenilənməsi bizim də qarşımıza mühüm vəzifələr qoymuşdur. Filialda kadr hazırlığı aparılan ixtisaslarda tədris edilən fənlər üzrə proqram və tədris vəsaitlərinin yeni məzmuna uyğun hazırlanması istiqamətindəxeyli iş görülmüşdür.

Tədris prosesində İKT-nin tətbiqi işini yaxşılaşdırmaq məqsədilə 100-dən çox kompüter avadanlıqları, elektron lövhələr və s. alınmışdır. Hazırda filialda ən yeni avadanlıqlarla təchiz edilən 5 kompüter zalı müəllim və tələbələrin istifadəsində, tədris prosesinin xidmətindədir. Filialın hər iki tədris korpusunda bütün otaq və auditoriyalar əsaslı təmir edilərək ən yeni avadanlıqlarla təchiz edilmiş, filialda modul tipli istilik sistemi quraşdırılmışdır.

**- Azərbaycan Dövlət Pedaqoji Universitetinin və bir filial kimi sizin başqa ali təhsil müəssisələri ilə hansı əlaqələriniz vardı?**

- Şəki filialının fəaliyyət göstərdiyi bu illər ərzində professor-müəllim heyətixeylidəyərli tədqiqat əsəri - dərslik, dərs vəsaiti, metodik vəsait və monoqrafiyalar hazırlayaraq çap etdirmişdir. Yenilikləri öyrənmək və tədris prosesində tətbiqinə nail olmaq, dünyanın inkişaf etmiş dövlətlərinin təcrübəsindən faydalanmaq məqsədilə filialda çalışan professor-müəllim heyətinin bir qismi ABŞ, Fransa, Portuqaliya, Türkiyədə təcrübə kurslarında iştirak etmiş, 60 nəfərdən çox filial əməkdaşı respublika və beynəlxalq səviyyəli təlimlərdə iştirak edərək öz təcrübələrini artırmışdır. Filialın iki tələbəsi mübadilə proqramlarında iştirak edərək Danimarkada təhsil almışdır.

**- Məzunlarınızın cəmiyyətdə tutduğu mövqeyi haqqında nə deyə bilərsiniz? Bu sizin fəaliyyətinizin birbaşa qiymətləndirilməsidir.**

- Filialımızda təhsil alan gənclərin təkcə öz ixtisasları üzrə mükəmməl kadr kimi yetişməsi deyil, onların sağlam düşüncəli, milli-mənəvi dəyərlərimizə bağlı, vətənpərvər ruhda yetişdirilməsi əsas hədəflərimizdəndir. Filialın Vətən müharibəsində igidliklə vuruşan və dövlətimiz tərəfindən təltif edilən məzunları bir daha təsdiqlədi ki, onlar üçün ən ali hiss Vətən sevgisi, ən müqəddəs məkan Azərbaycandır. Bu gün qürur hissi ilə qeyd etmək istəyirəm ki, filialımızın 2 nəfər tələbəsi və 23 nəfər məzunu Vətən müharibəsi zamanı ordu sıralarında igidliklə vuruşmuş, torpaqlarımızın düşmən tapdağından azad olunması, ərazi bütövlüyümüzün təmin edilməsində fəallıq göstərmişlər. Bu gün qalib xalqın nümayəndəsi kimi Vətən müharibəsində ordu sıralarında böyük qələbənin sevincini bizə yaşatdıqları üçün dövlət başçımız -Müzəffər Ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevə, rəşadətli Azərbaycan ordusuna sonsuz hörmət və ehtiramımızı, dərin minnətdarlığımızı bildirir, qazilərimizə şəfa, şəhidlərimizə Allahdan rəhmət diləyirik.

Böyük qürur hissi ilə bildirmək istəyirəm ki, Şəki filialı bu gün artıq regionun elm, tədris mərkəzinə çevrilmişdir.

Şəhər və respublika səviyyəli elmi konfransların, dövlət əhəmiyyətli tədbirlərin təşkilində filial özünəməxsus rol oynayır. Burada təhsili başa vuran yüzlərlə gənc müxtəlif dövlət qurumlarında, rəhbər vəzifələrdə səylə çalışır, elmi tədqiqatla məşğul olur, ölkəmizdən kənarda vətənimizi ləyaqətlə təmsil edir.

Lakin qazandığımız bütün bu uğurlar bizi heç də arxayınlaşdırmamalıdır. "Daim yeniliyə və inkişafa doğru!" bizim fəaliyyətimizin əsas prinsipi olmalı, 30 il ərzində filialda formalaşan ənənələri davam etdirmək, sürətlə inkişaf edən cəmiyyətdə rəqabətədavamlı, ölkənin və regionun sosial-iqtisadi inkişafının tələblərinə uyğun, sağlam əqidəli, milli şüura malik, vətəninə, dövlətinə sadiq, elmə, insan hüquqlarına hörmət edən, kreativ düşüncəli mütəxəssislər yetişdirmək kimi vacib məsələlərin həlli istiqamətində fəaliyyətimizi məqsədyönlü şəkildə davam etdirməliyik.

Biz də "Ədalət" qəzeti olaraq həm filialın, həm də universitetin kollektivini yubiley münasibəti ilə təbrik edir və kollektivinizə daha böyük uğurlar arzu edirik.

**Çingiz Ənvər oğlu,**
**Şəki**

# QƏBƏLƏ keçmişdə və günümüzdə

**Ötən ilin sonlarında "Təhsil" nəşriyyatı tərəfindən çap olunmuş "Qəbələ" kitabının müəllifi, əməkdar elm xadimi, professor, yazıçı-alim Qəzənfər Paşayevdir. Oxucularımıza xatırlatmaq istərdim ki, yazıçı-alim Qəzənfər Paşayev özünün bu günə qədər işıq üzü görən bütün ədəbi-publisist yazılarını ana xətti kimi Azərbaycanı tanıtmaq, Azərbaycanı sevdirmək vəzifəsini həyat kredosuna çevirib. Ona görə də müəllifin işıq üzü görən hər bir əsəri oxucu tərəfindən böyük maraqla qarşılanır. Burada bir məqamı da xüsusi ilə qeyd etmək yerinə düşər. Yəni, müəllif təqdim etdiyi və oxucu marağı qazanan əsərlərində həmişə bədii təfəkkürün məhsulu olan fikirlərlə yanaşı həmin məkanın, həmin ərazinin coğrafiyasını da, tarixini də, ekologiyasını da, hətta folklorunu da əsərin ovqatına uyğun olaraq oxucuya təqdim etməyi yüksək səviyyədə bacarır. Daha doğrusu, bu təqdimatlar əsəri daha oxunaqlı, daha yaddaqalan edir.**

Bu mənada Qəzənfər müəllimin "Qəbələ" əsəri həm də bu bölgənin dünənini və bu gününü tanımağa, öyrənməyə xidmət edir.




Kitabla tanış olanda oxucuya elə gəlir ki, (söhbət məndən gedir - Ə.M.) o müəlliflə birlikdə Qəbələni gəzir. Qəzənfər müəllimin müşayiəti ilə bu bölgənin dünənini, bu gününü seyr edir, görülən işlərdən xəbər tutur və bu işlərin memarını böyük sevgi ilə xatırlayır. Təbii ki, burda söhbət ümummilli liderimizin və onun layiqli varisindən gedir. Üç fəsildən ibarət olan bu kitabın ön sözündə millət vəkili Qənirə Paşayeva vurğulayır ki, "doğrusu, kitabın adında ifadə olunmasa da, mən bu əsəri keçmişdən və bugünümüzdən daha artıq dərəcədə gələcəyi ismarıc hesab edirəm. "Bu gün" ötəridir, "keçmiş"in adı üzərində - keçmişdir; "gələcək" isə arzumuz, inamımız, yolumuz dəyərindədir". Mənə elə gəlir ki, bu mürəkkəb cümlənin içərisində çox önəmli məqamlar ustalıqla oxucuya çatdırılıb və həmin önəmli məqamların da canı, qanı bütövlükdə bu gün böyük həvəslə üz tutduğumuz, gəzməyə, görməyə tələsdiyimiz Qəbələdir!

Ön sözdən o da məlum olur ki, bu kitab, yəni bu əsər özü-özlüyündə həm də böyük bir elmi işin bəhrəsidir. Yəni, alim-yazıçı təkcə bədii əsər deyil, həm də elmi bir araşdırmanın nəticəsini geniş oxucu kütləsinə təqdim edibdir. Ona görə də bu əsərin girişində vurğulanan məqamların təkcə ardıcıllığı gözdən keçiriləndə məlum olur ki, Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunda Qəbələ ilə bağlı keçirilmiş təqdimatlar heç də ötəri bir mərasim olmayıb. Bu tədbirlərin hər birində Azərbaycan alimləri yurda, bu məqamda isə Qəbələyə olan sevgilərini öz monoqrafiyalarında tutarlı şəkildə ifadə ediblər. Elə həmin o sevginin bəhrəsi kimi yazıçı-alimimiz Qəzənfər Paşayevin də "Qəbələ keçmişdə və günümüzdə" kitabı ərsəyə gəlibdir.

Oxuculara xatırlatmaq istəyirəm ki, barəsində söhbət açdığım bu kitab həm də tutarlı bir mənbə də sayıla bilər. Çünki müəllif Qəbələ ilə bağlı bir-birindən önəmli faktları ta qədim dövrlərdən bugünümüzə qədər yığcam şəkildə əsərdə təqdim edibdir. Bu torpağın şanlı tarixində yeri, izi olan hər kəsi ehtiramla xatırlayıbdır. Əsərdə verilmiş poeziya nümunələrində də məhz Qəbələnin tarixi onun özəllikləri öz əksini tapıbdır. Bu torpağın sayılıb-seçilən, tariximizə adını möhürləyən tanınmış şəxsiyyətlərinin adları və fəaliyyətləri də diqqətdən yayınmayıb. Onlar barəsində verilən informasiyalar Qəbələnin ziyalı potensialını da bizə tanıdıbdır.

Ümumiyyətlə, kitabda yer alan fotolardan tutmuş rəsmi materiallara qədər hər bir nüansın özü yazıçı-alimin bu əsəri necə böyük sevgi ilə qələmə aldığını birmənalı şəkildə ifadə edir.

**Mən bir oxucu olaraq bu maraqlı, ədəbi-bədii, həm də tarixi çalarlarla zəngin olan , günümüzün Qəbələsini sabaha daşıyan kitaba görə dəyərli yazıçı-alimimizə təşəkkür edir və bildirmək istəyirəm ki, məşhur deyimdəki fikir, yəni "deyilən söz yadigardır" aforizmi bu kitabla da bir daha təsdiqlənir.**

**Əbülfət MƏDƏTOĞLU**



***Adil Babayev***

## *Dünyaya yadigar*

**Qara gözlərinin seyrinə dalmaq,**
**Mənim ən səfalı səyahətimdir.**
**Eşqinlə döyünən yanar bir ürək,**
**Sənə gəncliyimdən əmanətimdir.**

**Ömür kitabımda qızıl sətirsən,**
**Günümə, ayıma çökən ətirsən.**
**Mənə kədər deyil, sevinc gətir sən,**
**Adi bəxşişin də şan-şöhrətimdir.**

**Könlüm mələr düşər az görüşəndə,**
**Nərmin əllərimdən iraq düşəndə.**
**Sənsiz göy çəməndə, dağlar döşündə,**
**Gözlərin yaşlıdır, qəlbim yetimdir.**

**Bilmirəm dövranda bu gərdiş nədir?**
**Adilə gah sevinc, gah qəm bəxş edir,**
**Günlərim, aylarım köç edib gedir,**
**Dünyaya yadigar məhəbbətimdir.**

## *Sözlərin kökü*

**Bəzən iş otağıma çəkilib bütün günü,**
**Axtarıram sözlərin, kəlmələrin kökünü.**
**Öyrənmək istəyirəm diqqət ilə, səy ilə,**
**Sözlər necə yaranıb, hardan gəlibdir dilə.**

**Lüğətlər kömək etmir, qamuslar gəlmir kara,**
**Deyirəm öz-özümə: ürəkləri sən ara.**
**Talelər kitabında mənası var hər sözün,**
**Hər həsrətin, vüsalın, hər gecənin-gündüzün.**

**Düşünürəm: zindanda azadlıq boğulanda,**
**Körpələrlə gözəllik bir yerdə doğulanda,**
**Azadlıq həsrətiylə yanan zaman Vətənim,**
**Yəqin, "azadlıq" sözü dilimə gəlmiş mənim.**

**İnsanlar sürüləndə yurdundan diyar-diyar,**
**Yəqin, "Vətən" sözünü qürbətdə yaratdılar.**
**Vətən oldu onların arzusu, düşüncəsi,**
**Meyvələrin nübarı, çiçəklərin qönçəsi.**
**Ocaqların tüstüsü,**
**Təndirlərin istisi,**
**Çinarların vüqarı xəyala gələn zaman**
**Yarandı "Vətən" sözü qəriblərin ahından.**

**Bilirəm torpağımın sevinci var, yası var,**
**Onun gözünün dağı hicranlı Arazı var.**
**"Həsrət" sözü Arazın yaranıb sularından,**
**Axı, bu torpaqdakı daşın da, çinarın da**
**Kökü Arazdan keçib, o taya adlayıbdır.**
**Araz əvvəl çay idi**
**İndi həsrət olubdur, qəlbləri odlayıbdır.**

**Nə qədər yol getmişik Günəşin sorağında?**
**Bir vaxt oda sığınan yurdumun torpağında**
**İşığa həsrət qalıb illər boyu nəsillər,**
**Səmum nəfəsli aylar, ölüm nəfəsli illər.**

**Söndürüb evlərdəki neçə odu, ocağı,**
**İnsan olub cansıxan qaranlığın dustağı.**
**Kim bilir, bəlkə, onda**
**Ürəklər bir çırağın həsrətiylə yananda**
**"İşıq" sözünü ilkin dilə gətirmişik biz,**
**Arzunun işığıyla "işıq" gəzib nəslimiz?**
**Bəlkə, "ümid" sözü də uzaq bir çıraq kimi,**
**Elə o vaxtlar yanıb,**
**Ya zülmətdə doğulub, ya zindanda yaranıb?**

**Ayaqlar buxovlanıb, əllər zəncirlənəndə,**
**Fəlakət üstümüzdə bayquştək hərlənəndə,**
**Ölüm dayanan zaman qaşla-göz arasında,**
**Bəlkə, bir cəngavərin ümidsiz yarasında,**
**Bəlkə, ölüm anında ümid gözləyən gözdə**
**Ümid də yaranıbdır "ümid" ünvanlı sözdə?**

**Bəzən iş otağıma çəkilib bütün günü**
**Axtarıram sözlərin, kəlmələrin kökünü.**
**Məncə, hər söz yaranıb bir arzudan, diləkdən,**
**Sözlər də məcrasını alır yanan ürəkdən!**

***

**Bizi ölüm ilə qorxudur zaman,**
**Şeirim tab edərmi bu ağır dərdə?**
**Nə üçün ömrünü qorumayırsan,**
**Daha etibarlı, möhkəm bir yerdə?**

**Görürsən, nə qədər bakirə gül var,**
**Gəncliyin bahardır, qoru ruhunu.**
**Qəlbini, hüsnünü sevgi yaşadar,**
**Nə fırça, nə qələm bacarmaz bunu.**

**Hər şeyi yenidən yaradır həyat,**
**Gəl öz gəncliyini ver məhəbbətə.**
**Sevgiylə, sevdayla aç ki qol-qanad,**
**Səni qovuşdursun əbədiyyətə.**

**Versən öz ömrünü övladına sən,**
**Onun varlığında ömür sürərsən.**

## *Ayrılıq olmasaydı*

**Heç zaman solmazdı o tər çiçəklər,**
**Ümmana dönərdi sevən ürəklər,**
**Bir insan bilməzdi, nədir qəm-kədər,**
**Şəfəqli nəğməyə dönərdi aləm,**
**Ayrılıq olmasaydı, ayrılıq olmasaydı**

**Vaxtsız dən düşməzdi şəvə saçlara,**
**Analar ömründə geyməzdi qara,**
**Bir dildə olmazdı "həsrət" kəlməsi,**
**Bir evdən çıxmazdı hıçqırıq səsi,**
**Ayrılıq olmasaydı, ayrılıq olmasaydı**

**Görünməzdi bu yol yorucu, uzun,**
**Gülərdi çöhrəsi gəlinin-qızın,**
**Yaz fəsli açılan çiçəklər kimi**
**Əbədi saxlardım səadətimi,**
**Ayrılıq olmasaydı, ayrılıq olmasaydı**

## *Mən dünyada olmayanda*

**Qarlar, buzlar əriyəcək,**
**Çöllər yaşıl don geyəcək,**
**Bir şair də mənim kimi**
**Öz yurdunda söz deyəcək,**
**Mən dünyada olmayada.**

**Qəlbində bir xoş intizar,**
**Xəyalında - işıq, bahar,**
**Gələcəyin vüsalıyla**
**Çalışacaq bu insanlar,**
**Mən dünyada olmayanda.**

**Ömrüm Aya, Günə sirdaş,**
**Ağarır saç, çoxalır yaş,**
**Bircə kəlməm, bircə sözüm**
**Ürəklərdə qalaydı, kaş,**
**Mən dünyada olmayanda**

***

**Deyirsən əl götür bu inadından,**
**Çıxart birdəfəlik məni yadından.**
**Mən qüvvət alarkən sənin adından**
**Könlüm gözlərindən kənarmı olsun?**

**Tək sənsən ömrümün hüsnü, zinəti,**
**Qoyma xar olmağa ilk məhəbbəti,**
**Ey ana yurdumun zərif xilqəti -**
**De, eşqim baharmı, xəzanmı olsun?**

## *Sən yoxsul deyilsən*

**Nə əynində bahalı**
**paltarın var,**
**Nə altında xüsusi maşın,**
**Nə də göz qamaşdırır**
**sandıqdakı daş-qaşın.**
**Yoxsul deyilsən fəqət.**
**Varın-vətənə məhəbbət,**
**Şöhrətin - xalqın əzəli şöhrəti,**
**Sevincin - övladının isməti,**
**Sərvətin - el üçün döyünən ürək,**
**Sənin kimi İnsana**
**var-dövlət nəyə gərək?!**

## *Gəncliklə görüş*

**Ata həsrəti,**
**ürəyin tükənməz məhəbbəti.**
**Ölüm, hicran,**
**yaralardan axan qan.**
**Dumanlı, işıqlı səhərlər,**
**verilən, alınan şəhərlər.**
**Çörək azlığı,**
**diqqət qıtlığı.**
**Rəftarın sərtliyi,**
**Ümidin bolluğu.**
**Bir dünya yorğunluq,**
**Bir qətrə dinclik ...**
**Salam, mənim gəncliyim,**
**Salam, cəfakeş gənclik!**

***

**Onsuz min əzaba, min dərdə dözdüm.**
**Min yerdə pisliyə çəkildi adım.**
**Namərdlər yanında şad görünsəm də,**
**Mərdlərin yanında yanıb-ağladım.**

**Sən indi uşaqsan, yaşa dolanda,**
**Bilərsən, böyükdür qəlbimdəki qəm.**
**Məni qınamasın dostlar, tanışlar,**
**Ata olsam belə, ata istərəm.**

***

**Kimi var axtarır, dövlət axtarır,**
**Kimi sərvətində görür sənəti.**
**Kiminin şeirində ürək yerinə**
**Görünür rütbəsi, pulu, şöhrəti.**

**Mənim nə pulum var, nə şöhrətim var,**
**Lakin taleyimdən küskün deyiləm.**
**Elini düşünüb yazan şairə**
**Bir məslək lazımdı, bir kağız-qələm.**

## *Gözəldir*

**Üzük yar barmağında,**
**Gəlin toy otağında,**
**Bülbül gül budağında,**
**Gül tağında gözəldir.**

**Aşiqiyəm baharın,**
**Bu düzlərin, dağların.**
**Həyat doğma diyarın**
**Torpağında gözəldir.**

**Ruhum şad, işim xeyir,**
**El sözümü gözləyir,**
**Şair ömrü bir şeir**
**Sorağında gözəldir.**

## *Qara bankomat kartı*




**Axır ki, " gözlədiyim" an gəlib çatdı. Yaşa görə pensiyaya çıxdım. Çox uzatmadılar, 65 yaşım tamam olandan cəmi bir neçə gün sonra pensiya kartımı aldım. Qəribə hisslər keçirdim. Bunu sözlə ifadə etmək çox çətindir. Bilmədim kədərlənəm, yoxsa güləm, sevinəm. Qəribə hisslərin təsiri altında pensiya kartımı nəzərdən keçirdim. Birdən onun rəngi diqqətimi cəlb etdi.**

**Nədənsə pensiya kartım qara rəngə boyanmışdı. Maraqlı burasıdır ki, kartda ad və soyadımın əvəzinə, böyük hərflə " Qara " sözü həkk olunmuşdu. Xeyli fikrə getdim. Sonda anladım ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi mənə ağ gün arzulamayıb. Heç yaşıma da hörmət etməyib. Nazirlik vurğulayıb ki, vətəndaş "rahat" yaşaya bilərsən, qara günlərin başladı. Nə deyim, mən də onlara bunun müqabilində deyə bilərəm ki, darıxmayın, gün gələr, sizin də qara günləriniz başlayar. Siz də mənim günümə düşərsiniz...**

**Adil Misirli**

## *Bu il 40 min hektar ərazinin minalardan təmizlənməsi nəzərdə tutulur*



**Bu il 40 min hektar ərazinin minalardan təmizlənməsi nəzərdə tutulur.**

Bunu jurnalistlərə açıqlamasında Nazirlər Kabinetinin aparat rəhbəri Rüfət Məmmədov deyib.

O qeyd edib ki, minaaxtaranlar üçün sahə düşərgəsinin yaradılmasının əsas məqsədi Ağdam rayonunda minatəmizləmə işlərinin sürətləndirilməsi və daha da genişləndirilməsi, bu işlərə cəlb olunan şəxsi heyətin sayının artırılması və şəxsi heyətin iş yerindən uzaq olmayan məsafədə fəaliyyət göstərməsi üçün müvafiq şəraitin yaradılmasından ibarətdir. Şəxsi heyət üçün düşərgədə bütün lazımı şərait yaradılıb.

"Keçən il ümumilikdə 95 layihə icra edilib. Bu layihələrin əsas məqsədi ərazilərdə lazımı əsas infrastrukturun, xüsusilə nəqliyyat, energetika, su təsərrüfatı və digər infrastrukturun yaradılması, ərazilərin, xüsusilə kənd təsərrüfatı ərazilərinin və sənayə parkları üçün nəzərdə tutulan ərazilərin iqtisadi dövriyyəyə buraxılmasıdır. Eyni zamanda artıq vətəndaşların bu ərazilərə qayıtması üçün yaşayış məntəqələrinin bərpası və yenidən qurulması işlərinin aparılması üçün müvafiq əlverişli şəraitin yaradılmasından ibarət layihələr olub. Bu il 40 min hektar ərazinin minalardan təmizlənməsi nəzərdə tutulur", - deyə o əlavə edib.

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 4 (2278) 29 yanvar 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# Növbəti erməni məkri

## Erməniləşdirmə faktına münasibət və yaxud, Ağdamda - Beşikdağ məbədinin əfsanəsi

(əvvəli ötən sayımızda)

**Bu tayfaların ən qədimləri Qafqaz və türk dillərində danışan avtoxton etnoslar olmuşlar ki, bunlardan biri də, yüksək mədəniyyətə malik olan Qarqarlar Ağdam ərazisindəki Qarqar çayı hövzəsi boyuca məskunlaşmışdılar. Bu isə Ağdamın Azərbaycan ərazisində ilk formalaşan dövlət quruculuğunda mühüm rol oynadığını bir daha əyani sübut edir. Bu barədə məşhur tarixçilərin, tədqiqatçıların əsərlərində yetərincə mühüm faktlar vardır və bu mənbələrdən aydın olur ki, türklər bu ərazilərin ən qədim, aborigen-aftoxton əhalisi olmuşlar...**

Deməyim budur ki, Ağdam çoğrafi ərazisində tarixən ermənilərin olması və məskunlaşması absurddur!! Həmçinin, burada və Qarabağın dağ-yaylaq ərazisində olan xristian abidələri də, islamdan qabaq zərdüştizmi, sonrada xristianlığı qəbul edən aborigen türk tayfalarına mənsubdur, o cümlədən Beşik dağının zirvəsində olan abidə...

Ağdam rayonu ərazisində çoxlu tarixi mədəniyyət və incəsənt abidələri var. Buradakı Üzərlik Təpə abidəsi, rayonun Xaçındarbənd kəndindəki Qutlu Sarı Musa oğlu günbəzi (1314-cü il), Kəngərli kəndindəki türbə və daş abidələr (XIV ?sr), Papravənd kəndindəki türbələr, məscid (XVIII əsr), Xanoğlu türbəsi (XVII ?sr), Qarabağ xanı Pənahəli xanın Ağdam şəhərindəki imarəti (XVIII əsr), Natəvan və onun oğlunun türbəsi (XIX ?sr), Şahbulaq qalası və s. kimi tarixi və memarlıq abidələri bunu aşkar sübut edir...

Bunlardan biri də, Beşik dağının zirvəsinə yerləşən, tikilmə tarixi IV-VII əsrə aid edilən, indi isə qirqorianlaşdırılan Alban-türk Beşikdağ Alban-türk məbədi xristian məbəd-abidəsidir. Mənbələrə görə, bu məbəd tamamən Alban memarlıq üslubunda Arşakilər sülaləsindən olan Qafqaz Albaniyası hökmdarı II Vaçe tərəfindən, tamamilə Alban-Türk məbəd arxitekturasında inşa etdirilmişdir...

Onu da, bildirim ki, Erməni bənnalarından qabaq saxtakarlığı erməni tarixçiləri edir, böyük saxtakarlıqla bu qəbildən abidələrimizi erməniləşdirir, sonra da erməni bənnaları işə başlayırlar...

Bu abidə Şərqdən - Şirvanın, Şəkinin, yuxarıdan isə Qarabağın bütün yüksəkliklərdən görünür. Buna görə də, bu abidə əvvəl keşikçi qübbəsi kimi tikilibdir, necə ki, Şabrandakı "Çıraqqala" təkin... Buradan həm, yuxarı dağlarda yerləşən "Gəncəsər"qalasına (Xaçın knyazlığının mərkəzinə), həm də Şirvan zonasına od-ocaqla xəbərləşmə vasitəsi kimi istifadə edilibdir. Hətta, İbrahim xanın Şahbulaq qalasında məskunlaşan çağlarda da, artıq bu məbəd-abidə təmir edilərək keşikçi məntəqəsi kimi istifadə edilibdir... Bizim ehtimalımıza görə, indi Beşikdağı adlanan bu dağın əvvəlki adı Eşik (yəni son silsilə, ən eşikdə olan mənasında) və yaxud Keşik dağı olubdur. Sonralar uşaq nənnisinə-beşiyinə oxşadığına görə Beşik adını alıbdır... Belə ki, Beşikdağ sanki dağlıq və düzən Qaraba? arasında təbii



sərhəd rolunu oynayır. Cənub-şərq tərəfdən ona Kür-Araz ovalığı, qərb tərəfdən isə Qarabağ yaylası birləşir... Yeri gəlmişkən, qeyd edim ki, 30 il işğal altına olan Beşikdağ məbədi və dağın aşağı ətrafında yerləşəm alban xristian qəbristanlığı haqqında vikipediya səhifələrində verilən məlumatlar olduqca yanlışdır və erməni mənbələrindən alınmışdır...

Azərbaycanın digər dağ məntəqələrində bu cürə abidələrin hamısı ilk öncə keşikçi məntəqəsi kimi tikilibdir. "Keşikçi dağı" ifadəsi - adını təsadüfi saymaq olmaz. Məsələn, Ağstafa rayonu ərazisində yerləşən Keşikçidağ abidələr kompleksi, Aveydağ, Tatlı, Yuxarı Əskipara məbədləri kimi ilk əvvəl keşikçi məntəqələri olmuş, sonralar funksiyalarını məbədlərə vermişdir. Bir cəhəti də, qeyd etməyi vacib bilirəm! Bəzən kilsə ilə məbədi eyniləşdirirlər və fikrimizcə bu kökündən yanlışdır... Məbəd kilsə deyil və arxitekturası tamamən fərqlidir.... Məbəd Alban xristian türklərinə məxsus ibadətgahdır və Beşik dağının zirvəsində tikilən əvvəl gözətçi məntəqəsi olan abidə, sonralar genişləndirilərək, yenidən qurularaq Alban xristian türk məbədi olubdur... İslam dövründə isə xalq, birmənalı olaraq, bu tipli abidələrin bir qismini Koroğlu qalası kimi anladıblar. Belə bir rekonstruksiya və metaformoza hadisəsi Beşikdağı abidəsinin də başına gəlibdir...

Amma ən böyük məkri və qəddarlığı ermənilər ediblər. 1994-cü il mayın 12-dək davam edən hərbi təcavüz nəticəsində ermənilər Ağdam rayonunun 846,7 km$^2$, yəni ümumi ərazisinin 77,4 %-ni işğal etməyə nail oldu. Qarabağ uğrunda gedən döyüşlərdə 6.000-dən çox ağdamlı şəhid olub. 2010-cu ilin noyabr ayında Dağlıq Qarabağ separatçıları rayonun adını erməniləşdirmək məqsədi ilə Ağdamın adını dəyişərək Akna qoyublar, Şahbulaqdan şimal-qərbdə dağın enişində yerləşən qədim xristian-türk alban qəbrlərini, Pənah xanın tikdirdiyi qalanı erməni abidəsi kimi dəyişdiriblər, muzey düzəldiblər, özlərindən Tiqranagert şəhəri uydurublar... Beşikdağ məbədinin də adını Vankasar monastrı qoyubkar... Yalan, məkr və saxtakarlıq, bax, budur!!

Bunu da, xatırladaq ki, hətta XIX əsrin əvvəllərinə qədər Qarabağ dağlarında yerləşən məbədlər hələ də, Alban məbədgahı kimi fəaliyyət göstərmiş, ermənilərin dabanyalama xisləti ilə uzun müddət saxtakarlıq işi aparılandan sonra Rusya çarlığının təsiri ilə 1836-cı ildə bu abidələr Rusiya Müqəddəs Sinodu tərəfindən ləğv edilmiş, Alban monastrına məxsus bütün mülk və əhali Erməni Qriqoryan Kilsəsinin tabe edilərək erməniləşdirilmiş, bütün Alban dini kitbları, əlyazmaları məhv edilmiş, məbədgahlar isə kilsələşdirilmişdir...

Bundan sonra Qarabağda Alban Patriarxı İsraelin başçılğı ilə qiyam başlayır. Qiyam yatırılır, Alban patriarxı İsrael isə ölkədən qovulur. Tezliklə patriarx İsrael vəfat edir və bundan sonra Erməni Arxiyepiskou Hovannes Qraf İvan Qudoviçə yazdığı məktubda Qarabağ və Gəncədəki Alban Məbədgahları klsələşdirilərək mülkləri və dindarlarının Eçmiədzinin tabeliyinə verilməsini xahiş edir və buna nail olur...

İndi bu məkri, Beşikdağdakı qədim abidəmizin də başına gətiriblər ki, sonralar əllərində dəstəvuz etsinlər ki, guya bu torpaqlar ermənilərə məxsusdur...

**Bu qeydlərimlə bildirmək istəyirəm ki, Ağdamın Beşikdağındakı qədim abidələrimiz, həmçinin, ümumiyyətlə, Qarabağda erməni məkrinə məruz qalmış bütün qədim ibadətgahlar öz ilkin vəziyyətinə salınmalı, tarixi gerçəklik bərpa olunmalıdır... Bəli, bütün Qarabağda yerləşən tarixi məbədlər Qafqaz Albaniyası dövrünün nadir abidələrindəndir. Saxtakarlıqların qarşısı alınmalı, abidələr əvvəlki - ilkin vəziyyətlərinə gətirilməlidir. Tarixi abidələri saxtlaşdıraraq özününküləşdirmək - erməniləşdirmək cəhdlərinə birdəfəlik son qoyulmalı, tarixi varisiyimizə yiyə durmalıyıq!!**



**Qurban Bayramov, tənqidçi-ədəbiyyatşünas.**


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ


# Naxçıvan səfərimdən bir not



*Əbülfət MƏDƏTOĞLU*

**İnsan həmişə gəzib görmək, arayıb-axtarmaq sorağında olub. Ona görə də min illər bundan öncə də, elə indi də gəzintiyə çıxmaq, elləri, obaları dolaşmaq təkcə vərdiş, adət deyil, həm də daxili bir tələbat olubdur. Bu mənada Allah bəndələrindən biri kimi, mən də fəsillərdən asılı olmadan həmişə yeni ünvanlar görmək, yeni mənzərələrlə baş-başa qalmaq istəyimi cilovlaya bilməmişəm. Bir balaca, yəni maddi şərait imkan verəndə, dərhal yol hazırlığına başlamışam. Özü də heç kimə, heç nə demədən, ürəyimin səsinə qulaq asaraq.**

**Ötən ilin son günlərini Naxçıvanda qarşıladım. Buradakı dostlarımın səmimiyyəti, doğmalığı, ən əsası isə ürəklərinin böyüklüyü şaxtalı, soyuqlu havada da məni isitdi. Cəmiyyətdə tutduqları mövqedən, yaşlarından asılı olmadan onlar hər biri mənə qollarını açdı. Hətta bu doğmalıq, bu canyanalıq məni bir az da kövrəltdi, bir az da çaşdırdı. Çünki diqqət, istək o qədər içdən gəlir**

**Tam səmimi deyəcəm. Naxçıvandakı doğmalığı, səmimyyəti heç doğulduğum kənddə də yaşamamışam. Bilmirəm, bu mənə Allahın hədiyyəsidi, yoxsa dostlarımın sonsuz diqqəti?! Amma hər nədirsə, bu diqqət üçün, bu səmimiyyət üçün həm yaşamağa, həm də yaşadıqlarını yazmağa dəyər!..**

**Naxçıvandakı hava limanında məni qarşılayan, Birinci Qarabağ savaşından tanıdığım, cəbhə yoldaşım, dostum, hər bir zəngimə "bəli, müəllim" deyərək ürəyi atlana-atlana cavab verən, bu gün istefada olan polis polkovniki, Şulan Abışov görüşünə getdiyim şair, qardaşım, Ali Məclisin deputatı Asim Yadigar ürəyinin odu ilə məni elə sinəsinə sıxdı ki, sanki min illərin həsrətliləri görüşürdü. Ona deməsəm də, həmin an içimdəki duyğuları ifadə etməyə, az-çox yazı yazmağı bacaran adam kimi, indi də özümü gücsüz sayıram. Hələ Naxçıvandakı qocaman dostlarımdan biri, dünyanın çox üzünü görmüş Hacı Firudinin "Gör kim gəlib!" deyərək qollarını açmasını yalnız o səmimiyyəti yaşayanlar sözlə ifadə edə bilərlər.**

**Yenicə çapdan çıxmış "Nuh gəmisinin son limanı" kitabını dostlarla birlikdə ayaqüstü müzakirə edib, sonra yığışırıq süfrə ətrafına. İndi bu süfrənin ətrafında olanların Hüseyn Əsgərovun da, Muxtar müəllimin də Alməmməd müəllimin də, telefonla bizə qoşulan dəyərli şairimiz Əbülfəz Ülvünün də fikirləri mənim üçün çox önəmlidir. Çünki, qələmi və sözü öz təsdiqini tapmış bu insanların fikirləri, bu insanların dedikləri Naxçıvanla bağlı olan "Nuh gəmisinin son limanı"na həm oxucu qiyməti idi, həm də peşəkar qiyməti. Demək olar ki, az qala gecənin yarısına qədər uzanan bu söhbətlərin canı da, qanı da səmimiyyətdən, saflıqdan ibarət olduğu üçün mən özümü bu kitaba görə ən yüksək mükafat almış müəllif kimi hiss edirdim. Deməli, sözün dəyərini, qiymətini verəndə sözün sahibi də dəyərli və qiymətli olurmuş. Bunu bir daha Naxçıvanda dostlarımın arasında yaşadım, hiss etdim.**

**Bunun üçün dostlarıma, sözə dəyər verənlərə və bir də Naxçıvana səfər etməyimdə yardımçı olan hər kəsə təşəkkür edirəm. Artıq Bakıdakı dostlarımdan da bu kitabla bağlı eşitdiyim xoş sözlər mənim yanılmadığıma, necə deyərlər, yaxşı bir işin qulpundan tutduğuma inamımı artırır. Sağ olun, dəyərlilərim, dəyər verənlərim!**

# "Sənətlə əlaqəsi olmayan insanlar bəzi əsərləri əxlaqsızlıq kimi görür"

*Həmsöhbətimiz rəssam Aynur Govasarydir.*

**-Rəngə toxunmaq necə bir hisdir?**

- Qarışıq. İçində olduğun haldan da asılıdır. Sevinc, kədər, ehtiras hamısı buna təsir edir. Rənglər umumən insanın daxili dünyasından xəbər verir.

***"İstedad olmasa, təhsil də, zəhmət də boşunadır"***

**-Zəhmət, istedad,təhsil. Bir rəssam üçün bunları necə sıralayardınız. Hər birinin önəmi hansı dərəcədədir?**

-Hər biri vacibdi və bir birinə bağlı zəncir halqalarıdı. Ən əsas ortadakı halqa isə istedaddır. O olmasa, təhsil də, zəhmət də boşunadır..

**-Adətən yaradıcı adamların təxəyyülü, xəyal dünyası cəmiyyətdən daha irəli gedir. Bu bəzi hallarda yaradıcılığa da sirayət edir ki, bu nümunələr əxlaqsızlıq ittihamına qədər əks arqumentlərlə rastlaşa bilər. Belə nümunələriniz varmı?**



- Əlbəttə, elədir. Bizim cəmiyyətlə sənət arasında böyük uçurum var deyərdim. Sənətlə əlaqəsi olmayan insanlar, bəzi əsərləri əxlaqsızlıq nümunəsi kimi görə bilir. Və sadəcə dəhşət. Mən nədənsə çəkinmirəm.

**-Realizmdən uzaq yaradıcılıq nümunələri onu yaradan müəllifi belə yaradıcılığındakı nümunəyə aludə edir. Bu da şəxsi həyatda və.s onun adaptasiya olunmasına problem yaradır. Belə misallar çoxdur incəsənət dünyasında. Sizdə necədir?**

-Məsələ burdadır ki, biz həyatımızı şəxsi həyat və iş həyatı olaraq ayıra bilmirik. Bizim həyatımızın hər hissəsi sənətimizdi. Hiss edirəm ki, artıq bu cavab hər şeyi açıqdı.

**-Hiss etdiyiniz qədər şərq cəmiyyəti daha çox hər sahədə klassizmə meyllidir, nəinki müasir, avanqard yaradıcılığa.**

-Günümüzdə incəsənətin sərhədləri o qədər genişlənib ki, bunu cəmiyyətə aid eləmək olmur. Bu artıq fərdiləşib.

**-Sırf rəssamlıqla bizim cəmiyyətdə dolanmaq nə qədər realdır? Məsələn, şairçün şeirləriylə yaşamaq fantastika olardı.**

- Əlbəttə ki, dolanmaq olur. Təbii ki, əl əməyinin hər yerdə bir qarşılığı var. Şairlərin nə qədər qazandığı barədə bir fikrim yoxdu, amma həqiqətən istedadın var və bunu yeniliyə tərəf edirsənsə, qazana bilirsən.

**-Hər dəfə sərgi keçirməyinizi soruşanda xaricdə keçirəcəyinizi deyirsiniz. Azərbaycanda bunu həyata keçirməkçün nə mane olur?**

-Söhbət fərdi sərgidən gedir. Maneə yoxdur, sadəcə maraqlar fərqli olur, mənim marağım da bura yönəlib.

**Söhbətləşdi:**
**Emin Piri**

# TORPAQLARI NECƏ SATDIM?!

*İki günlük Abşeronda "N" saylı hərbi hissədəyik. Təlimə görə çiyinlərimdə rütbə yoxdur. Plasda telefonla danışıram...*

*Müharibədən bir neçə gün öncə Maştağadakı iki sotluq topağımı satmışdım. Guya ev tikəcəkdim. Borc səbəbindən( yığılıb qalan faizlərə görə) hər gün bezdirən bank zənglərinə görə satdım ki, borcu bağlayım. Zənglərdən canım qurtarsın...*

*Müharibədə bu məsələm yaxın dostların, zabitlətlərin zarafatına çevrilmişdi.*

*-Satmağa tələsdin, şəhid olsan borcunu onsuz da bağlayacaqdılar. Boş yerə evi ziyana saldın, heç olmasa ailənə bir xeyrin dəyərdi...*

*Düzü, bunu düşünmürdüm desəm, yalan olar. Gərək səbrli olardım, gözləyərdim. Ya sağ qayıtmasam?Heç olmasa bunda evə xeyrim dəyərdi. Boş yerə faizlərlə hansısa bankirin cibini doldurdum.*

*Hə, telefonla danışırdım, torpağın sənəd məsələsini həll edirdim. Əsgərlərə(çünki rütbə taxmamışdım) telefon qadağan olduğundan, xüsusən plasda özü də yanından bir polkovnik keçər telefonla danışmağı ən azından həzm etməzlər. Üstəgəl,öz hayında hay-küylə danışırsan və hərbi salam vermiyəsən. Heç zaman belə hörmətsizlik, qaydalara qarşı çıxmıram, sadəcə fikrim öz məsələmə yönəldiyindən onun diqqətlə məni izləməyinin fərqində deyiləm. Səhər tezdən, ya da gecə yarısı cəbhə bölgəsinə yola düşəcəkdik, silahları paylayırdıq. Beş dəqiqəlik telefonla danışmaqçün anbardan ayrılmışdım.*

*Telefona"odboy" verdikdən sonra:*

*-Cənab polkovnik,torpağı satmışam, sənədləri həll edirdim.*

*Səmimi olaraq etdiyim işin vacibliyini çatdırmaq istəmişdim. Təəcüblə baxaraq:*

*-Sən ...san?*

*Qəribə gəldi sözü. Təhqir kimi bildim.*

*Bir anlıq dediyim sözün mahiyyətinə vardım və əsl mətləbi izah etdim. Çünki ən azından məzə tuta biləcəyimi düşünərdi. Bu heç də yaxşı bitməzdi.*

**Emin Piri**

# Qarabağda astronomik stansiya qurulacaq

**Bizim təkliflərimiz əsasında yaxın gələcəkdə Qarabağ zonasında yeni astronomik stansiya qurulacaq.**

Bunu AMEA Şanaxı Astorfizika Rəsədxanasının icraçı direktoru, professor Nəriman İsmayılov "Şamaxı Astrofizika Rəsədxanası: Müasir vəziyyəti və problemləri haqqında" müraciətində bildirib.



Onun sözlərinə görə, yaxın gələcəkdə Qarabağ zonasında yeni astronomik stansiyanın qurulması, orada müasir robot teleskopların yerləşdirilməsi, onların Rəsədxanadan idarə olunması, Rəsədxana ərazisində yerin kosmosdan peyk müşahidələri vasitəsilə öyrənilməsi üçün mərkəzi kosmik poliqonun yaradılması kimi məsələlər AMEA rəhbərliyi tərəfindən dəstəklənib.

N.İsmayılov, həmçinin əlavə edib ki, bu işlərin həyata keçirilməsi Şamaxı Astrofizika Rəsədxanasının uzaq və yaxın kosmosun tədqiqi üzrə beynəlxalq elmi mərkəzə çevrilməsində çox vacib addım olacaqdır.

# Hərşeyşünas hərbi ekspertlər

**Verilişlərdən birinə dəvət etmişdilər. Mövzunun nə olduğunu soruşdum;**

**-Gəlin-qaynana və bu kimi ailə münasibətləri.**

**-Subay adamam, bu barədə münasibət bildirəcək sonuncu adamam;-söylədim.**

**-Şair adamsan, gəl, nəsə danış.**

**Təbii ki, getmədim. Sonradan marağa həmin verilişəbaxdım. Yaxından-uzaqdan əlaqəsi olmayan adamlar o verilişdə qonaq idi. Ailə haqqında danışacaq ənsonuncu şou adamları...**

**Hə, bir -iki subay gənc şair də gəlin və qaynanaya aid məsləhətlər verirdi.**

**O şairlərçün verilişin, mövzunun nə olması önəmlideyildi. Onlara lazım olan məni "görsünlər"di. Mən dəvaram, məni ciddiyə alırlar, hətta efirlərə dəvət edirlər- və.s kimi eqo tələbatı. Ya da yarımçıqlıq kompleksi.**

**Bu verilişlərə aid olmadığı halda qonaq olanlar və yahər hansı məsələyə münasibətim olsun deyə, təki məni görsünlər deyə danışanlar hər hadisənin mahiyyətini dəyişir, bayağılaşdırır, həqiqətdən uzaqlaşdırır.**

**Yazının önündə niyə bu hadisəni qeyd etdim?**

**Son olaylar kimi. Aid oldu-olmadı, başı çıxdı-çıxmadı, hamı ekspert olur. Sanki mən bilirəm, mən bacarıram, mən daha çox ağıllıyamı isbatlamaq hərisliyi.**

**Bəli, maraqlana bilərsən, ürəyin ağrıya bilər, həssas olabilərsən, amma ekspert kimi ehkam kəsmək nədir?**

**Son zamanlarsa hər kəsin içində bir hərb ekspertlik boy qaldırıb.**

**Ümumiyyətlə, hərbi-siyasi məsələlərə münasibətbildirməməyimin səbəbi elə adlı-sanlı hərbi-ekspert və.s kimi təqdim edilənlərin mənə görə 90% haldahəqiqətdən kənar olmasıdır. Durub nəsə bildirsən, fikirlərinə əks münasibət göstərsən, bazarlarınagirdiyinə görə səni sözün əsl mənasında doğrayarlar-şər-böhtanla.**

**Onsuz da müharibə gündəliyində hər mövzunu incəştrixlərlə mətndə verirəm.Bəzilərini dolayı yolla, bəzilərinə bəddi sözlərlə və.s. Nələrisə nəzərə alaraq...**

**Belə mövzulara ehkam kəsməyi isə özümü tam hazır saymıram.**

**Gələndən izləyirəm, müharibə haqqında, müharibədən sonra haqqında elə analizlər ortaya çıxır ki, vallah, hansı müharibədən danışdıqlarından xəbərsizəm.Ümumiyyətlə,onların çoxunun dediyinin Qarabağdakı müharibəyə aidiyyatı yoxdur.**

**Sən niyə axı hərşeyşünas olmağ çalışırsan? Hansısa tibb məsələsində həkim, seçkilərdə seçki mütəxəssisi, debatlarda siyasətçi, hərbi-siyasi məsələlərdə hərbi ekspert...Hərşeyşünas olmaq istərkən heçnələşirsən, əziz dostum.**

**Emin Piri**

# BİR CƏNUB ŞƏHƏRİNDƏ VİDEO SÖHBƏT

**Yaxın günlərdə özünün yubileyini qeyd etməyə hazırlaşan yazıçı Qafar Cəfərli ilə görüşüb ,həm əvvəlcədən onu təbrik etdim, həm də ayaqüstü ondan bəzi suallarıma cavab aldım.İndi həmin söhbəti sizə təqdim edirəm:**

**- Qafar müəllim, yubileyiniz ərəfəsində ayaqüstü bir söhbət edək. Siz artıq ikinci ildir ki, AYB Lənkəran Bölməsinə rəhbərlik edirsiniz. Bu rəhbərliyə gələnə qədər Qafar Cəfərli kim olub?**

-Müdriklərdən kimsə deyib: "Ən böyük imtahan insanın özü özünə verdiyi imtahandır". Bu imtahanda bir sual var: Sən kimsən? Cəmi bir sadə sual, amma sadə olduğu qədər də çətin və mürəkkəb bir sual. Fikrimcə, hər kəs ömrünün hansı məqamındasa belə bir sualla üz-üzə dayanmalıdır. Və budur növbə mənimdir.

Altmış beş illik ömrün qurtaracağında özümdən soruşuram:- Qafar Cəfərli, sən kimsən?

Azərbaycanın füsunkar diyarında, Talış dağları ilə Xəzər dənizi arasında yerləşən, Sovetlər dönəmində ölkənin ən böyük rus şairlərindən hesab olunan Nikolay Tixonovun "cənub mirvarisi" adlandırdığı Xan Lənkəranda doğulub boya-başa çatan bir kənd uşağı olmuşam. Məktəbə altı yaşında gedən, səkkiz sinfi doğma Viyən kəndində bitirən, tam orta təhsili isə Lənkəran şəhərindəki 1 saylı məktəbdə alan, ilk beş-altı sinfi zəif oxusa da məktəbi 4 və əsasən 5 qiymətlərlə bitirmişəm. Uşaqlıqda baxdığı hind filmlərinin təsiri altında aktyor olmaq arzusunda olan, sonralar ədəbiyyata yaranan sevgisindən jurnalist-yazıçı olmaq istəyi ilə yaşayan, hələ 7- 8-si siniflərdə oxuyanda bədii və publisistik yazıları rayon və respublika mətbuatında çap olunan, yerli qəzet və radionun ştatdankənar müxbiri adını daşıyan istedadlı hesab olunan şagird olmuşam. Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) jurnalistika fakültəsinə imtahan versə də müsabiqədən keçə bilməyən bəxtsiz cavan, bir ildən sonra həmin Universitetin filologiya fakültəsinə qiyabi qəbul olunan xoşbəxt tələbə hesab olunmuşam. Komsomol işində çalışan, indi dünyanın narahat bölgəsindən hesab olunan Ukraynanın Donetsk şəhərində hərbi xidmətdə olan, xidmətinin son bir ilini Donetsk şəhər hərbi prokurorluğunda əsgər-köməkçi kimi xidmət edən və bu səbəbdən də hüquqşünas olmaq arzusuna düşən bir əsgər həyatı yaşamışam. Iki illik təhsildən sonra filologiya fakültəsindən sənədlərini alıb peşə məktəbinə verən və oranı fərqlənmə diplomu ilə bitirən, ölkənin ən məşhur, sayılıb-seçilən, minlərlə gəncin həsrətində olduğu ADU-nun hüquq fakültəsinin əyani şöbəsinə qəbul olunan, tələbəlik illərində savadı, bacarığı və çalışqanlığı ilə fərqlənən, bədii yazıları ilə tələbə yoldaşları arasında tanınan inadkar bir gənc olmuşam. Mütəxəssis kimi 30 ilə yaxın ömrünü hüquq-mühafizə orqanlarında namusla, vicdanla çalışan, çoxlu sayda təltiflərə, o cümlədən mükafat qaydasında rütbəyə sahib olan, cinayətkarlığa qarşı barışmaz mabarizə aparan, dəfələrlə ölümlə üz-üzə gələn, əqidəsini, zabit şərəfini göz bəbəyi kimi qoruyan peşəkar hüquqşünas, əməliyyatçı və istintaqçı olmuşam.Vətən torpaqlarının üstünü qara buludlar alanda, ölkədə nizami ordunun olmadığı həmin günlərdə əlinə silah götürüb düşmənə qarşı vuruşan, 1-ci Qarabağ savaşında bir neçə döyüşdə iştirak edib sinəsini Vətən torpağına sipər edən igid bir Vətən əsgərinə, vətənpərvər bir insana dönmüşəm. Bütün bu otuz il ərzində ədəbiyyatdan bir an belə ayrılmayan, mərkəzi və rayon qəzetlərdə bədii və publisistik yazılarla çıxış edən, məhz bu səbəbdən də böyük qisim insanların arzusunda olduğu yüksək xidməti vəzifəmdən, xidmətimin başa çatmağına beş il qalmış şəxsi raportumla təqaüdə çıxmağı üstün bilən, yazıb-yaratmaq eşqi ilə alışıb-yanan bir ədəbiyyat sevdalısı olmuşam. İki il o vaxtkı "Region" TV-nin, indiki ARB televiziya kanalının "Cənub" televiziya şirkətində işləyən, bu müddətdə yazdığı əsərlərin motivləri əsasında çəkilən filmlərin əsas məsləhətçisi və baş rolun ifaçısı, həmçinin regionda ilk çəkilən və böyük reytinq qazanan "Günəşim ol" serialında əsas rollardan birinin ifaçısı,dörd kitab müəllifi və bununla da uşaqlıqda əlçatmaz olan aktyor və yazıçı olmaq arzularına qovuşan xoşbəxt bir insan olmuşam. Nəhayət, daha iki kitab və aylarla boş qalan vəzifəyə -AYB Lənkəran Zona Bölməsinə sədr təyin olunan Qafar Cəfərli olmuşam.

**- Mən bir oxucu kimi sizi zaman-zaman izləmişəm, yaradıcılığınızdan xəbərim var. Barənizdə ortaq dostlarımız Ağacəfər Həsənlidən, Balayar Sadiqdən, xüsusilə Musa Xanbabazadədən çox eşitmişəm. Lakin etiraf edim ki, sizi mənə Şuşa sevdirdi. Mən sizi Şuşada kəşf etdim. Bu sizi təəccübləndirmir ki? Ümumiyyətlə, Şuşa sizin üçün hansı anlamı kəsb edir?**

-Maraqlı sualdır. Ortaq dostlarımızdan barəmdə xoş sözlər eşitdiyinə əminəm və güman ki, belə olmasaydı bu günkü səmimi münasibətimiz də olmazdı. Bəli, göstərdiyin şəxslərin hər biri mənim üçün əziz insanlardır. Aramızdakı Şuşa sevgisi isə bir alayı məsələdir. Belə bir məsəl var, soruşurlar ki, qardaşın necə adamdır, deyir bilmirəm, yol yoldaşı olmamışam. Doğrudan da yol yoldaşı olmaq böyük məsuliyyət və ciddi sınaqdır. İnsanların gizlin qalan çox əməlləri bu zaman faş olur, yaxşı və pis hərəkətləri, xarakterik xüsusiyyətləri ortaya çıxır. Şuşa səfəri sizinlə ilk yol yoldaşlığımız idi və sevinirəm ki, bu sınaqdan alnıaçıq, üzüağ çıxa bilmişəm. Bu səbəbdən də Şuşada "kəşf olunmağımı" təbii sayır, buna təəccüblənmirəm.

2021-ci ilin avqust ayında Vaqif Poeziya günlərinin keçirilməsi ilə əlaqədar Şuşaya təşkil olunan bu səfər həyatımın ən unudulmaz, ömür kitabıma qızıl hərflərlə yazılan bir səfər idi. Səfəri mənim üçün möhtəşəm və unudulmaz edən səbəblərdən biri də qiyabi tanıdığım sizi və çoxlu sayda digər dəyərli söz adamları ilə bir arada olmağım, üç gün ərzindəki görüşlərim, çoxsaylı maraqlı söhbətlər və bu günə kimi unuda bilmədiyim mənəvi həzzdir. Bütün bunlar barədə "Şuşalı günlərim" adlı xatirə-oçerkdə geniş bəhs etmişəm.

Şuşanın mənim üçün hansı anlamı kəsb etməsi ilə bağlı sualınız isə uzun illər mürgü vuran, son bir il iki ayda isə daima ayaq üstdə olan, varlığını hər an xatırladan qəmli-qüssəli xatirələrimə bir daha işıq salır.

Birinci sualına cavab verərkən ötəri də olsa 1-ci Qarabağ müharibəsi iştirakçısı olduğumu qeyd etmişəm. Müzəffər Ordumuzun 2-ci Qarabağ müharibəsində- Vətən müvaribəsində işğaldan azad etdiyi rayonların (Hadrutu çıxmaq şərti ilə) hamısında, o cümlədən Şuşada torpaqlarımızın müdafiəsində iştirak edib, döyüşlərdə olmuşam. Şuşa ilə bağlı xatirələrimi 15-17 fevral 2017-ci ildə "Şəhid qala" adlı sənədli hekayəmdə ətraflı qələmə almışam. Hekayə bu sətirlərlə bitirdi: "Şuşa ilə ilk və bu günə son görüşüm belə keçdi. Şuşa yaddaşımda qarlı, şaxtalı, bumbuz halı ilə, qəmli, qüssəli, incik, narazı baxışları ilə qaldı". Bu həqiqət idi. Qoruya bilmədiyimiz, işğalına, düşmən tapdağı altına düşməyinə təxminən üç aya yaxın bir vaxt qalmış Şuşanın özgə halı da ola bilməzdi.

Bu hekayə yazılanda heç xəyal belə etməzdim ki, Ali Baş Komandanın rəhbərliyi altında qəhrəman əsgər və zabitlərimiz üç il doqquz aydan sonra bu müqəddəs məkanı, şəhərlər gözəli Şuşanı bizə əbədən qaytaracaqlar. Və şükürlər olsun ki, bu belə də oldu. Düz 27 il, 7 ay, 7 gündən sonra təkrar Şuşada oldum. Burda rəqəmlərin bir mistikası da özünü göstərməkdədir. Vaxtilə olduğum, döyüşdüyüm yerlərin bəzilərini ziyarət etdim.



Şuşa ilə ikimci görüşümlə bağlı yazdığım "Şuşalı günlərim" adlı xatirə oçerkim bu sözlərdə bitirdi:

-"Şuşa ilə ikinci görüşüm bax beləcə başa çatdı. Bütün doğmalar kimi danışdıq, dərdlərimizi bölüşdük, arada mübahisə etdik, küsdük, barışdıq. Ümü-küsüdə Şuşanın daha çox haqq etdiyinin də fərqində oldum. Amma Şuşanın sevincə, təbəssümə qərq olmuş simasından anladım ki, ayrılığın hökm sürdüyü sonu görünməyən otuz ilə yaxın bir müddətdə çəkdiyimiz əzablara, məhrumiyyətlərə, yuxusuz gecələrimizə, mənəvi sarsıntılarımıza görə O bizləri bağışlamışdır.

Şuşa ilə bağlı qeydlərimi burda bitirirəm. Əmin olun ki, bütün yazdıqlarımı heç bir ritorikaya, pafosa, mübaliğəyə yol vermədən gördüklərim, eşitdiklərim və düşündüklərim əsasında qələmə almışam. Nə dərəcədə alındığını isə, əlbəttə, dəyərli oxucular deyəcək.

Şuşaya növbəti gəlişimin nə vaxt ola biləcəyini və ümumiyyətlə olacağını bilmirəm. Bu, bir Allah qismətidir. Amma Şuşanın bu görüşdəki halından məmnun ayrıldığım üçün artıq dillər əzbəri olmuş sözləri bir daha fəxrlə demək istəyirəm: - Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, sən bizimsən!"

Bəli, Şuşa nəinki Vətənimin bir dilbər guşəsi, üzüyün brilyant qaşıdır, Şuşa həm də mənim ömür kitabımın acılı-şirinli xatirə şəhəridir.

**- Son zamanlarda " Tanrının göz yşları" romanını oxuculara təqdim etmisiniz. Bu roman yaraları yenicə sağalmağa başlayan Vətən müharibəmizdən bəhs edir. Mən oxucu kimi o romanın içində sizi də gördüm. Yanılmıram ki?**

-Məşhur fransız sərkərdəsi Napoleon Bonapartın belə bir fikri var: "Həmişə sülh tərəfdarı ol, lakin müharibəyə də hazır ol". Bu o deməkdir ki, bəzən iradəndən asılı olmayaraq savaşa getməli olduğundan ehtiyat tədbirlərini mütləq görməlisən. Şeyx Şamil deyir ki, "İşğala uğrayan vətən torpaqları sülh ilə ələ keçməz, ancaq savaşla alınar." Doğrudan da, 30 il ərzində beynəlxalq güclərin işğal olunmuş torpaqlarımızı sülh yolu ilə geri qaytarmaq təşəbbüsləri fiaskoya uğrayandan sonra biz məhz savaş yolunu seçdik. 2-ci Qarabağ müharibəsində Müzəffər Ordumuzun tarix yazması heç kimdə şübhə doğurmadı.Bu müharibə xalqımızın qəhrəmanlıq dastanıdır. Bütün bunlara rəğmən müharibə bir faciədir, insan ölümüdür, dağıntıdır, fəlakətdir. Bu müharibədə xalqımızın üç minə yaxın qəhrəman övladı şəhid oldu, həyatlarını Vətən torpaqlarının azad olunmasına fəda etdilər. 2-ci Qarabağ müharibəsində yaşadığım Lənkəran rayonu üzrə 66 nəfər gənc əsgər və zabit şəhid oldu. Həmin şəhidlərdən 63 nəfəri doğulduqları Lənkəran torpağında əbədiyyətə qovuşdular. Müharibə bitər-bitməz mən və qələm yoldaşım şairə-publisist Xatirə Xatunla Lənkəran şəhidləri barədə kitab yazmağı qərara aldıq. Bir neçə ay ərzində kitab yazıldı və yüksək poliqrafik nəşrlə oxuculara təqdim olundu. Şəhid ailələrinin və rayon rəhbərliyinin iştirakları ilə kitabın rayon üzrə yüksək səviyyədə təqdimat mərasimi keçirildi.

Həmin kitabı işləyərkən hər bir şəhid ailəsində olub şəhidin ailə üzvləri, dostları, sinif və tələbə yoldaşları, döyüş yoldaşları ilə söhbət etdik. Kitab nəşr olunduqdan sonra da eşitdiyim dəhşətli və faciəli anlar, müharibənin insanlara bəxş etdiyi ağrı-acılar beynimdə ilişib qalmışdı. Heç cür bu ağrılardan qurtula bilmirdim. Və elə buna görə də keçən ilin iyun ayından başlayaraq "Tanrının göz yaşları" adlı romanı yazmağa başladım və altı ay ərzində bitirdim. Romanda 1-ci Qarabağ müharibəsində Müzəffər Ordumuzun 44 gün ərzində torpaqlarımızın işğaldan azad olunması uğrunda apardığı şanlı mübarizədən, müharibə dövründə arxa cəbhədəki insanların misilsiz fədakarlığından, onların Vətənə, torpağa olan sevgisindən, bir şəhid ailəsinin qan donduran acı taleyindən, müharibəyə qədər və sonrakı dövrlərdə ölkədəki ictimai-siyasi vəziyyətdən, həyatımızda rast gəlinən müxtəlif eybəcərliklərin ifşasından bəhs edilir.

Çoxsaylı şəhid ailələri ilə olan görüşlər səbəbindən, həmçinin müharibə dəhşətlərini gözü ilə görən və sonuncu müharibənin bütün ağrı-acılarını varlığında hiss edən bir insan, bir yazar kimi "Tanrının göz yaşları" romanında müəllif olaraq mənim də fikir və düşüncələrim, arzularım müəyyən məqamlarda özünü göstərir. Bu mənada əsərdə "görünməyimi" təbii sayıram.

**-Bu gün AYB Lənkəran Bölməsi necə yaşayır, nə ilə məşğul olur? Bakı ilə Lənkəran arasında münasibət necədir?**

-AYB Lənkəran Bölməsi 16 oktyabr 1978-ci ildə Azərbaycan Yazıçılar İttifaqının Lənkəran Zona Şöbəsi kimi fəaliyyətə başlamış və 43 ildən artıq bir dövrdə cənub zonasında ədəbi mühitin formalaşmasında və inkişafında əvəzsiz rol oynamışdır. Bölmənin şinelindən çıxmış çox saylı şair və yazıçılar artıq ölkə miqyasında və onun hüdudlarından kənarda tanınmış və tanınmaqdadırlar.

Mənə qədər sədr vəzifəsində yazıçı Məmmədhüseyn Əliyev, şairlər Şəkər Aslan və İltifat Saleh olmuşlar. 2020-ci ilin sentyabr ayının 3-də mən sədr kimi kollektivə təqdim olunmuşam. Qısa bir dövr ərzində Bölmədə təmir işləri aparılmış, əməkdaşlara normal iş şəraiti yaradılmaqla lazımı texniki avadanlıqlarla təmin edilmişlər. Uzun illər fəaliyyəti dayandırılmış Bölmənin ədəbi-bədii orqanı olan "Şəfəq" jurnalının və "Söz" ədəbi məclisinin fəaliyyəti bərpa edilmişdir. Təkcə 2021-ci ildə Bölmədə "Şəfəq" jurnalının təqdimatı ilə bağlı iki tədbir; tarixi günlər və bayramlarla bağlı doqquz tədbir; Nizami Gəncəvinin 880 illiyi ilə bağlı üç tədbir; Mikayıl Müşfiqin və Şəkər Aslanın anım günləri; beş yubiley tədbiri; kitab təqdimatları, imza günləri ilə bağlı doqquz tədbir; illik tədbirlər planına əsasən Bölmənin əhatə etdiyi altı rayonda "Ədəbi mühitin dünəni və bu günü " mövzusunda müvafiq rayonların yazarlarının iştirakı ilə olacaq müzakirələrlə bağlı altı tədbir keçirilmişdir. Ümumən təkcə keçən il ərzində Bölmədə otuz altı tədbir olmuşdur ki, bu da bir aya üç tədbir deməkdir. Təvazökarlıqdan uzaq olsa da deməliyəm ki, bu AYB-nin Bölmə və filiallarında ən yüksək göstəricidir. Keçən il biz son dövrlərdə unudulan bir ilkə da imza atdıq. Belə ki, bölgədə yaşayan, lakin respublikanın mərkəzi ədəbiyyat dərgilərində çap olunmayan yazarların, xüsusən gənc yazarların əsərlərinin çap olunması layihəsinə start verdik. Artıq ilk olaraq Lənkəran yazarlarının nəsr və poeziya nümunələri AYB Lənkəran Bölməsinin təqdimat məktubu əsasında 20 noyabr 2021-ci il tarixdə "Ədəbiyyat qəzeti"nin səhifələrində işıq üzü gördü. Layihə çərçivəsində digər rayon yazarlarının da əsərlərinin bu qəzetdə və digər ədəbi orqanlarda çap olunması nəzərdə tutulmuşdur.

Bu il üçün də nəzərdə tutulan tədbirlərə start vermişik. Artıq şair Tofiq Həsənlinin yenicə çapdan çıxmış şeir kitabının təqdimat mərasimini keçirtdik. Plana müvafiq olaraq mütəmadi şəkildə tədbirlərimiz davam edəcəkdir.

Bakı ilə Lənkəran arasındakı münasibətə gəlincə vəziyyət normaldır. AYB-nin rəhbərliyi bizə imkan olan bütün dəstəyi göstərir. Şəxsən AYB-nin sədri, xalq yazıçısı Anar və katiblik ortaya çıxan problemlərimizin həllinə hər cür kömək göstərirlər ki, buna görə onlara minnətdarlıq etməyi özümə borc bilirəm.

**- Adətən yubiley ərəfəsində təmtəraqlı sözlər çoxalir. Siz də o təmtəraqlı sözləri gözləyirsiz, yoxsa səmimi duyğuların ifadəsini?**

-İnsanın doğum günü, xüsusən yubiley tarixi yaxınlaşdıqca müəyyən hisslərin keçirilməsi təbiidir. Bəli, adam əzizlərindən, dostlarından və rəğbət bəslədiyin insanlardan təbrik gözləyir, hətta yeri varsa tərif də. Bilirsiniz, əslində tərif, sizin ifadənizlə desəm təmtəraqlı sözlər deyilməsində heç bir qəbahət görmürəm. Bu sözlər insanı daxilən sevindirir, ona yaşamağa, yazıb-yaratmağa stimul verir. Amma burda bir şərt var ki, hər şey normasında olmalıdır, nə az, nə də ki, çox. Qədim yunan filosofu Platon deyib ki, "Tərif əsl fikirlərini gizlədənlərin söylədikləri yalandır". Bu fikirdə böyük həqiqət payının olmasını heç kim inkar edə bilməz. Həyatda çoxlu sayda bu cür hadisələrin şahidi olmuşuq, Qədim hind filosofu Beydəbanın fikrinə görə isə: "Tərifin ən yaxşısı yaxşı insanların söylədikləri tərifdir." Cəmiyyətdə nüfuzu olan, şəxsiyyəti və sənəti sevilən, ləyaqətli, təmənnasız insanların dilindən çıxan sözlər çox dəyərlidir. Xoşbəxtəm ki, mənim də ətrafımda bu cür insanlar var. Onlardan yubiley təbriki olub-olmayacağını isə qabaqcadan deməyə çətinlik çəkirəm.

Əslində, kiminsə boğazdan yuxarı dediyi tərifin, təmtəraqlı sözlərin arxasında konkret məqsəd dayandığını hiss etməmək mümkün deyildir. Nə vaxtsa oxuduğum, beynimdə ilişib qalan bir fikri xatırladım. Deyilir ki, "Bizi nə qədər tərifləsələr də özümüz haqqında bizə yeni bir şey öyrətmiş olmazlar". Bu mənada istər tərif, istərsə də tənqid mövqeyindən ifadə edilən səmimi fikirlər mənim üçün daha dəyərli, daha əzizdir.

**- Bir yazıçı, bir Bölmə rəhbəri və nəhayət, Qafar Cəfərli olaraq 70-dən o tərəfi necə görürsüz?**

-Bir yazıçı olaraq yetmişə qədər və yetmişdən sonrasını yeni-yeni əsərlər yazacağımı, yeni kitablar nəşr edəcəyimi, ədəbi mühitdə daha fəal olacağımı, ölkədə və kənarda yaradıcılıq əlaqələrimi gücləndirəcəyimi, dramaturgiya sahəsində qələmimi bir daha sınayacağımı, film ssenariləri yazacağımı və imkan daxilində rolda çəkiləcəyimi (ən çoxda dünya görmüş, başı daşdan-daşa dəymiş ağsaqal kişi obrazında) düşünürəm.

Bölmə sədri kimi isə bu təyinat zamanı ürəyimdə and içdiyim və bəzən aşkarda ifadə etdiyim arzum uğrunda mübarizəmi davam etdirmək istərdim. Arzum Cənub ədəbi mühitini daha da canlandırmaq, nəinki əvvəlki səviyyəsinə, hətta ondan da üstün bir hala çatdırmaq, bölgə yazarlarının fəaliyyətini gücləndirmək, xüsusən gənclərin ədəbiyyata gəlişinə dəstək olmaq, onlara imkan daxilində lazımı köməkliklər göstərmək, bölgə yazarlarının layiqli əsərlərini respublika səviyyəsinə və ölkə hüdudlarından kənara çıxartmağa çalışmaqdır. Təbii ki, ömür vəfa qılsa və AYB rəhbərly fəaliyyətimi bəyənib bu işdə qalmağımı məsləhət bilərsə arzularımın arxasınca yürüşümü davam etdirəcəyəm. Əslində mənim bütün bu arzuladıqlarımın həyata keçməsi elə Azxərbaycan Yazıçılar Birliyinin də fəaliyyətinin güclənməsinə, nüfuzunun artmasına xidmət etmiş olacaqdır.

Qafar Cəfərli olaraq mən də qeyriləri kimi 70 il və daha artıq yaşamaq istərdim ki, bu da normal haldır. İnsanı yaşadan, onu gündən-günə, aydan-aya, ildən-ilə aparan arzu və istəkləridir. Bu mənada insan arzuları tükənməzdir. Mənim də ailəmlə, uşaqlarımla, nəvələrimlə, gələcəkdə nəticələrimlə bağlı arzu və istəklərim çoxdur. Yaşı səksəni ötmüş bir qohum kişi var idi. Üç yaşlı nəticəsinə dua edib deyirdi ki, "Ay Allah, bu balanın toyunu mənə qismət elə". İndi onun sözü olmasın, mən də deyəsən yüz yaşın arzusundayam.

Əslində, yaşamaq istəyi təbii bir hissdir. Amma bütün arzularıma rəğmən ortada özünün həyat prinsipləri olan, dövlətini, Vətənini, torpağını, elini-obasını, onun füsunkar təbiətini bütün varlığı ilə sevən, ürəyi həyat eşqi ilə dolu olan, insanlara qarşı böyük sevgi bəsləyən və ədəbiyyatı, yazıb-yaratmağı özünün həyat kredosu bilən bir Qafar Cəfərli var. Hər şeyi bilən isə uca Tanrıdır, yaşayarıq görərik.

**- Qafar müəllim, zənnimcə söhbətimiz atüstü olsa da, amma maraqlı alındı. Bu səmimiyyətə görə Sizə təşəkkür edirəm! Və bir daha yubileyiniz münasibəti ilə Sizə ən xoş arzularımı çatdırıram, Var olun,uğurlarınız tükənməsin!**

- Əbulfət müəllim, suallarınız çox maraqlı oldu. Suallarınız ürəyimdəki bəzi fikirləri sizinlə bölüşməyə imkan verdi. Və bir az rahatlndım. Sağ olun, təşəkkür edirəm.

**Söhbətləşdi:**
**Əbülfət MƏDƏTOĞLU**

# Məktəbdə baş verən tərbiyəsizlik şagirdin günahıdır, yoxsa müəllimlərin?

**Bu həftə sosial şəbəkədə şagirdlərin dərs vaxtı qeyri-etik hərəkətlər etməsi ilə bağlı videosu yayıldı.**

Bakının Xətai rayonunda yerləşən 165 saylı tam orta məktəbdə çəkildiyi məlum olan videoda şagirdlərin müəllimə qarşı hörmətsizlik edərək ayaqlarını partaların üstünə qaldırması və digər xoşagəlməz hərəkətlərə yol verməsi cəmiyyətdə birmənalı qarşılanmayıb.

Müəllimə qarşı hörmətsiz davranışlara yol verən üç nəfər 9-cu sinif şagirdi polis tərəfindən profilaktik uçota götürülüb. Onlar polisə çağırılaraq, izahatı alınıb.

Daha sonra isə dərsin təşkilində yol verdiyi nöqsanlara görə fənn müəlliminə töhmət verilib, həmçinin hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən valideyn və şagirdlərin izahatları alınıb. Üzrxahlıq edən şagirdlər bir daha belə hallara yol verməyəcəklərini bildiriblər. Şagirdlər müvafiq qaydada profilaktik tədbirlər görülməsi üçün qeydiyyata götürülüb.



***"Bu gün məktəbdə baş verənlər əslində bizim üçün bir çağırış olmalıdır"***



**Psixoloq Fərqanə Mehmanqızı** müəllim-şagird-valideyn münasibətləri mövzusunda fikirlərini "Ədalət" qəzeti ilə bölüşüb.

"Bu gün məktəbdə baş verənlərin kökündə aqressiya, insanların empati qurmaq bacarığının aşağı düşməsi durur. İnsanlar sanki bir-birilərini duymurlar, eşitmirlər. Və bu aqressiyanın da nəticəsi özünü müxtəlif qurumlarda göstərir. Təkcə məktəb-şagird münasibətlərində yox, müxtəlif qurumlarda, ailədaxili münasibətlərdə, sosial şəbəkələrdə bunu görə bilirik. Bu gün məktəbdə baş verənlər əslində bizim üçün bir çağırış olmalıdır ki, artıq cəmiyyət öz üzərində işləməlidir. Ailə institutu bərpa olmalıdır, milli dəyərlər, mənəvi ruhumuz birləşməlidir. Öz üzərimizdə işləməliyik ki, hormoniyanı tuta bilək, bir-birimizə qarşı münasibətimizi doğru yolda yönəldək".

Psixoloq Fərqanə Mehmanqızı bu kimi problemlərin kökünü ailədaxili aqressiyalarda görür:

"Hər kəs bilir ki, uşaq evin güzgüsüdür və ailə isə kişik dövlətdir. Bu gün ailədə baş verənlər özünü məktəbdə göstərir. Məktəbdə müəllim də hansısa alədən çıxıb, uşaq da. Bu onu göstərir ki, ailələrdə aqressiya var. Ailədə aqressiya varsa, nəzərə alsaq ki, ən azı hər ailədə iki-üç insan var, demək ki, hər yerdə aqressiyanı görə bilərik. Uşaqlar hələ özlərini korreksiya edə bilməyiblər".

"Çox təəssüf ki, müəllim-şagird münasibətləri zədələnir, bu zədə təhsilə siraət edir və təhsilə vurulan zərər də bizim gələcəyimizə, uşaqlarımızız savadına zərbə vurur. Bir daha qeyd edirəm ki, bu kimi halların qarşısını almaq üçün sadəcə öz üzərimizdə çox işləməliyik və məktəblərdə psixoloqların işinə şərait yaradılmalıdır. Müəllimlərin psixoloqlarla, valideynlərin məktəblə işləməyi vacibdir.

Bir-birilərini ittiham etmədən, bir-birilərinə qarşı töhmətsiz şəkildə əl-ələ verməlidirlər.

Çünki hamının məqsədi cəmiyyətə həm fiziki, həm də psixoloji cəhətdən sağlam övlad bəxş etməkdir" - deyə Fərqanə Mehmanqızı bu kimi halların aradan qaldırılması barədə çıxış yollarını göstərib və psixoloqların məktəblərdə işləməyinə diqqət çəkib.

***"Baxmayaraq ki, o müəllimlər saxtakarlığa bulaşıb..."***

**Tanınmış jurnalist, "LAF" internet televiziyasının rəhbəri Ləman Ələşrəfqızı** da məsələ ilə bağlı "Ədalət" qəzetinə danışıb.

"Valideyn komitələri yaradıblar, bu komitələrə məktəblə vaxtaşırı əlaqəsi olan adamlar seçilir. Missiyaları nədən ibarətdir? "Whatsapp" qruplarında fond pul yığmaqdanmı?".

Ləman Ələşrəfqızı əvvəlcə müəllimlərin son illərdə nüfuzdan düşməyi ilə bağlı bəzi fikirlərini qeyd edib:

"Mənim övladlarım 9 nömrəli məktəbdə oxuyub. Orada uşaqlar ikinci mərtəbənin pəncərəsindən atlanmışdılar. Elə bu yaxınlarda yenə belə bir insident baş vermişdi və məktəbin direktoruna töhmət yazılmışdı. Amma mən "LAF" TV-nin efirindən dedim ki, o direktoru qınamıram. Hansı ki o direktor şagirdi itələmişdi. Düzdür, cəmiyyətimiz müəllimlərə qarşı aqressiya ilə yüklənib. Bu da səbəbsiz deyil. Müəllim özünü seçkidə batırıb, saxtakarlığa imza atıb, saxtakarlığın tərkib hissəsinə



çevrilib. Bizim dövrümüzdə müəllimlərə müqəddəs kimi baxırdıq,"müəllim su içmir, yemək yemir" fikrinə inanırdıq, bu şablon görünə bilər, amma biz doğrudan da buna inanırdıq. Müəllimlərimizə bayramlarda açıqcalar yazırdıq, səbrsizliklə oxumasını gözləyirdik, müəllim bizim üçün şəxsiyyət idi. Amma bugünkü Azərbaycan reallığı müəllimi o qədər əzik edib ki, yaxşılar da pislərin gözündə əriyib gedib. Ona görə də müəllimlərin bu formada dışlanmasının əleyhinəyəm. Baxmayaraq ki, o müəllimlər saxtakarlığa bulaşıb və qatıldığım seçkilərdə Sevil adlı bir müəllimdən özümə qarşı saxtakarlıq, hətta deyərdim ki, əxlaqsızlıq görmüşəm".

***"Məktəbdə tualetə getmə!"***

"Həmişə valideyn iclaslarına qatılanda demişəm ki, mənim adıma, imzama, hörmətimə görə uşaqlarımın mənfilərinə göz yummayın. Valideynlər isə əksinə, deyirlər ki, amanın günüdür, uşağıma dəyməyin, zəri tökülər. Oğluma deməmişəm, bilirdim ki, siqaret çəkmir, pis işlərə getməz, amma bu gün məktəbə gedən qızıma hər səhər sözüm var - məktəbdə tualetə getmə! Xəbərdarlıq edirəm, təbii ehtiyacını evdə həll edib gedir.

Deməli, alt şüurumuza oturub ki, məktəb tualetlərində nələrsə baş verir. Düzdür, əyani sübutumuz yoxdur, amma deyilirsə, deməli var.

İkinci xəbərdarlığım isə bu olur - məktəbdən çıxanda ola bilər, biz səni götürmək üçün ləngiyək, kimsə sənə konfet, saqqız versə, götürmə. Çünki onun içində narkotik ola bilər. Düşünürəm ki, hər bir valideyn övladı ilə bu cür profilaktik işlər aparmalıdır".

O, problemin həll yolundan danışarkən qeyd edib ki, adətən müəllimlərə yanaşmada qadın-kişi ayrıseçkiliyi edirlər. Amma bu ötən gün 165 saylı məktəbin direktorunun kişi olduğunu görəndə təəccübləndim. Kişi direktorun olduğu məktəbdə də belə hadisələr baş verir. Ona görə də qadın-kişi fərqi qoyulmamalıdır. Sadəcə Təhsil Nazirliyi toparlanmalıdır. Nə etmək lazım olduğunu onlar bilir, çünki buna görə maaş alırlar. Nazirimiz xaricdə təhsil alıb. Valideyn komitələri yaradıblar, bu komitələrə məktəblə vaxtaşırı əlaqəsi olan adamlar seçilir.

**Missiyaları nədən ibarətdir? "Whatsapp" qruplarında fond pul yığmaqdanmı? Boş-boş müzakirələr açmaqdanmı? Bu komitələr danışdığımız mövzuda fahdalı işlər görə bilərlər, o qruplarda belə məsələləri müzakirə edib çıxış yolu tapa bilərlər. Bu məsələlər gündəm olmalıdır, direktorlar bunu gizlətməməlidir, dərhal müəllimə töhmət verib yaxasını kənara çəkməməlidir, bu məsələni açıb-ağartmaqdan utanmamalıdır, qorxmamalıdır. O fakt ki, artıq ortaya çıxacaq, müzakirə mövzusu olacaq. Töhmət çıxış yolu deyil, qalan şeyləri isə Təhsil Nazirliyi düşünsün, bu onların işidir.**

**Eminquey**

## *Durnalar uçur" və ya Leyla Rəhimlinin yaradıcılıq dünyası*




**Leyla Rəhimli hələ məktəblidir. Tovuz rayonu, Şah İsmayıl Xətai adına Köhnəqala kənd tam orta məktəbinin 7-ci sinif şagirdidir. Ədəbiyyata, sözə, incəsənətə marağı var. Maraqlı reportajlar hazırlayır, maarifçiliklə bağlı sujetlər qurur, müxtəlif bədii mövzularda məqalələr yazır. Bu məqalələri essevari düşüncələr diqqəti çəkir, publisistik elementlərlərdən geniş istifadə olunur. Leyla Rəhimlinin yaradıcılıq nümunələrinə baxdıqca onun ürək döyüntülərini, düşüncələrini, dünyaya baxışlarını görmək olur, o, arzularını, xəyallarını sözlə, bədii ovqatın dili ilə ifadə etməyi bacarır. Onun hər sözündə bir ümid, bir inam var. Bu ümidlə, bu inamla o dərslərini də yaxşı oxuyur, həm də qələmə sarılıb öz yazıçılıq istedadı ilə bizi heyrətləndirə bilir.**

Sokrat düşüncəni ətraf aləmin dəyişikliyi ilə izah edirdi. Leylanın ətraf aləmlə bağlı müşahidələri həm də bir az fəlsəfidir. Leyla ağacı, yarpağı, küləyi, yağışı, qarı sadə və anlaşıqlı dillə təsvir edir, hadisələri böyütmür, əksinə hər şeyi olduğu kimi təsvir etməyə çalışır. Onun "Böyük Sərkərdə" yazısına nəzər yetirsək bu kimi məqamları görə bilərik. O, "Böyük Sərkərdə" yazısını şəhid general-mayor Polad Həşimova həsr edib. Vətən sevgisi və torpaq müqəddəsliyini incə və bir o qədər həssaslıqla duyan müəllif qəhrəmanın cəsur və qorxmaz xarakterini ortaya qoymağı bacarır...

"Erməni ordusu Tovuzu işğal etmək istəyirdi. Sərhəddə güclü döyüşlər gedirdi. Bu döyüşlərdə general-mayor Polad Həşimovda iştirak edirdi. O, düşmənə ağır zərbələr endirirdi. Ermənilərin canına qorxu düşdü. Onlar Polad Həşimov haqqında çox eşitmişdilər, onun döyüş bacarığına, sərkərdəlik istedadına yaxşı bələd idilər."

Leyla obrazlı ifadələrdən, pafoslu cümlələrdən uzaqdı. O, hadisələri olduğu kimi, qısa, ancaq dolğun ifadə edir. Bu da Leylanın özünəməxsus bir xüsusiyyətidir. Hadisələri canlı, real və təbii ifadə etmək bir qələm adamının, söz adamının üstün keyfiyyətlərindən hesab olunur...

"Şəhidlik tale qisməti" məqaləsində vətənpərvərlik duyğularının səmimiliyi, millət sevgisinin təmənnasızlığının saf təcəssümünü görə bilərik. Şəhidlər ölməzdir, onlar

qanları, canları hesabına tarix yazdılar. Bu hər bir azərbaycanlı üçün bir örnək, bir fəcarət deməkdir. Leyla şəhidlərin əziz xatirəsini belə ifadə edir: "Şəhid olmasa, Vətən də olmaz. Vətəni yaşadan şəhidlərdi..."

Leyla Rəhimli! Sənə qələm yaraşır, söz sənin ruhunu oxşayır. Yazmaq və yaratmaq yolunda sənə bol şans və uğurlar arzu edirəm.

**Əbülfət Mədətoğlu,**
**Şair, Əməkdar jurnalist**

Vahid Əliyev, İlham Əliyev, Mamed Hüseynov və Asif Talıboğlu Qubadlı rayonunun ağsaqqallarından olan

**Ərşad Şamı oğlu Mirzəyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 59
Çapa imzalanmışdır: 28.01.2022